**Azərbaycan Respııblikasının Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil Problemləri Institutu**
**Azərbaycan Dillər Universiteti**
**ŞƏHLA NAĞIYEVA MÜSƏLLİM HƏSƏNOV**

# ADİ VƏ QEYRİ-ADİ AMERİKA

***Okeanın o tayındakı həyat tərzinə azərbaycanlı baxışı***

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Avropa dilləri və ədəbiyyatı" bölməsinin 7 mart 2006-cı il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (Protokol N 4).*

«ÇİNAR-ÇAP»

BAKI - 2006

**Həsənov Müsəllim Qaman oğlu**

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Uzun illər respublikanın müxtəlif mətbuat orqanlarında çalışıb. “Lider” televiziyası ilə nümayiş etdirilmiş bir sıra sənədli filmlərin, o cümlədən “Adi və qeyri-adi Amerika” filmlər silsiləsinin ssenari müəllifidir.

**Nağıyeva Şəhla Bədir qızı**

Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirib. Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsi problemlərinə dair namizədlik dissertasiyası müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Azərbaycan Dillər Universitetində Böyük Britaniya və Amerika ədəbiyyatından dərs deyir.

*Kitab ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi və Amerika Məzunları Assosiasiyasının (AAA) köməyi ilə çap olunub.*

**Rəyçilər:** S. ƏLİYEVA, *Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix elmləri namizədi,*
Ə. MƏMMƏDOV, *Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, fəlsəfə elmləri namizədi.*
**Redaktor:** Şakir Yaqubov, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi.

**ŞƏHLA NAĞIYEVA, MÜSƏLLİM HƏSƏNOV.**

A36 **ADİ VƏ QEYRİ-ADİ AMERİKA.** *Okeanın o tayındakı həyat tərzinə azərbaycanlı baxışı.* - Bakı, **"ÇİNAR-ÇAP"** nəşriyyatı 2006. **-** 172 **s.**

*ABŞ-a uzun müddətli ezamiyyət əsasında yazılmış bu kitabda Amerika həyatının müxtəlif sahələri - məişət, iş, təhsil və səhiyyə nəsilləri, sadə insanların həyatı, amerikalı azərbaycanlıların güzəranı və s barədə söhbət açılır. Dövlətin siyasi əsasları, eləcə də bütün prezidentlərin həyatı haqqında yığcam məlumat verilir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

A 4702060200
A 122

© "ÇİNAR-ÇAP", 2006

## MÜNDƏRİCAT

Amerika həqiqətləri ............................... ..................
Gördüyümüz Amerika haqqında bir neçə söz ............

**I HİSSƏ.**

**TANIDIĞIMIZ VƏ TANIMADIĞIMIZ AMERİKA**

Viza sınağı, on dörd saatlıq uçuş və
aeroport müşahidələri.................................................
Amerika ilə ilk tanışlıq və "mədəniyyət şoku" ..........
Kiçik şəhərin mozaikası............................................
Ştat, yoxsa dövlət? Və ya Vaşinqtonda gördüklərimiz
Itkin düşmüş koloniya və Rayt qardaşları .................
Amerikalılar hind toyuğunu niyə sevirlər?.................
Nəhəng dünya bazarı və ya böyük ticarətin
kiçik sirləri ...................................... .......................
Yüksək inkişaf səviyyəsinin özəllikləri .....................
Amerikanın yollan ....................................................
Toxluqdan... əziyyət çəkənlərin vətəni ......................
Dərs saatı..................................................................
Sağlamlığın qiyməti .................................................
Amerikada Azərbaycanı necə tanıyırlar?...................
Amerikalı azərbaycanlılar.........................................
"Qeyri-leqal"lar: Amerika arzusu reallıqda ..............
"Evsizlər sığınacağı" və "Pensiya icması".................
Sadə amerikalı necə yaşayır?....................................
Amerikada jurnalistika və jurnalistlər ......................
ABŞ müsəlmanları ...................................................
Narazı amerikalılar ....................................................

**II HİSSƏ.**

**KOLONİYALARDAN BƏRABƏRHÜQUQLU ŞTATLARIN İTTİFAQINADƏK**

ABŞ DÖVLƏTİNİN SİYASİ ƏSASLARI ..........
Müstəqillik bəyannaməsi .....................................
Konstitusiya..........................................................
Konqres ................................................................
Himn.....................................................................
Bayraq..................................................................
Siyasi partiyalar....................................................
ABŞ PREZİDENTLƏRİ:
1-CİDƏN 43-CÜYƏ QƏDƏR .............................
"Birinci ledi" fenomeni..........................................
Prezidentlərin həyatından maraqlı faktlar .............
Prezident övladları................................................
Prezidentlər və sui-qəsdlər....................................
Prezidentlərin inaqurasiya mərasimi......................
Birgünlük prezident...............................................
Həyat və ölüm arasında mənhus oxşarlıq................

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT.................

## AMERİKA HƏQİQƏTLƏRİ

Əvvəlcə bu kitabın müəllifləri haqqında.
Şəhla Nağıyeva vaxtilə tələbəm olub, indi isə həmkarımdır, Azərbaycan Dillər Universitetində Böyük Britaniya və Amerika ədəbiyyatından dərs deyir. Onun həyat yoldaşı Müsəllim Həsənovu isə istedadlı jurnalist və vicdanlı qələm adamı kimi çoxdan tanıyıram. Şəhla xanım ABŞ hökumətinin maliyyələşdirdiyi Fulbrayt proqramımın qalibi kimi 2003 - cü ilin sentyabrından etibarən 6 ay ərzində ABŞ-ın Şimali Karolina ştatındakı Şərqi Karolina Universitetində elmi tədqiqat aparmış, eyni zamanda həyat yoldaşı ilə birgə Amerika həyat tərzini yaxından izləmək imkanı qazanmışdır. Onlar vətənə qayıtdıqdan sonra tanıdığımız və tanımadığımız Amerika barədə kitabı ərsəyə gətirmişlər.

Azərbaycan oxucusunun maraqla qarşılayacağı bu kitab Amerika Birləşmiş Ştatları ilə əlaqədar həm bələdçilik keyfiyyətləri, həm də tarixi-xronoloji informasiya bolluğu cəhətdən diqqəti cəlb edir.

Bəli, uzun illər boyu bizə okeanın o tayındakı məkr və qəzəb dünyası kimi təlqin edilən ABŞ-ın əsl demokratik siması ilə real tanışlığımız dövrü başlanmışdır və həmin tanışlığın daha da dərinləşməsi baxımından bu tipli kitablar çox əhəmiyyətlidir.

Əlbəttə, iddia etmək olmaz ki, oxucunun əlində tutduğu kitab ümumən respublikamızda bu mövzuya dair ilk mənbədir. Bundan qabaq da müxtəlif yazıçı, şair və jurnalistlərin, müəyyən proqrama uyğun olaraq ABŞ-da işləmiş elm adamlarının (məsələn, professor Qəzənfər Paşayevin, tanınmış jurnalistlər Əlirza Balayevin, Elmira Axundovanın və s.) təəssüratları mətbuatda dərc edilmişdi. Bu sətirlərin müəllifi də uzaq 1990-cı ildə Amerikaya səfərinin təəssüratları altında yazdığı "Salam, sadə amerikalı" adlı silsilə məqalələrlə "Bakı" qəzetinin yeddi nömrəsində çıxış etmişdi. Lakin bu kitabı Amerika barədə əvvəlki nəşrlərdən fərqləndirən əsas əlamət onun daha artıq dərəcədə informativ xarakter daşımasıdır. Uzaq reyslərə uçan təyyarələrdəki spesifiklikdən tutmuş, Ağ evin quruluşuna qədər, ailə-məişət məsələlərindən tutmuş ABŞ dövlətinin siyasi dayaqlarına qədər...

Şübhəsiz, ABŞ böyük, varlı və güclü ölkədir. Ölkə əhalisinin yaşayış səviyyəsi yüksəkdir. Bəs daxili və xarici problemləri digərlərindən heç də az olmayan ölkə bu yüksəkliyi nəyin hesabına əldə etmişdir? Bu abadlığın, ən müasir texnologiyanın arxasında hansı əməli işlər dayanır? Ş.Nağıyeva və M.Həsənov öz kitablarında haqlı olaraq daha çox bu mahiyyəti axtarırlar və kitabın sanbalını artıran əsas faktor da məhz budur.

Müəlliflər ABŞ - daxili hadisələrdə müvəqqəti yaşadıqları Şimali Karolina ştatının prizmasından yanaşırlar. Qeyd etmək yerinə düşər ki, ABŞ-ın əlli ştatının hər biri özünəməxsusluğu ilə seçilsə də, ştatların əllisi də bir ümuminin tarazlığı altındadır həyat səviyyəsinin eyniyyəti Paytaxt Vaşinqtondakı yüksək həyat standartları ölkənin ən ucqar nöqtəsində də eynidir. Ona görə də, Şimali Karolinaya şamil edilən nə varsa, bütün Amerika üçün xarakterikdir.

Bu kitabın ən yüksək məziyyəti də müəlliflərin Amerikaya daxildən baxışıdır. ABŞ-ın dövlət atributları, siyasi təsisatları, prezidentləri haqqında xronoloji ardıcıllıqla verilmiş qısa məlumatlar isə kitabın əlavə məziyyətidir.

Əlbəttə, kiçik həcmli bir kitabın hüdudlarında böyük Amerikanı ifadə etmək qeyri-mümkündür və müəlliflər də bu iddiada olmamışlar. Lakin müraciət etdikləri bütün məsələlərdə müəlliflər hər şeyi öz adı ilə adlandırır, ABŞ-ın realist portretini yaratmağa çalışırlar ki, bunu təqdir etməmək olmur.

Bu kitabın ali məktəblərimizdə "Amerikaşünaslıq" ixtisası üzrə təhsil alan tələbələr üçün çox dəyərli vəsait olacağı şübhə doğurmur. Lakin tam əminliklə demək olar ki, Amerika Birləşmiş Ştatları ilə maraqlanan hər bir oxucu da bu kitabda özü üçün nəsə dəyərli bir şey tapacaqdır.

**Zeydulla AĞAYEV,**

**filologiya elmləri doktoru, professor**

## GÖRDÜYÜMÜZ AMERİKA HAQQINDA BİR NEÇƏ SÖZ

Bu kitab bütün Amerika barədə deyil. Heç bu, bütövlükdə Amerika və amerikalılar haqqında məlumat kitabı da deyil. Çünki bütün Amerikanı görmək, yaxından tanımaq, başlıcası isə duymaq, hiss etmək üçün bir neçə aylıq ezamiyyət müddəti qətiyyən kifayət eləmir. Amerikanı tanımaq və anlamaq üçün orada illərlə yaşamaq lazımdır.

Bu kitab bizim altı ay ərzində okeanaşırı ölkədə gördüklərimiz, eşitdiklərimiz və öyrəndiklərimiz barədədir. Daha doğrusu, bu kitab bizim ezamiyyət vaxtı yaşadığımız Şimali Karolina ştatının timsalında tanıdığımız Amerika barədədir. Bu ölkədə isə hər bir ştat sanki ayrıca bir dövlətdir: hər ştatın məxsusi özəllikləri, adət-ənənələri, fərqli cəhətləri var.

Ona görə də bizim müşahidələrimiz, gördüklərimiz bu ölkə-də səfərdə olmuş bir başqasının təəssüratı ilə üst-üstə düşməyə də bilər. Bu ölkədə bizə qeyri-adi gələn, bizi təəccübləndirən bəzi məqamlar başqasına adi görünə bilər.

Biz bu kitabda nə Amerikanı, nə də amerikalıları ideallaşdırmaq, təzədən «Amerika açmaq» istəyirik. Yəqin ki, bütün cəmiyyətlər kimi, Amerika cəmiyyətinin də naqis cəhətləri kifayət qədərdir. Yəqin ki, bütün xalqlar kimi, amerikalılar da «aydan arı, sudan duru» deyillər. Şübhəsiz, ABŞ dövlətinin həyata keçirdiyi siyasətin də yanlışlıqları çoxdur.

Bütün bunlarla yanaşı, yəqin hamı etiraf edər ki, Amerika Birləşmiş Ştatları azad insanların vətənidir. İnkişafa və tərəqqiyə aparan yol isə azadlıqdan başlayır.

Zənnimizcə, heç kim şübhə etməz ki, Amerika zəngin demokratik ənənələr ölkəsidir. Qanunların aliliyinə hörmətdən qaynaqlanan ənənələr ölkəsi.

Amerika müxtəlif mədəniyyətlərin və dinlərin sərbəst inkişafına təminat verən dövlətdir.

Amerika bütün insanlar üçün bərabər imkanlar ölkəsidir.

Amerika yüksək inkişaf və ən müasir texnologiyalar diyarıdır.

Bununla belə, Amerika adi ölkədir. Amma bu adilikdə qeyri-adiliklər də az deyil.

Biz bu adiliklərdən və qeyri-adiliklərdən bəhs edirik. Nəticə çıxarmaq, təəccüblənmək və ya hər şeyi adi qəbul etmək oxucunun öz işidir...

## VİZA SINAĞI, ON DÖRD SAATLIQ UÇUŞ VƏ AEROPORT MÜŞAHİDƏLƏRİ

Yaxın xarici ölkələrdən fərqli olaraq, Amerikaya səfər yol çantasını hazırlamaqdan və ya təyyarəyə bilet götürməkdən başlanmır. Amerikaya səfər viza almaqdan, daha doğrusu, viza üçün bu ölkənin səfirliyinə ərizə ilə müraciətdən başlanır. Və bu prosesin özünün alışmadığımız bir çox çətinlikləri olur ki, bu barədə söhbət açmağa dəyər.

Viza almaq məqsədilə ABŞ-ın Azərbaycandakı səfirliyinə müraciət etmək üçün gərək əvvəlcədən növbəyə yazılasan. Bu faktın özü ən müxtəlif məqsədlərlə Amerikaya getmək istəyən soydaşlarımızın çoxluğundan xəbər verir. Təyin olunan vaxtda səfirliyə gəlib çoxsaylı anketləri doldurmaq, çoxlu suala cavab vermək lazım gəlir. Ən nəhayət, müsbət və ya mənfi cavabın verilməsi üçün əsas məqam konsulla söhbət sınağından keçməlisən.

Viza vermək məsələsində konsul həlledici şəxs, son instansiyadır, desək, yəqin ki, səhv etmərik. Bütün sənədlərin yerli-yerində olmasına baxmayaraq, son anda konsulun «yox» kəlməsiylə bütün hazırlıqlar yarımçıq qala bilər. Görünür, 2001-ci ilin məşum 11 sentyabr hadisələrindən sonra Amerika konsullarının həmişə nədənsə şübhələnmək, yaxud nəyəsə inanmamaq «hüququ» qanuni qüvvə alıb və bunu da əsassız saymaq olmaz. Ona görə də viza məsələsində ABŞ konsulu ilə mübahisə etmək, hansısa hüquq pozuntusundan danışmaq, insan hüquqlarına dair hansısa konvensiyaya isnad etmək əbəsdir. Amerikanın təhlükəsizlik məsələsi bu ölkənin məmurları üçün bütün hüquqlardan irəlidə dayanır.

Ərizə qəbul edildikdən bir neçə gün sonra konsul viza üçün müraciət edən şəxsi söhbətə (amerikalılar buna «intervyu» deyirlər) dəvət edir. Bu görüş zamanı konsul istənilən sualı verir V8 verə bilər. Təbii ki, o, daha çox səfərin məqsədi, səfərə çıxmaq istəyən şəxsin maliyyə durumu, ailə vəziyyəti, iş yeri və I, ilə maraqlanır. Və bu söhbətə əsasən bir neçə gün ərzində ya icarəyə verilir, ya da viza verilməsindən imtina barədə məktub təqdim olunur. İmtina məktubunda səbəblər göstərilir və qeyd olunan çatışmazlıq (və ya hal) aradan qaldırıldıqdan sonra yenidən müraciət etmək hüququ xatırladılır.

Məlum olduğu kimi, dünyanın hər yerindən daimi yaşamaq, yaxud sadəcə gəzmək və ya işgüzar məqsədlərini reallaşdırmaq üçün Amerikaya getmək istəyənlərin sayı ilbəil artır. ABŞ hüquqşünası Ceffri Kouenin «ABŞ-a viza» adlı məlumat kitabının dünyanın 30-a yaxın ölkəsində çap edilməsi və geniş populyarlıq qazanması da bu marağın böyüklüyündən xəbər verir. Kitabda Amerikaya viza almaq proseduru barədə məlumat verilir, bu ölkənin tətbiq etdiyi vizaların xüsusiyyətləri qeyd edilir, ərizə nümunələri və s. göstərilir. Bu da təsadüfi deyil. Çünki əksər dövlətlərdən fərqli olaraq, ABŞ-a getmək hüququ verən vizanın 50-dən çox növü var. Məsələn, hökumət üzvləri, xarici ölkələrin səfirləri və onların ailə üzvləri Amerikaya getmək üçün «A-1» kateqoriyalı vizadan istifadə edirlər. Səfirlik əməkdaşları, xarici ölkə hökumətlərinin məmurları, habelə onların ailə üzvləri «A-2» kateqoriyalı vizadan yararlanırlar. «A-3» kateqoriyalı vizalar səfirlik işçilərinə xidmət edən şəxslərə verilir. ABŞ-a işgüzar səfərə gedənlər «V-1» vizasından, turistlər isə «V-2» vizasından istifadə edirlər. Tranzit sərnişinlər «S-1» vizası almalıdır. Beynəlxalq təşkilatların əməkdaşları üçün beş viza növü tətbiq edilir. Amerika İnformasiya Agentliyinin (USIA) təşkil etdiyi təhsil mübadiləsi proqramlarının iştirakçıları «J-1», onların ailə üzvləri «J-2» vizasından yararlanırlar. Bu ölkəyə Amerika vətəndaşları ilə ailə qurmaq niyyəti ilə gedən qadın və kişilər «K-1» vizası, nikah bağlamamış belə adamların uşaqları «K-2» vizası almalıdır. NATO-nun strukturlarında çalışan nümayəndələr üçün «NATO-l»- dən başlanan yeddi cür viza tətbiq edilir.

Vizanın hər bir növü Amerikaya gələn vətəndaşa bu və ya digər hüquqlar verir, bəzi hallarda isə müəyyən məhdudiyyətlər qoyur. Məsələn, təhsil mübadiləsi proqramları çərçivəsində «J-2» vizası ilə ABŞ-a gələn şəxs bu ölkədə gəlir götürmək məqsədilə hər hansı fəaliyyətlə məşğul ola bilməz. Digər viza növləri də bu və ya digər məhdudiyyət və hüquqlar nəzərdə tutur. Yəni Amerika dövləti öz ölkəsinə daxil olan vətəndaşların fəaliyyətinə bu yolla nəzarət etmək və

onların fəaliyyətini qanuni yolla tənzimləmək məqsədi güdür. Doğrudur, Amerikaya gedənlərin heç də hamısı bu məhdudiyyətlərə əməl etmir və bu, tamam başqa bir söhbətin mövzusudur.

ABŞ-a uçmaq üçün bilet tədarükü haqqında yalnız səfirlikdə viza açılması barədə pasporta müvafiq sənəd yapışdırıldıqdan sonra düşünmək olar. Ona görə düşünmək olar deyirik ki, Amerikaya uçmaq üçün müxtəlif aviaşirkətlərin xidmətindən istifadə etmək mümkündür. Azərbaycan vətəndaşları Bakıdan Amerikaya əsasən Türkiyə, Böyük Britaniya, Almaniya, Avstriya və ya Fransa «üzərindən» uçurlar.

Biz Amerikaya Bakı – Paris - Atlanta reysi ilə uçmalı olduq. Nəticədə, üç ölkənin hava limanındakı xidmət səviyyəsini müşahidə və müqayisə etmək imkanı qazandıq.

Hava limanlarından birincisində, Bakı aeroportunda ciddi problemlərlə üzləşməsək də, Fransa və Amerika aeroportlarında olandan sonra anladıq ki, özümüzü daha çox öz aeroportumuzda narahat hiss eləmişik. Təbii ki, bu, hansısa məxfi və ya qadağan olunmuş yük aparmağımızla əlaqədar deyildi. Sadəcə, bizə elə gəldi ki, Bakı aeroportunda hor bir sərnişinə potensial qanun pozucusu kimi baxırlar. Mülki və qeyri-mülki forma geymiş adamlar sərnişinlərin üzünə elə ciddi baxır, onları kənardan elə süzürlər ki, adam özü-özündən şübhələnməyə başlayır.

Bu baxımdan, birinci dayanacağımız olan Şarl de Qoll adına Paris hava limanındakı sadə və insani prosedurlar bizə qəribə gəldi. Bura sanki bizə yad ölkə deyildi. Amerikaya uçacağımız təyyarəyə minmək üçün gedəcəyimiz dayanacağın yerini bir neçə adamdan və bir neçə dəfə soruşmalı olduq. Çünki bura həqiqətən də nəhəng aeroportdur, necə deyərlər, nə ucu bilinir, nə bucağı.

Amerikaya uçan təyyarəyə minmək üçün aeroportda şütüyən avtobuslardan birinə oturub xeyli yol getməli olduq. Sonra biletləri və əl çantamızı qeydiyyata aldırdıq. Qeydiyyatı aparan qaradərili cavan qadın bu işi gülə-gülə yerinə yetirdi və əl çantamızın ağır, yaxud yüngül olmasının fərqinə də varmadı...

Atlantik okeanı üzərindən 9 saatlıq uçuşumuz bundan sonra başladı.

Əvvəllər bizdə belə təsəvvür var idi ki, bu qədər uzaq məsafəyə uçan sərnişinlər üçün hansısa əlavə güzəştlər olur. Məsələn, hər şeydə rahatlıq axtaran amerikalıların 9 saat siqaretsiz keçinə bilmələrini təsəvvürə gətirmədiyimiz üçün güman edirdik ki, yəqin bu təyyarələrdə siqaret çəkməyə icazə verərlər. Gümanımız yanlış çıxdı və bütün sərnişinlər səfərin sonuna qədər bu qadağaya vicdanla əməl etdilər. Moskvadan Bakıya (və əksinə) uçan təyyarələrdə tez-tez müşahidə etdiyimiz mənzərə yaranmadı.

Təyyarəyə oturarkən hər sərnişinə adyala oxşar pambıq parça (üstünə atmaq üçün) və bir də kiçik döşəkcə (kresloya uzanarkən baş altına qoymaq üçün) verirlər.

Uçduğumuz təyyarə Amerikanın məşhur aviaşirkətlərindən birinə məxsus idi. Təyyarənin salonlarında yuxarıdan iri televizorlar asılmışdı və bu ekranlara vaxtaşırı uçuş barədə - təyyarənin sürəti, çöldə havanın temperaturu, qət edilmiş və mənzil başına qədər qalmış məsafə və s. barədə məlumatlar yazılır, qalan vaxtlar isə film göstərilirdi. Bundan başqa, hər bir sərnişinin qabağında - öndəki kreslonun arxasında kiçik monitor yerləşdirilmişdi. Sərnişin özünəməxsus pultla bu mini-ekranda bir neçə kateqoriyadan olan filmlər seçib baxa bilərdi. Yaxud ekranı söndürüb, «qulaqcıq» vasitəsilə müxtəlif çeşidli musiqiyə qulaq asmaq olardı. Qeyd edək ki, pultun ikinci üzü mobil telefon funksiyasını yerinə yetirirdi. Sərnişinlər kredit kartı ilə istənilən ölkəyə zəng vura bilərdilər.

Qalan bütün qaydalar başqa təyyarələrdə olduğu kimiydi. Tez-tez sərnişinlərə müxtəlif içkilər, iki dəfə yemək, təzə qəzetlər təklif olunurdu.

Təyyarədə hər bir sərnişinə «sərnişin kartı» deyilən blank verirdilər. Bu blankı ingilis, yaxud ispan dilində doldurmaq olardı. Sərnişin səfərinin məqsədini, Amerikada müvəqqəti (və ya daimi) qalacağı ünvanı və s. göstərməliydi.

Parisdən çıxdığımız vaxtdan 9 saat sonra təyyarəmiz Amerikanın ən nəhəng aeroportlarından biri olan Atlanta hava limanında yerə endi. Aeroportda sərhəd qeydiyyatından keçməklə əlaqədar ABŞ vətəndaşları üçün bir, əcnəbilər üçün isə ayrıca növbə olur. Növbədə səbrlə gözləməlisən. Əgər aeroporta eyni vaxtda bir neçə aerobus enibsə, növbə bir saata qədər vaxt apara bilər.

Hələ Amerikaya yollanmazdan xeyli əvvəl ayrı-ayrı qəzetlərdən oxumuşduq ki, ABŞ-a daxil olarkən bu ölkənin immiqrasiya xidmətinin əməkdaşları ilə ünsiyyətdə xüsusi ehtiyatlılıq tələb edilir. Bir balaca şübhəli davranış və ya yanlış məlumat sərnişinin geri qaytarılması ilə nəticələnə bilər. Əgər viza normadadırsa və pasportda hər hansı problem yoxdursa, narahat olmağa dəyməz.

İmmiqrasiya xidmətində növbədə olarkən bu xidmətin yaşlı bir əməkdaşı hamının doldurduğu blankı bir-bir alıb diqqətlə gözdən keçirir, görünür, qaydalara uyğun doldurulmasını yoxlayırdı. Növbə bizə çatanda həmin qadın kağıza çox diqqətlə baxdı, sonra isə gözlərini üzümüzə zillədi. Onun bizə belə diqqət göstərməsi təəccüblü olsa da, bu mənzərəni əhəmiyyətsiz saydıq.

Aradan bir neçə dəqiqə keçmiş həmin qadın yanındakı başqa bir cavan qadınla yaxınlaşıb bizi nişan verdi. Cavan xanım rus dilində salam verib «Bakıdan olan sərnişinlər sizsinizmi», - deyə soruşdu. İlk dəfə bu ölkədə olan adamlara ABŞ aeroportunda tanış nitq (rus dili olsa belə!) eşitməyin necə xoş olduğunu xatırlatmağa ehtiyac yoxdur.

Xanım özünü təqdim etdi. Məlum oldu ki, Valentina həyat yoldaşı Nazimlə birlikdə Atlantada yaşayır. Dediyinə görə, vaxtilə Bakı şəhər sovetində işləyib.

Söhbətindən belə anladıq ki, bayaq bizim sənədimizə və üzümüzə diqqətlə baxan qadına Azərbaycandan gələn olanda ona xəbər verməyi Valentina özü xahiş edibmiş. Bizim sənədlərlə tanış olan həmin qadın Valentina üçün təzə adamlar tapdığına sevinib və dərhal ona xəbər verib. Təbii ki, Valentina bizə sərhəd prosedurunu keçməkdə heç bir yardım edə bilməzdi və etmədi də. Sadəcə, bu proseduru keçincə yanımızda oldu, Bakıdakı vəziyyətlə maraqlandı. Sonra bizim buradan Şarlott şəhərinə uçacağımız təyyarəyə biletimizi qeydiyyata aldırmaqda bələdçilik elədi və s. Biz bir saatdan sonra Atlantadan Şarlott şəhərinə uçmalı idik.

Valentina ilə rastlaşmağımız bizə olduqca xoş təsir bağışladı. Təbii ki, Valentina bizim üçün qeyri-adi bir şey eləmədi və eləyə də bilməzdi. Tutaq ki, həmin immiqrasiya xidmətinin əməkdaşı bizim hansımızısa geri qaytarmaq qərarına gəlsəydi, Valentina kömək edə bilməzdi. Amerikanın öz qanunları var. Bununla belə, həmin xanımın Azərbaycandan gələn adamlarla adicə ünsiyyətə can atması, əlindən gələn yaxşılığı etmək niyyəti olduqca xoş idi.

Dəfələrlə Amerikada olan dost-tanışdan aeroportda sərnişinlərin ciddi yoxlamaya məruz qaldığını eşitmişdik. Deyirdilər ki, 11 sentyabr partlayışlarından sonra hamını, xüsusən müsəlman ölkələrindən gələn sərnişinləri xüsusi diqqətlə yoxlayırlar. Hətta bu yoxlamanın insan şəxsiyyətini alçaldacaq səviyyədə olduğu barədə də eşitmişdik. Amma biz belə mənzərə ilə rastlaşmadıq. Bəlkə sərhəddə məhz həmin gün və təsadüfən belə vəziyyət yaranmışdı? Bəlkə Atlantada beləydi, tutaq ki, Nyu-Yorkda, Vaşinqtonda başqa cür, - deyə bilmərik.

Bizim qəzetlərdən birinin müxbiri Amerikada sərhəd yoxlamasından söhbət açarkən qeyd etmişdi ki, aeroportda «adamı ayaqqabısına qədər» yoxlayırlar və bu, gələnlərə o qədər də xoş təsir bağışlamır. Bəli, ABŞ-a gələn və bu ölkədən gedən hər bir sərnişin aeroportda (söhbət beynəlxalq reyslərdən gedir) xüsusi yoxlama monitorundan keçərkən ayaqqabısını çıxarmalı olur. Bu, yerli vətəndaşlara da, əcnəbilərə də aiddir. Monitor yoxlamasından sonra da əl çantasına, üst-başa əlavə baxış keçirilir. Bizcə, 11 sentyabr dəhşətini yaşamış ölkənin hava limanlarında belə yoxlamanı təbii saymaq olar.

Qeyd edək ki, beynəlxalq reyslərdən fərqli olaraq, Amerikada yerli reyslərə qeydiyyat proseduru olduqca sadədir. Atlantadan Şarlotta uçmaq üçün bir saat qabaqdan qeydiyyat stoluna yaxınlaşsaq da, gülərüz qızlar izah etdilər ki, hələ tezdir. Onların sözündən belə başa düşdük ki, uçuşa 15 dəqiqə qalmış yaxınlaşmalıyıq. Bu, necə ola bilər? Axı biz Bakıdan Gəncəyə də uçanda qeydiyyata xeyli əvvəl düşürük. Bizdə istər daxili, istərsə də xarici reyslərə qeydiyyat uçuşa 40 dəqiqə qalmış başa çatır. Sonra bir xeyli aeroportun içərisində, bir xeyli də təyyarədə gözləməli oluruq. Ona görə də Amerikada gördüyümüz bu prosedur da bizim üçün yeni idi.

Uçuşa düz 15 dəqiqə qalmış bizi təyyarəyə dəvət etdilər. Bileti göstərib içəri keçdik. Şarlott şəhərinə uçan kiçik təyyarə elə qeydiyyat yerinin lap yaxınlığında dayanmışdı. Sanki təyyarəyə yox, şəhərlərarası avtobusa minirdik.

Bakıda təyyarənin salonuna keçirməyə görə 10 min manat «cərimə ödədiyimiz» əl çantamız bu kiçik təyyarənin salonu üçün həqiqətən böyük idi. Çantanı oturduğumuz kreslonun altına

yerləşdirmək istədiyimizi görən stüardessa gülə-gülə yanaşıb çantanı salonunun arxasına - yük yerinə aparmağa icazə (!) istədi. Üstəlik, içində sınan bir şeyin olub-olmadığını da soruşdu. Sonra da eyni təbəssümlə həmin çantam (zərif qadın üçün ağır olsa da) götürüb harasa apardı. Təyyarədən düşəndə çanta trapın düz qabağında idi...

Bakıdan Parisə 4 saata, Parisdən Atlantaya 9 saata, Atlantadan Şarlotta 1 saata uçduğumuzu və hər aeroportda bir neçə saat gözləməli olduğumuzu da nəzərə alsaq, mənzil başına çatmağımız təxminən bir sutka vaxt apardı.

Şarlottdan yaşayacağımız Qrinvill şəhərinə avtobusla getdik. Bu məsafə təxminən 5-6 saatlıq yoldur və bizim Amerika reallığı ilə ilk əyani tanışlığımız avtobusun pəncərələrindən başladı. Məsələn, yolboyu gördüyümüz dümağ pambıq tarlaları uşaqlıqda Şəmkirdə məcburi qaydada pambıq yığımına cəlb edildiyimiz günləri yada saldı. Kiçik Amerika şəhərlərini keçdikcə böyük heyvan xəstəxanalarını görüb təəccübləndik. Dük şəhərini keçərkən haqqında kifayət qədər eşitdiyimiz Dük Universitetinin nəhəngliyinə heyran qaldıq. Amma hələ bizi təəccübləndirəcək şeylər irəlidə idi. Hələ biz Amerikanı avtobusun pəncərəsindən görürdük. Amerika ilə, Amerika reallığı ilə tanışlıq hələ qabaqda idi...

## AMERİKA İLƏ İLK TANIŞLIQ VƏ "MƏDƏNİYYƏT ŞOKU"

Amerikalılar «kalçral şok» ("Cultural shock") deyilən bir termin işlədirlər. Bizim dilə hərfi tərcümədə «mədəniyyət şoku» deməkdir. ABŞ sakinlərinin qənaətinə görə, yad ölkəyə ilk dəfə düşən adam yeni mədəniyyətlə, yeni insanlarla, yeni davranış qaydaları ilə rastlaşır və mütləq «mədəniyyət şoku» keçirir.

Bu fikirdə böyük həqiqət var. Doğrudur, ilk baxışda adama elə görünə bilər ki, Amerika kimi inkişaf etmiş bir ölkəyə gəlib çıxıbsansa, nə şok, nə qəribəlik? Amma belə deyil.

Yəqin ki, Türkiyəyə gedən azərbaycanlı bu hissləri keçirmir. Çünki tarix və mədəniyyət yaxınlığı var, adət-ənənə oxşarlığı var. Heç ilk dəfə Rusiyaya gedən soydaşımız da belə problemlə rastlaşmır. Bu ölkənin adət və ənənələri də bizə çoxdan tanışdır. Amerikada isə... mütləq «mədəniyyət şoku» keçirməlisən! Amerika Birləşmiş Ştatları başqa ölkə, başqa insanlar, başqa mədəniyyət, başqa adət-ənənələr deməkdir. Bu «başqa»lığın mahiyyətini isə bir neçə kəlmə ilə, beş cümlə ilə izah etmək çətindir. Məsələn, Amerikaya düşdüyün ilk gündür. Qaldığın evdən çıxırsan və ilk rast gəldiyin adam səni salamlayır, hal-əhval soruşur. Necə olarsan?

Təsəvvür elə ki, ucqar bir dağ kəndindən Bakıya gəlibsən və bilirsən ki, bu şəhərdə səni tanıyan yoxdur. Di gəl hara gedirsən, sənə salam verirlər, hal-əhval tuturlar, öz köməyini təklif edənlər tapılır. Necə olarsan? O ki qaldı bu münasibəti ilk dəfə düşdüyün yad ölkədə, yad dildə və yad adamlardan eşidəsən!

Bir qədər irəli gedirsən, bu dəfə yoldan keçən başqa birisi «Bu gün gözəl gündür» - deyir və ardınca da sənə hansısa xoş arzular söyləyir. Çörək almaq üçün mağazaya girirsən və mağazanın qaradərili işçisi düz qabağına qaçır, «sabahın xeyir»dən, hal-əhval tutmaqdan sonra öz köməyini təklif edir...

Təbii ki, bütün bunlar ilk günlərin təəssüratıdır. Sonra yavaş-yavaş bütün bunlara öyrəşirsən. Aydın olur ki, adamın üzünə gülmək, insanı xoş təbəssümlə qarşılamaq və salamlamaq elə amerikalıların həyat tərzidir. Sanki amerikalılar dünyaya gələndə təbəssümlə doğulurlar.

Burada kiçik bir haşiyə çıxmağa ehtiyac duyuruq. Məlum olduğu kimi Azərbaycanın əksər kəndlərində də adamlar ilk dəfə gördükləri qonaqlara xoş təbəssüm göstərir, köməklərini təklif edir, son tikələrini də qonaqla bölməyə hazır olduqlarını nümayiş etdirirlər. Özü də bizim kəndlərdə bunu o qədər təbii və səmimi edirlər ki, bu qonaqpərvərlik gəlmə adama, sözün həqiqi mənasında, ləzzət eləyir. Amma amerikalıların göstərdiyi təbəssümdə bir standartlıq, sünilik var və bu, ayrı söhbətdir. Əsas məsələ odur ki, amerikalılar psixolgiyanın məlum qaydasına əməl edirlər: insan gülümsəyərkən özünün əhvalı da yaxşılaşır, başqasına da xoş təsir edir. Yəqin ki, səhər-səhər üzbəüz gəldiyin adamın süni də olsa, xoş təbəssümü təbii qaraqabaqlıqdan daha yaxşıdır.

Beləcə, günlər keçir, amerikalılar arasında dost da tapırsan və günlərin bir günü həmin amerikalı tanışın səni restorana nahara (amerikalılar nahar deyəndə şam yeməyini nəzərdə tuturlar) dəvət eləyir. Oturub istədiyini sifariş verirsən. Yeyib-içirsən və duranda amerikalı dostun izah edir ki, yediyinin pulunu özün ödəməlisən... Bu da bəzi amerikalılar üçün adi və təbii normadır. Və sən də bu normaya öyrəşməli olursan.

Amerikalılar müxtəlif bayramlarla, ayrı-ayrı əlamətdar günlərlə əlaqədar evlərində qonaqlıq təşkil etməyi xoşlayırlar. Belə qonaqlıqlara isə çoxlu dost-tanış dəvət edilir. Bəzən belə tədbirlərə dəvət olunanların sayı 30-40 nəfərə çatır. Təbii ki, adi amerikalının evində bu qədər adamın oturması üçün stol-stul, yeyib-içməsi üçün qab-qacaq kifayət eləmir. Buna görə ev sahibi heç narahat da olmur. Bütün yeməklər və içkilər əsas stolun üstünə düzülür. Gələnlər isə, kim harada yer tapırsa, orada - evdə olan stullarda, divanda, hətta döşəmədə əyləşirlər. Stolun üstünə bir dəfə istifadə edilən plasmas qab-qacaq qoyulur. Qonaqlıq başlayan kimi hərə özünə bir qab götürür və stolun üstündəki yeməklərin hərəsindən bir az öz qabına çəkir. Sonra isə yenə kim harada yer tapdısa, orada da əyləşir və ya ayaq üstə dayanıb yeməyini yeyir.

Belə məclislərdə adətən yeməklər rəngarəng olur. Xüsusən də qonaq çağıran şəxs dəvət etdiyi adamlara «çərəz» gətirməyi təklif edəndə. Bəli, qonaq çağıran adam dəvət etdiyi şəxsə ərklə özü ilə yemək gətirməyi də təklif edə bilər və bu da Amerikada tamamilə təbii qəbul olunur. Belə olanda isə hər kəs imkanına, zövqünə uyğun yeməklər gətirir və stola qoyur. Ona görə də belə qonaqlıqlardakı təamlar olduqca fərqli və rəngarəng olur. Amerikalılar isə yeməkləri qatıb-

qarışdırmaqdan qətiyyən narahat olmurlar. Demək olar ki, stolun üstündəki hər şeydən dadırlar.

Bu cür qonaqlıqlarda yeməklə bərabər adamlar bir-biri ilə mehriban ünsiyyətə girirlər. Ayrı-ayrı məsələlər barədə fikir mübadiləsi aparır, necə deyərlər, vaxtlarını keçirirlər.

Ünsiyyət məsələsində isə amerikalıların, demək olar ki, problemləri yoxdur. Küçədə, mağazada bəzən ilk dəfə gördükləri adamla çoxdankı tanış kimi rahat ünsiyyətə girir, geniş fikir mübadiləsi aparırlar. Yəni amerikalılarda tanıyıb-tanımama kompleksi yoxdur. Məsələn, biz tanımadığımız adamla küçədə bu və ya digər məsələyə dair uzağı qısa fikir mübadiləsi edə bilərik. Amma amerikalı, tutaq ki, mağazadan mal alarkən satıcı ilə, yaxud ilk dəfə gördüyü başqa alıcı ilə geniş diskussiyaya girə bilir və bu söhbət hər iki tərəf üçün normal sayılır.

Amerikalılar tanımadıqları adamla, hətta ingilis dilini zəif bilən əcnəbiylə də köhnə tanış kimi davranırlar. Xüsusən qonaqlıq zamanı belə əcnəbini darıxmağa qoymurlar. Onunla nə barədəsə söhbət etməyə, nəyləsə könlünü almağa cəhd edirlər. Ona görə də bu ölkəyə təzə düşən adam özünü narahat hiss eləmir.

Bu ölkədə kofe və isti çaydan başqa bütün içkilərin içinə buz atmağı xoşlayırlar. Ona görə də restoran və ya kafedə içki sifariş verərkən çox soyuq içmək istəmirsənsə, gərək əvvəlcədən içəcəyin içkiyə buz atılmamasını xahiş edəsən. İçki stəkanına buz atmaq amerikalılar üçün o qədər təbii və adi şeydir ki, buz atılmamış şirə və ya kola istəyəndə xidmətçi bir az təəccüblə «Siz «Kola» nı buzsuz istədiniz» - sualı verir. Çünki bu ölkədə buzlu suyu 8 dərdin dərmanı sayırlar.

Soyuq, daha doğrusu, buzlu çay isə sanki amerikalıların milli içkisidir. Ona görə də restoranda isti çay sifariş vermək də çox vaxt təəccüblə qarşılanır. Hətta bəzən «isti çay» sözünü təkrar edirlər ki, bəlkə düz eşitməyiblər.

Biz adətən boğazımız bir balaca ağrıyanda soyuq içkilərdən uzaq qaçırıq ki, ziyanı ola bilər. Bəzi amerikalılar isə boğazları ağrıyanda müalicə məqsədilə buz yeyirlər...

Buza belə «məhəbbət»in nəticəsidir ki, Amerika ailələrinin soyuducusunda bir qayda olaraq, içkiyə atmaq üçün buz parçaları saxlanılır. Hətta əksər evlərdə xüsusi düyməni basmaqla, stəkana buz parçaları atan soyuducular olur. Belə müasir soyuducusu olmayanlar isə buzu yaxınlıqdakı ərzaq mağazasından ala bilərlər. Hər bir ərzaq mağazasında xüsusi torbalarda duz, çörək, kartof... kimi, buz da satılır! Satılırsa, deməli, alıcısı var. Amerika mağazalarında alınmayan mallar saxlanılmır...

Amerikaya təzə düşənlər üçün narahatlıq yaradan amillərdən biri də bu ölkədə tətbiq edilən ölçü və çəki vahidləridir.

Bu məmləkətdə havanın temperaturu bizdəki kimi «Selsi» ilə yox, «Farengeyt» lə ölçülür. Uzunluq vahidləri də tamamilə fərqlidir. Məsələn, televizordan eşidirsən ki, sabah temperatur 70 dərəcə olacaq, 10 inç hündürlüyündə qar yağacaq, okeandan əsən küləyin sürəti saatda 30 milə çatacaq. Sabahkı hava barədə təsəvvür əldə etmək üçün gərək ölçü vahidlərinin izahını məlumat kitabından öyrənəsən. Həmin kitabda «inç»i axtarırsan və məlum olur ki, «bir inç futxın 12-də biri deməkdir». Təzədən gərək futu axtarasan. Məlumat kitabı izah edir ki, «bir fut 12 inçdir». Gəl, indi anla, görüm necə anlayırsan...

Günlər keçir və yavaş-yavaş bu ölçü vahidlərinə də öyrəşirsən. Məlum olur ki, «inç» deyəndə amerikalılar «düyüm»ü nəzərdə tuturlar və bir düyüm təxminən 25,4 millimetrdir. Bir füt isə təxminən 30,5 santimetrdir. Bir mil deyiləndə 1,6093 kilometr nəzərdə tutulur və s.

Çəki vahidi kimi də bu ölkədə bizim adət etdiyimiz «kiloqram»dan «səs-səmir» yoxdur. Amerikalılar funtdan istifadə edirlər. Bir funt 454 qram deməkdir.

Avtomobilə yanacaq doldurmaq istəyirsənsə, ölçü vahidi kimi «qallon» barədə məlumatın olmalıdır. Bir qallon 3,78 litrə bərabərdir.

Hətta amerikalıların istifadə etdiyi vaxt ölçüsü də bizimkindən fərqlidir, desək, gərək oxucu bizi «ağ eləməkdə» qınamasın. Fərq deyəndə, biz Amerikada sutkanın 24 saatdan çox olduğunu nəzərdə tutmuruq. Sutka elə bu məmləkətdə də 24 saat, bir saat isə 60 dəqiqədir. Amma bu məmləkətdə söhbət zamanı kiməsə, məsələn, «saat 14-dür», «saat 19-da gələcəyəm» desən, səni, sadəcə, başa düşməyəcəklər. Çünki amerikalılar üçün sutka iki hissədən ibarətdir. Gündüz saat 12-yə qədər olan vaxtın arxasına «a.m.» (latınca «ante meridiem» - günortadan əvvəl) işarəsi, 12-dən sonrakı vaxtın arxasına isə «p.m.» («post meridiem» - günortadan sonra) artırırlar. Yəni amerikalı ilə görüş təyin edəndə, məsələn, bizim təsəvvürümüzlə səhər saat 9 demək istəyirsənsə,

gərək 9 rəqəmindən sonra mütləq «a.m» əlavə edəsən, saat 13-ü nəzərdə tutursansa, «1 p.m» deyəsən. Bu vaxt ölçüsü amerikalılara Böyük Britaniyadan keçib.

Bütün bu rəngarənglik və fərqlər aləmində dünyanın istənilən ölkəsindən, o cümlədən Azərbaycandan gələn adamlar üçün Birləşmiş Ştatlarda doğma və tanış bir vahid də var. Bu ölçü vahidi ilə bir qayda olaraq heç kimin problemi olmur. Onun «dilini» və «xasiyyətini», demək olar ki, dünyanın bütün xalqları tərcüməsiz başa düşürlər. Söhbət ABŞ-ın pul vahidindən - dollardan gedir...

# KİÇİK ŞƏHƏRİN MOZAİKASI

ABŞ-da müvəqqəti yaşayış yerimiz Şimali Karolina ştatının Qrinvill şəhəri idi. Qrinvill «yaşıl vadi» deməkdir və həqiqətən də yaşıllıqlar şəhəridir. Burada cəmi 60 min adam yaşayır.

Qeyd edək ki, Amerikanın kiçik şəhərlərinin, demək olar ki, hamısı bir-birinə bənzəyir. Belə şəhərlərdə adətən çoxmərtəbəli binalar görməzsən. Görünür, məşhur «birmərtəbəli Amerika» ifadəsi təsadüfi yaranmayıb. Geniş ərazi boyu səpələnmiş bir və ya ikimərtəbəli villalar, eyni tipli «Makdonalds»lar, kiçik otellər və benzindoldurma məntəqələri bu oxşarlığın əsas atributlarıdır. Kiçik şəhərlərdə həyat sakit və rahatdır.

Amerikalılar evlərinin ətrafına bizdəki kimi xüsusi hasar çəkməyi ağıllarına belə gətirmirlər. Evində kirayənişin qaldığımız qadının bəzən qapılan açıq qoyub getməsi ilk günlər təəccübümüzə səbəb olsa da, sonralar bu ənənəyə də alışdıq.

Poçt xidmətinin əməkdaşları hər kəsə məxsus qəzet və məktubları evin çölündə asılmış poçt qutusuna atır. Qiymətli bağlamaları isə elə evin yanındaca qoyub gedirlər. Təbii ki, başqasının bağlamasına sahibindən başqa heç kim toxunmur.

Bununla belə, Amerikanın kiçik şəhərləri həm də darıxdırıcıdır. Küçədə-bayırda piyada gəzən adam görmək, demək olar ki, mümkün deyil. Hamı öz şəxsi avtomobilindən istifadə edir. Şəxsi avtomobil məsələsində isə Amerikada problem yoxdur. Ailədə həddi - buluğa çatmış neçə adam varsa, adətən o qədər də maşın olur. Bu ölkədə maşın həqiqətən də var-dövlət göstəricisi yox, hərəkət etmək vasitəsidir. Elə buna görə də kiçik şəhərlərdə ictimai nəqliyyatdan istifadə edənlər olduqca azdır və avtobus müəyyən marşrutla, konkret qrafik əsasında işləyir.

Kiçik şəhərlərdə taksi də bizim təsəvvür etdiyimiz kimi deyil. Daha doğrusu, küçədə taksi görüb saxlamaq praktikası geniş yayılmayıb. Ehtiyac varsa, taksini sifariş etməlisən. Ona görə də Amerikada, xüsusən bu ölkənin kiçik şəhərlərində avtomobilsiz keçinmək çox çətindir. Çünki bu ölkədə adamların böyük əksəriyyətinin şəxsi maşını olduğu üçün ictimai nəqliyyata o qədər də ehtiyac qalmır. Məsələn, Merilend ştatında yaşayan ailələrin yalnız 10 faizinin, Virciniyada isə 7 faizinin avtomobili yoxdur. Şəxsi maşmı olmayan ən az ailə Aydaho ştatında yaşayır - bu ştatın sakinlərinin cəmi 3 faizi maşınsızdır. Bütövlükdə ölkə üzrə bu göstərici 9 faiz təşkil edir.

Vaşinqton sakinlərinin 4,7 faizi üç və daha çox avtomobildən istifadə edir. Merilend ştatında belələri 20, Virciniyada isə 22 faiz təşkil edir. Vayominq ştatı bu sahədə rekord göstəriciyə malikdir - ştat əhalisinin hər üç nəfərindən birinin 3 və daha çox avtomobili var. Ölkə üzrə bu göstəricinin 20 faizə yaxın olduğu bildirilir.

Hesablamalara görə, işləyən orta statistik amerikalının maşın alması üçün 23 iş həftəsi kifayət edir.

ABŞ Mənzil və Şəhər Təsərrüfatı Departamentinin yaydığı məlumatda isə deyilir ki, son illər ölkə əhalisinin 90 faizindən çoxu iş yerinə gedib-gəlmək üçün avtomobil və ya motosikldən istifadə edib. Əhalinin cəmi 5 faizə qədəri işə gedib-gələrkən ictimai nəqliyyatdan yararlanıb, 3 faizə qədəri isə işə piyada gedib-gəlib.

Bütün bu rəqəmlər Amerikada hamının maşın almaq imkanına malik olmasından xəbər vermir. Bu ölkədə də kasıblıq həddində yaşayan adamlar az deyil. Şəxsi maşın almaq imkanları məhdud olanlar da kifayət qədərdir. Bununla belə, şəxsi avtomobilsiz keçinmək çətin olduğu üçün maşın almağa pulu çatmayan amerikalıların çoxu bu məsələdə bankların xidmətlərindən yararlanırlar. Belələri bank krediti hesabına maşın alır və onun haqqını bir neçə il ərzində hissə-hissə ödəyirlər.

İctimai nəqliyyat vasitələri az olduğu üçün bu ölkədə, xüsusən ABŞ-ın kiçik şəhərlərində müvəqqəti yaşayan əcnəbilər, bir qayda olaraq, icarəyə maşın götürürlər. İcarə haqqı, eləcə də icarəyə vermək qaydaları hər ştatda fərqlidir. Məsələn, əksər ştatlarda avtomobili icarəyə götürənin azı 21 yaşı olmalıdır. Nyu-York ştatında 18 yaşı olanların da icarəyə avtomobil götürməsinə icazə verilir, Şimali Karolina ştatında isə yalnız 25 yaşdan yuxarı olanların icarə hüququ var. Avtomobilin gündəlik icarə haqqı təxminən 40-70 dollar arasında olur. Həftəlik, aylıq və daha uzunmüddətli icarə zamanı qiymətlər aşağı salınır.

Amerikalılar şəxsi maşınsız keçinə bilmədikləri kimi, plansız iş görməyi də xoşlamırlar. Ona görə də, bir qayda olaraq, heç yana tələsmirlər. Nə tələsdiyi üçün küçədə siqnal verib qabaqdakı

maşını ötməyə çalışan sürücü görərsən, nə də mağazada satıcıya «Mən cəmi bir siqaret götürürəm, məni yola sal» - deyən alıcı.

Biz, adətən, birinin sözünü kəsəndə deyirik ki, «sözünü balnan kəsim», yaxud «sözünü balalarının toyunda kəsim». Təbii ki, bu ifadə üzrxahlıq mənasında işlənir. Amma Amerikada heç kimin sözünü nə balla, nə də qaymaqla kəsmək olur. Amerikalı danışırsa, sözünü bitirməmiş müdaxilə eləmək qəbahət sayılır. Bir adamdan ayaqüstü bir söz soruşmaq üçün də gərək qabaqcadan görüş təyin eləyəsən. Çünki amerikalılar günlərini, hətta saatlarını planlaşdırmağı xoşlayırlar. Özü də bir neçə gün, hətta bir neçə həftə qabaqdan. Tanıdığın adamın da qapısını qabaqcadan xəbər eləmədən döyəndə, səninlə danışmağa vaxtının olmadığını deyə bilər. Bu da Amerika və amerikalılar üçün qəbahət sayılmır.

Bu ölkənin mağazalarında, xüsusən iri ticarət obyektlərində tez-tez növbələrlə rastlaşırsan. Nə qədər qəribə də olsa, növbələrin yaranmasının əsas günahkarı, adətən satıcılar yox, alıcılar olur. Tutaq ki, kiminsə götürdüyü malın üstündə qiyməti göstərilməyib və onu, necə deyərlər, «kompüter tanımır». Kassir qız həmin alıcı ilə səbrlə mağazanın satış zalına gedir ki, qiyməti dəqiqləşdirsin. Bu müddətdə növbədə olan amerikalılar da səbrlə kassir qızın qayıtmasını gözləyirlər...

Demək olar ki, alıcıların əksəriyyəti aldıqları malın dəyərini kredit kartı ilə ödəyirlər. Malın dəyəri hesablanır və yalnız bundan sonra alıcı səbrlə kartmı çıxarır və onu kompütərə «göstərir». Belə hallarda, bizlərdən fərqli olaraq, heç kim də «Əşi, bir az tez ol» - deməyi ağlına da gətirmir. Amma amerikalılar da bizim kimi, restoran və kafelərdə qulluqçulara əlavə haqq - «çaypulu» ödəyirlər.

Amerikada bu «məcburi ödəmə»nin adına «tip» deyirlər. Elə «tip»in tərcüməsi də «çaypulu» deməkdir. Bu, xidmətə görə təşəkkür mənasında könüllü ödənən haqdır.

Hər şeydə dəqiq haqq-hesab çəkməyi xoşlayan amerikalılar «tip»in miqdarını da müəyyən ediblər: restoran qulluqçularına sifariş verdiyin yeməyin dəyərinin 15 faizi miqdarında əlavə haqq ödəyirsən. Bu, nə ilə bağlıdır?

Amerikada xidmət sahəsində çalışan qulluqçular adətən minimum əmək haqqı səviyyəsində maaş alırlar. Yəni bu adamların yaşayış səviyyəsi aşağı olur. Ona görə də müştəri qulluğa görə «tip» ödəməklə, həmin qulluqçunun zəhmətinə görə əlavə haqq verir - bir növ ona yardım göstərir. Adətən «tip» əsas sifarişin haqqı ödənəndən sonra stolun üstünə qoyulur. Amerikada qəbul olunmuş qaydaya görə, taksi sürücülərinə, mehmanxanada çamadan götürən xidmətçilərə və başqalarına da «tip» ödəmək lazım gəlir.

Son illər Rusiyanın ayn-ayrı şəhərlərində olarkən tez-tez milis işçilərinin küçədə adamları saxlayıb pasport soruşmasını müşahidə etdiyimiz üçün Amerika polislərindən də belə “sayıqlıq” gözləyirdik. Lakin ABŞ-da olduğumuz ilk iki həftədən sonra anladıq ki, bu məmləkətdə hər hansı qanun pozuntusuna yol verməyibsənsə, səninlə maraqlanan və sənəd tələb edən olmayacaq. Ona görə də pasportu arxayınlıqla çamadanın bir küncünə atmaq olar.

Xüsusi əhəmiyyətli dövlət idarələri və obyektlər istisna olmaqla, küçələrdə çox nadir hallarda rastlaşdığımız polis əməkdaşları isə sıravi amerikalılar kimi adama təbəssüm göstərir, hətta hal-əhval soruşurlar. Bununla da Rusiyada, elə bəzən Azərbaycanda da hər bir adama potensial cinayətkar kimi baxan qaraqabaq polis əməkdaşlarından tamamilə fərqli münasibət nümayiş etdirirlər.

Qeyd edək ki, Amerikada olduğumuz müddət ərzində yalnız iki dəfə (təbii ki, şəxsi bank hesabı açdırmaq və bankdan nağd pul götürmək istisna olmaqla) pasport göstərməli olduq - bir bu ölkəyə daxil olanda, bir də ölkədən çıxanda! ABŞ-ın müxtəlif şəhərlərində olduq, Ağ evin, Kapitolinin ətrafında gəzdik və heç yerdə kimliyimizi təsdiqləmək üçün sənəd soruşan olmadı. Bunu insana inamın ifadəsi, insana insan kimi baxmaq nümunəsi də saymaq olar.

Bakıya qayıdandan sonra bu barədə söhbət elədiyimiz dostlardan biri, bizim guya üzdən «amerikalıya oxşamağımıza» görə belə münasibət gördüyümüzü iddia elədi. Əslində bu «oxşamaq fenomeni» keçmiş SSRİ məkanında, xüsusən Rusiyada dəbdədir - «litso kavkazskoy nasionalnosti» formasında! ABŞ-da isə «amerikalı sifəti» deyilən məfhum yoxdur. Burada dərinin rəngindən, gözün quruluşundan və s. asılı olmayaraq, hamı amerikalıdır. Ən qəribəsi isə odur ki, bu ölkəyə müvəqqəti gələn əcnəbi də özünü amerikalı hesab edir. Daha doğrusu, əcnəbilik bu məmləkətdə hiss olunmur. Həyat burada elə qurulub ki, hər şey insan üçündür və bu

insanın kimliyi, hardan gəlib hara getdiyi heç kimi maraqlandırmır. Əcnəbi vətəndaş ayrı-seçkilik hiss etmədiyi üçün heç bir narahatlıq da keçirmir. Amerikalılar isə danışığından əcnəbi və nabələd adam olduğu hiss edilənləri belə yorucu suallarla (məsələn, «haralısız», «niyə gəlmisiz» və s.) narahat eləmirlər. Hər hansı tədbirdə və ya qonaqlıqda isə əcnəbi ilə tanış olanlar həmin qonağa maksimum diqqət yetirməyə, öz köməklərini təklif eləməyə çalışırlar.

## ŞTAT, YOXSA DÖVLƏT

### *Və ya Vaşinqtonda gördüklərimiz*

Məlum olduğu kimi, ABŞ dövləti 50 ştatdan və Kolumbiya federal dairəsindən təşkil edilib. Bundan başqa ölkənin tərkibinə Virciniya adaları, Quam, Amerika Samoası və Puerto - Riko kimi inzibati vahidlər də daxildir.

Hər ştatın az qala ayrıca dövlət statusu var. Təsadüfi deyil ki, bizim dilə ştat kimi tərcümə olunmuş «state» sözü ingilis dilində «dövlət» deməkdir. Hər ştatın öz parlamenti, özünəməxsus qanunvericiliyi və s. var. Məsələn, ştatların bəzisində ölüm hökmü ləğv olunub, bəzisində yox. Kolumb günü ölkənin 39 ştatında bayram edilir, 11 ştatda isə qeyd olunmur.

Bu mənada, görünür, ölkənin adını öz dillərinə vaxtilə türklər daha səlis tərcümə ediblər - Amerika Birləşik Dövlətləri.

Amerika ştatlarının bir özəlliyi də maraq doğurur. Məsələn, Nyu-York ştatının ən böyük şəhəri Nyu-York olsa da, ştatın paytaxtı kiçik Albany şəhəridir.

Ölkənin paytaxtı olan Vaşinqton şəhərinin Vaşinqton ştatına qətiyyən aidiyyatı yoxdur - paytaxt Kolumbiya federal dairəsində yerləşir.

ABŞ-ın gələcək paytaxtı üçün Kolumbiya federal dairəsinin ərazisi təzəcə müstəqillik qazanmış ölkənin ilk prezidenti Corc Vaşinqton tərəfindən 1790-cı ildə seçilib. Paytaxt üçün torpaq sahəsi Virciniya və Merilend ştatlarının ərazisindən kəsilib. Paytaxtın yerləşdiyi ərazi müstəqil ştat statusuna malik olmamaqla yanaşı, heç bir ştata məxsus deyil. Çünki həmin dövrdə Konqres ölkə paytaxtın neytral ərazidə salınması barədə qərar qəbul edib ki, federal idarələrin yerləşməsi məsələsində müxtəlif şəhərlər arasında rəqabət yaranmasın. Sonralar ilk prezidentin şərəfinə Vaşinqton adlandırılan şəhər 1800-cü ildə rəsmi qaydada ölkənin paytaxtı elan edilib. Amerikalılar bu şəhərin adını çəkəndə söhbətin paytaxt Vaşinqtondan getdiyini bildirmək üçün mütləq «DC» («Di-Ci») də əlavə edirlər - «Vaşinqton Di-Ci». Bu abbreviaturanın açması isə «District of Colombia» (Kolumbiya federal dairəsi) deməkdir. Çünki paytaxt Vaşinqton şəhəri ilə yanaşı, ABŞ-da Vaşinqton ştatı, eləcə də Vaşinqton adlı bir neçə kiçik şəhər var. Ona görə də amerikalılar söhbətin paytaxtdan getdiyini bildirmək üçün mütləq «Vaşinqton Di-Ci» deyirlər. Onu da qeyd edək ki, konstitusiyaya uyğun olaraq, ABŞ prezidenti həm də Vaşinqton şəhərinin meri sayılır.

Bu gün dünyada gedən bütün siyasi proseslərə bu və ya digər dərəcədə konkret təsir imkanlarına malik Vaşinqton özünün müasir missiyası müqabilində olduqca kiçik şəhər təsiri bağışlayır. Elə əslində də ABŞ-ın paytaxtı böyük deyil. Amerikanın nəhəng şəhərləri ilə müqayisədə paytaxt adamda əyalət assosiasiyası yaradır. Lakin bu, ilk baxışda belə görünür...Dünyanın paytaxt şəhərləri ilə müqayisədə ABŞ-ın baş kəndinin bir neçə özəlliyi var.

Vaşinqton dünyada məhz paytaxt kimi salınan bir neçə şəhərdən biridir. Bundan başqa, məlum olduğu kimi, hələ şəhər salınarkən əldə edilmiş ümumi razılığa əsasən, Vaşinqtonda Konqres binasından hündür bina tikməyə icazə verilmir. Məqsəd bu ölkədə Konqresin və qanunların hər şeydon uca olduğunu göstərməkdir. Xatırladaq ki, Kapitoli təpəsində tikilmiş və xalq arasında «Kapitoli» adı almış Konqres binası 1800-cü ildə istifadəyə verilib. Lakin bu, heç də o demək deyil ki, paytaxt başdan-başa üç və ya beşmərtəbəli binalardan ibarətdir. Şəhərdə kifayət qədər 10-12 mərtəbəli binalar da vaf. Kapitolinin özü təpəlik olduğu üçün digər binalar Konqres binasından hündür olmur və onun əzəməti qarşısında çox kiçik görünür. Yeri gəlmişkən, Kapitoli binasının bünövrəsindən günbəzin ən uca nöqtəsinə qədər olan məsafə 287,5 fut və ya 87,6 metrdir.

Vaşinqtonun bir özəlliyi də bu şəhərdə iri zavod və fabriklərin olmamasıdır. Hələ şəhər salınarkən burada əhalinin sıx yerləşməsinin qarşısını almaq məqsədilə qərara alınıb ki, paytaxtda sənaye sahələrinin inkişafı məhdudlaşdırılsın və Vaşinqton yalnız siyasi-inzibati və mədəni şəhər kimi formalaşdırılsın. Vaşinqtonda bilavasitə şəhər əhalisinin tələbatını ödəmək üçün nəzərdə tutulan infrastruktur sahələri (çörəkbişirmə, sərinləşdirici içkilər və s.) ilə yanaşı, yalnız poliqrafiya sənayesi geniş inkişaf edib ki, bu da paytaxtda çoxsaylı qəzetlərin nəşri və kitab çapı ilə bağlıdır.

Təsadüfi deyil ki, amerikalılar Vaşinqtonu zarafatla qanunlar, dövlət qərarları və yeniliklər «istehsal» edən şəhər adlandırırlar.

Vaşinqton həm də tarixi abidələr, muzeylər və dövlət idarələrinin yerləşdiyi şəhərdir.

Belə binalardan biri və birincisi, təbii ki, Ağ evdir. Amerika Birləşmiş Ştatları prezidentinin daimi iş və yaşayış yeri olan Ağ ev Vaşinqtonun mərkəzində yerləşir. 1791-ci ildə prezident iqamətgahının ən yaxşı layihəsi üçün müsabiqə elan olunub. Bu müsabiqədə irland əsilli Amerika arxitektoru Ceyms Hoban qalib gəlib və Ağ ev onun layihəsi əsasında tikilib.

Gələcək prezident iqamətgahının bünövrəsi 1792-ci ilin oktyabrında qoyulub və bina 8 ilə tikilib. 1800-cü ilin noyabrında Birləşmiş Ştatların 2-ci prezidenti Con Adams və ailəsi iqamətgahın ilk sakinləri olub.

1800-cü ildən başlayaraq, bu bina əhali arasında «Ağ ev» adlandırılıb: çünki binanın üstünə çəkilən ağ üzlük materialı onu ətrafdakı qırmızı mərmər fasadlı binalardan kəskin şəkildə fərqləndirib.

Mətbuatda «Ağ ev» sözü ilk dəfə 1810-cu ildə Baltimor şəhərinin «Viq» qəzetində işlədilib. «Ağ ev» adının rəsmiləşdirilməsi isə XX əsrin əvvəllərinə təsadüf edir: 1901-ci ildə prezident Teodor Ruzvelt Vaşinqtondakı prezident iqamətgahının Ağ ev adlandırılması barədə sənəd imzalayıb.

1814-cü ildə Britaniya qoşunlarının Birləşmiş Ştatlara hücumu zamanı Ağ ev tamamilə yandırılsa da, tezliklə bina təmir olunub.

Sonralar da Ağ evdə vaxtaşırı təmir işləri aparılıb, amma onun arxitekturasında ciddi dəyişiklik edilməyib. Yalnız texniki nailiyyətlərlə əlaqədar binanın içərisində yeniliklər tətbiq olunub - elektrik və telefon xətləri çəkilib.

1948-ci ildə - prezident Harri Trumənin vaxtında Ağ ev yenidən tam təmir olunub. Binanın içərisində təmir işləri 4 il davam etsə də, xarici görünüşünə toxunulmayıb.

Hazırda Ağ ev 7 hektardan çox ərazini tutur. Binada 132 otaq, 35 hamam, 28 buxarı, 147 pəncərə, 412 qapı, 3 lift, 8 pilləkan vardır.

Ağ evin bir hissəsi prezident ailəsinin yaşayış otaqlarından ibarətdir.

2001-ci ilin 11 sentyabr hadisələrinə qədər Ağ ev turistlərin üzünə açıq olub və hər gün bu binaya orta hesabla 6 minə qədər turist gəlib. 11 sentyabrdan sonra Ağ evə turistlər buraxılmır ...

Qeyd edək ki, ilk baxışda Ağ ev də statusuna uyğun əzəmətli bina təsiri bağışlamır. Yaşıllıqlar arasında «gizlənmiş» prezident iqamətgahı sonralar ətrafda tikilmiş hündür binalarla müqayisədə kənardan olduqca adi görünür. Amma binaya yaxınlaşarkən ətrafda gəzişən mühafizəçilərin çoxluğu, binanın özünün üstündə gəzişən və təhlükəsizlik xidməti vəzifəsini yerinə yetirdiyi hiss olunan adamların görünməsi və ən nəhayət, Ağ evin ətrafı boyu çəkilən qara rəngli dəmir barmaqlıqlar bu binanın siyasi əhəmiyyəti barədə lazımi təsəvvür yaradır. Mühafizə məqsədilə at belində gəzişən polis əməkdaşları isə hər hansı «terrorçu tutmaq»dan daha çox turistlərin xahişinə əsasən yadigar şəkil çəkdirməklə məşğul olurlar.

Ağ evin qarşısında ənənəvi piket və mitinqlərin keçirildiyi yaşıl meydan - çəmənlik dəmir barmaqlıqlardan təxminən 300-400 metr aralıda yerləşir və burada keçirilən tədbirlərin Ağ evə qətiyyən dəxli olmur. Çünki ölkəni idarə edənlər bu meydanda ancaq adamların toplandığını görə bilərlər. Kimin hansı şüarı səsləndirməsini, nə tələb etməsini, hansı plakatı qaldırmasını işi) Ağ evin sakinləri eşitmirlər, görmürlər və yəqin ki, görmək və eşitmək də istəmirlər. Bu geniş meydanda kimlərsə mitinq keçirir, siyasi nitqlər söyləyirsə, başqa bir qrup meydanın o biri tərəfində futbol oynayır, kimlərsə itini gəzdirir və s.

Ağ evin qarşısında keçirilən bir piketin şahidi olduq. Üç-dörd nəfərə qədər İraq əsilli kürd ora «Kürdüstana azadlıq» şüarları ilə toplanmışdı. Onlar bir neçə saat meydanda çalıb-oynadılar, danışdılar və dağılışdılar...

Ağ evin arxasında - binanın təxminən 30-40 metrliyində isə uzun illərdən bəri sellofan materialdan hazırladığı daldalanacaqda yaşayan bir qadın diqqətimizi çəkdi. Məlum oldu ki, bu qadın uzun illərdir ki, burada məskunlaşıb və Ağ evin yeritdiyi siyasətə etirazını bu cür ifadə edir.

İlk baxışda psixi cəhətdən qeyri-normal adam təsiri bağışlayan bu qadın elə mühafizə polisinin eşidəcəyi səslə bizə Ağ evi göstərərək, buranın «terror yuvası» olduğunu bildirirdi.

Görünür, illərdən bəri bu «bəyanatı» dinləməklə məşğul olan mühafizə polisləri isə onu növbəti dəfə təbəssümlə süzməkdən başqa heç bir «tədbir» görmürdülər.

Həmin qadın söhbət zamanı bizim Azərbaycandan olduğumuzu biləndə ölkəmiz, onun neft ehtiyatları, Bakı – Tbilisi - Ceyhan kəməri barədə elə faktlar söylədi ki, onun psixika ilə bağlı hər hansı bir problemi olduğuna inana bilmədik...

Vaşinqton həm də muzeylər və heykəllər şəhəridir, desək, yəqin ki, yanılmarıq. Demək olar ki, şəhərin mərkəzi memorial abidələrlə doludur. ABŞ prezidentləri Corc Vaşinqtonun, Tomas Ceffersonun, Abraham Linkolnun şərəfinə ucaldılan, Vyetnam və Koreya müharibələrindəki itkiləri əks etdirən abidələr turistlərin daha çox axışdığı obyektlərdir.

Ölkəyə gələn turistlərin və qonaqların xüsusi maraq göstərdiyi yerlərdən biri də Vaşinqton muzeyləridir. Qeyd edək ki, bu muzeylərə giriş pulsuzdur.

Milli Amerika Tarixi Muzeyi ABŞ-ın 200 ildən bir qədər çox olan tarixini əks etdirir. Görünür, amerikalılar ABŞ tarixi deyəndə, əsasən, elə bu ölkənin prezidentlərinin tarixini nəzərdə tuturlar. Təsadüfü deyil ki, Milli Amerika Tarixi Muzeyi elə bir növ prezidentlər muzeyi təsiri bağışlayır. Burada ölkəni idarə etmiş bütün prezidentlərin həyat və fəaliyyətinə aid sənədlər, məişət əşyaları, fotolar və son illərdə ölkəyə rəhbərlik etmiş prezidentlərin çıxış və görüşlərinə aid videomateriallar saxlanılır. İstənilən adam, məsələn, Riçard Nikson guşəsində oturub onun həyat və fəaliyyəti haqqında sənədli filmə, çıxışlarına tamaşa edə bilir, yaxud Con Kennedinin öldürülməsinə dair sənədli video-kadrlara baxmaq imkanı qazanır.

Turistlər ABŞ prezidentlərinin Ağ evdəki iş otağının interyerinə uyğun düzəldilmiş otaqda, yaxud «prezident tribunasında» bir anlığa özlərini bu ölkənin «rəhbəri» də hesab edə bilirlər.

Muzeyin bir mərtəbəsi isə ölkənin birinci xanımlarına həsr olunub. Burada ABŞ prezidentlərinin xanımlarına məxsus əşyalar nümayiş etdirlir. Məsələn, prezidentin təntənəli andiçmə mərasimində oğul Corc Buşun xanımının geyindiyi qırmızı paltar da artıq muzey eksponatına çevrilib.

Amerikanın gecə barları barədə müxtəlif həqiqət və əfsanələr dolaşır. Deyilənə görə, Amerikadakı bəzi nüfuzlu elitar barlara giriş pulludur və bu məbləğ 200 dollardan yuxarıdır. Bu mənada, ola bilsin ki, bizim getdiyimiz obyekt elitar bar sayılmadığı üçün ora giriş pulsuz idi. Barın müştəriləri isə yalnız cavanlar deyildi: burada yaşlı ər - arvad da, tək cavan qadınlar da, orta yaşlı kişilər də istirahət edirdi. İstirahət sözünü təsadüfi işlətmədik. Bardakılar sözün əsl mənasında istirahət edirdilər.

Burada yemək yeyə-yeyə musiqiyə qulaq asanlar da vardı, yalnız pivə və digər spirtli içkilər içmək üçün gələnlər də. Barın müxtəlif tərəflərində asılmış 10-a yaxın televizorun hər birində isə bir kanalın verilişi gedirdi. Yəni burada oturub hansısa idman yarışını izləyənlər də vardı, bir tərəfə çəkilib CNN - in siyasi xəbərlərinə qulaq asan müştərilər də. Amma burada adamlar daha çox yeyib-içir, rəqs edir, sözün əsl mənasında dincəlirdilər.

Bizim üçün xüsusi maraq doğuran məqamlardan biri də barda Səslənən musiqi, daha doğrusu, buradakı «musiqi azadlığı» və bu azadlığa dözümlü münasibət oldu. Söhbət nədən gedir?

Barın müştərilərinə burada səsləndirilməsi mümkün olan mahnının siyahısı yazılmış dəftərlər verilirdi. Müştəri həmin dəftərdən ürəyinə yatan və oxumaq istədiyi mahnının nömrəsini balaca bir kağıza yazıb musiqiçilərə ötürürdü sonra hər kəs növbəsini gözləyir və vaxtı çatanda həmin mahnını oxumaq üçün səhnəyə dəvət olunurdu. Mahnı oxumaq istəyən müştərinin səsinin, oxumaq qabiliyyətinin olması vacib deyildi. Heç mahnının sözlərini əzbər bilməyə də ehtiyac yoxdu. Çünki mahnı səsləndirilərkən mətn kompüterin ekranında verilir və «müğənni» mahnı mətnini elə ekrandan oxuya bilirdi.

Səsi və oxumaq qabiliyyəti olmayan adamların mahnılarını dinləmək kimi çətin məşğuliyyətə müştərilərin dözümlü münasibəti ən azı həsəd aparılası mənzərə idi. Amma heç kim səsi olmayan «müğənni»nin oxumasına və ya oxuya bilməməsinə etiraz etməyi ağlına belə gətirmirdi. Əksinə, oxuyanların hamısı alqışlanırdı. Görünür, bu da Amerika cəmiyyətindəki tolerantlığın - hər şeyə dözümlü münasibətin nəticəsi idi. Gecə barında seksual azlıqlar və intim səhnələr «problemi»nə gəlincə, etiraf edək ki, biz yerli vaxtla gecə saat 2-yə qədər bu obyektdə olduq və qeyri-adi mənzərə, hərəkət müşahidə etmədik. Saat 2-dən sonra nələr baş verdiyi isə,

necə deyərlər, özlərinin işidir...

Qeyd edək ki, Amerikanın ştatları arasında gediş-gəliş məhdudiyyəti yoxdur. Məsələn, amerikalı bir ştatda yaşayıb, başqa ştatda işləyə bilər. Yaxud istənilən adam bir ştatdan köçüb başqa ştatda yaşaya bilər. Statistik hesablamalara görə, hər il Amerika ailələrinin hər beşindən biri yaşayış yerini dəyişir.

Ölkənin hər ştatının qısa abbreviaturası var. Bu abbreviatura ştatın adının başlandığı hərflərə uyğun seçilib. Məsələn, Vaşinqton ştatı qısaca «WA", Nyu-York ştatı - "NY", Texas -"TX", Kaliforniya - "CA", Şimali Karolina - "NC" (North Carolina) və s. adlanır.

Amerikanın ayn-ayrı şəhərlərinə qısamüddətli səfərlər istisna olmaqla, qalan vaxtı Şimali Karolina ştatında yaşadığımız üçün bu ştatın özünəməxsus xüsusiyyətləri barədə qısaca məlumat verməyimiz yerinə düşər.

Şimali Karolina ştatı ABŞ-ın cənub-şərqində, Atlantik okeanının sahillərində yerləşir. Ona görə də Amerikanın Cənubi Atlantik ştatları qrupuna daxildir. Bu ştat cənubda Cənubi Karolina və Corciya ştatı ilə, qərbdə Tennessi ilə, şimalda isə Virciniya ilə həmsərhəddir. Bu ştatdan paytaxt Vaşinqtona maşınla təxminən 5 saatlıq yoldur.

Deyilənə görə, 1789-cu ildə Şimali Karolina, koloniyalar arasında birinci olaraq, öz nümayəndələrinə müstəqilliyə səs verməyi həvalə edib və Şimali Karolina ABŞ konstitusiyasını ratifikasiya edən 12-ci ştat olub. Ona görə də Şimali Karolina müasir ABŞ-ın əsasını qoyan ilk 13 ştatdan biri kimi tanınır.

Amerikanın iki prezidenti - Ceyms Polk (11-ci) və Əndryü Conson (17-ci) bu ştatda doğulub.

Şimali Karolina ABŞ-ın sənayecə inkişaf etmiş on ştatı sırasına daxildir. Burada toxuculuq, tütünçülük və mebel sənayesi yüksək inkişaf səviyyəsinə çatıb. Mebel istehsalı sahəsində ölkədə birinci yeri tutur.

ABŞ-da istehsal olunan toxuculuq məhsullarının səkkizdə biri, tütün məhsullarının beşdə ikisi də bu ştatın payına düşür.

Şimali Karolina ABŞ-ın əsas tütünçülük regionu kimi tanınır. Mütəxəssislərin rəyinə görə, burada yetişdirilən tütün yüksək keyfiyyətli siqaret istehsalına imkan verir. Populyar «Vinston» və «Salem» siqaretləri bu ştatda buraxılır.

Şimali Karolina quşçuluq sənayesi sahəsində də öndə gedən ştatlardandır. Hind toyuğu əti istehsalına görə bu ştat ölkədə 1-ci, toyuq əti istehsalına görə isə 4-cü yeri tutur.

Əsas kənd təsərrüfatı məhsulları sırasında pambıq, qarğıdalı və araxis üstünlük təşkil edir.

Şimali Karolina həm də tarixi abidələrlə zəngindir. Ştatda turizm yüksək inkişaf səviyyəsinə çatıb. Hər il bu sahə ştatın büdcəsinə 1 milyard dollara qədər gəlir gətirir.

Ştatın Atlantik okeanına çıxan sahillərində yaradılmış böyük çimərlik zonası amerikalıların sevimli istirahət yeridir. Sahil boyu sıralanmış istirahət guşələri, restoran və kafelər, kiçik otellər dincəlmək üçün bu sahillərə gələnlərin xidmətində olur. Şimali Karolina ərazisinə görə ABŞ-ın 28-ci, əhalisinin sayına görə 10-cu ştatı sayılır. Paytaxtı Roli (Raleigh) şəhəridir. Şəhər XVI əsrin ikinci yarısında yaşamış ingilis şair və dənizçisi ser Volter Rolinin şərəfinə belə adlandırılıb. İndiki ABŞ ərazilərində ilk ingilis kolonistlərinin məskunlaşdırılmasında V.Rolinin xüsusi xidmətləri olub.

Yeri gəlmişkən, ilk ingilis kolonistləri məhz indiki Şimali Karolina ərazisində məskunlaşmağa cəhd göstəriblər və bu ərazilər də İngiltərə kralı birinci Karlın şərəfinə, adının latın transkripsiyasına («Karolus») uyğun olaraq, «Karolina» adlandırılıb. Maraqlıdır ki, ingilislərin bu ərazilərdə məskunlaşmaq üçün ilk cəhdi uğursuzluqla nəticələnib və Amerika tarixinin «İtkin düşmüş koloniya» («The Lost Colony») müəmmasının yaranmasına səbəb olub.

# İTKİN DÜŞMÜŞ KOLONİYA VƏ RAYT QARDAŞLARI

Amerika Birləşmiş Ştatları dövlət kimi formalaşandan bəri hər ərazidə baş verənlərin, demək olar ki, hamısı qələmə alınıb, ölkənin tarixi ən xırda detallarına qədər öyrənilib. Amma Amerika tarixinin bir müəmması bu günə qədər açılmayıb. Söhbət məskunlaşmaq üçün qitəyə göndərilən ilk ingilis koloniyasının - 115 avropalının müəmmalı şəkildə yoxa çıxmasından gedir...

Şimali Karolina ştatının ərazisində yerləşən Roanok adasında yaradılmış «Roli istehkamı» qoruq-muzeyi ABŞ tarixinin bu müəmmasına həsr olunub. Muzeyin əməkdaşları hər gün bura axışan turistlərə səbrlə «İtkin düşmüş koloniya» barədə qəmli hekayət danışırlar. Və onlar bu hekayətə qitənin kəşfi dövründən başlayırlar. Deyirlər ki, Amerika Kolumb tərəfindən kəşf ediləndən sonra inkişaf etmiş Avropa dövlətləri «Yeni dünya»dakı əraziləri tutmaq, orada öz tələbələrini yerləşdirmək məqsədilə qitəyə xüsusi maraq göstəriblər.

Şimali Amerikanın şərq sahillərinə gəlib çıxan və oranı tədqiq edən ilk avropalı isə fransız dənizçisi Covanni di Verrasano sayılır. O, Fransa kralı I Fransiskonun tapşırığı ilə 1524-cü ildə qitənin Atlantik okeanı tərəfindəki sahillərinə çıxıb və krala gələcək Birləşmiş Ştatların indiki Şimali və (Cənubi Karolina ştatlarına aid olan ərazilərini təsvir edən məlumat göndərib. Verrasanonun gündəliyi 60 il sonra Ingiltərədə çap olunub. Sonralar bu ərazilərin ingilislər tərəfindən məskunlaşdırılmasında həmin gündəliyin mühüm əhəmiyyəti olub. Çünki XVI əsrdə İngiltərə dünyada aparıcı yer tutaraq, sonralar isə dənizlərdə hakim mövqeyə yiyələnmək üçün Şimali Amerika ərazilərində öz adamlarmı məskunlaşdırmaq və burada hərbi dəniz donanmaları yaratmaq niyyətinə düşüb. İngilis kraliçası I Yelizaveta bu torpaqlarda öz hakimiyyətini və gücünü tətbiq etmək məqsədilə qitəyə müvafiq ekspedisiyalar göndərmək barədə göstəriş verib.

1578-ci ildə ingilis zadəganı Hamver Cilbert I Yelizavetanın tapşırığı ilə Amerikada koloniya təşkil etmək üçün səfərə çıxsa da, İspaniya gəmilərinin hücumuna məruz qalaraq geri dönməli olub.

Növbəti belə cəhdi tanınmış ingilis zadəganı Volter Roli həyata keçirmək qərarına gəlib və 1584-cü ildə kraliçanın göstərişi ilə yeni ekspedisiya hazırlayıb. Kraliça Roliyə yeni ərazilərdə koloniya məskunlaşdırmaq üçün geniş hüquqlar və tam sərbəstlik verib.

Roli səfərə hazırladığı ekspedisiyanı iki təcrübəli kapitanın başçılığı ilə Amerika sahillərinə göndərib ki, gələcək köçkünlər üçün yaşayış yeri seçsin. Onlar Atlantik okeanı vasitəsilə ABŞ-m indiki Şimali Karolina ştatının ərazisində yerləşən və materikə çox yaxın olan Roanok adasına gəlib çıxıblar, hesab ediblər ki, bu ərazi məskunlaşmaq üçün yararlıdır. Bundan sonra ekspedisiya İngiltərəyə qayıdıb. Yeni yaşayış yeri barədə verilən hesabat kraliçam qane edib və layihənin rəhbəri ser rütbəsi ilə mükafatlandırılıb. Bu uğurdan ruhlanan Roli yeni ekspedisiyanın təşkilinə başlayıb.

1587-ci ilin iyulunda 96 kişinin, 17 qadının və 6 uşağın daxil olduğu növbəti ekspedisiya Roanok adasına düşüb. Gəlmə adamlar dərhal yaşamaq üçün özlərinə daldalanacaq və evlər tikməyə başlayıblar.

Köçkünlər adaya düşəndən təxminən bir ay sonra qubernator Con Uaytın nəvəsi dünyaya gəlib. Kolonistlər Amerika ərazisində ilk ingilisin doğulması faktını kifayət qədər təntənə ilə bayram ediblər. Uşağa babasının rəhbərlik etdiyi Virciniya koloniyasının adını veriblər. Qeyd edək ki, ilk koloniya və burada doğulan ilk uşağın adı kraliça Yelizavetanın şərəfinə Virciniya adlandırılıb. İngiliscə «virgin» «bakirə» deməkdir və bu adı qoyan ingilislər bakirə kraliça Yelizavetanı nəzərdə tutublar. Az sonra yeni ərazidə məskunlaşan köçkünlər başa düşüblər ki, gətirdikləri ərzaq və silah, eləcə də tikinti alətləri onlara kifayət etməyəcək. Qubernatorun müşavirləri qərara alıb ki, çatışmayan şeylər, eləcə də imkan olsa, təzə kolonistlər gətirmək üçün Con Uayt İngiltərəyə qayıtsın. Onların hesablamasına görə, qubernator qış düşənəcən gəlib adaya çatmalı idi.

Con Uayt Avropaya çatan kimi yeni ekspedisiya hazırlığı ilə məşğul olmağa başlayıb. Amma bu dövrdə artıq İngiltərə başqa qayğılarla yaşayırdı: dövlətin bütün qüvvələri İspaniya dənizçiləri ilə mübarizəyə yönəldilmişdi. Belə bir şəraitdə hətta Roanok adasına göndərilən ekspedisiyaların təşəbbüsçüsü Volter Rolinin özü də Uayta kömək edə bilmir. O, Roanok adasında qalan koloniya problemi ilə yalnız 1590-cı ilin əvvəllərində məşğul ola bilir. Üç gəmidən ibarət ekspedisiya Amerika sahillərinə həmin ilin martında yola düşür. Amma gəmilərə yükləməyə koloniya üçün lazım olan heç nə tapılmır. Yeni kolonistlərdən isə heç söhbət getmir. Çünki artıq Amerika qitəsində macəra axtarmaq həvəsində olan adamlar tapmaq qeyri-mümkün olur. Ona görə də gəmilərə sərnişin kimi yalnız Con Uayt və onunla birgə Amerikadan qayıdan üç qulluqçu qayıdır...

Beləliklə, Con Uayt adaya buradan çıxdığı vaxtdan 3 il sonra gəlib çatır. Roanok adası qubernatoru sükutla qarşılayır. (gələnlər adanı diqqətlə axtarsalar da, qoyub getdikləri adamlardan səs-soraq çıxmır ...

Ölkədə yaranmış vəziyyətlə əlaqədar ingilislər itkin düşmüş koloniyanın taleyi ilə bir neçə il yaxından məşğul ola bilmirlər. Sonralar isə İngiltərə gəmiləri dəfələrlə Roanok adasına yan alır, müxtəlif qruplar ətraf adalarda axtarış aparır, hətta materikin ortalarına qədər gedib çıxırlar. Lakin bu axtarışlar nəticə vermir.

Amerikada müəmmalı şəkildə yoxa çıxan koloniya barədə yalnız müxtəlif əfsanələr, onların itkin düşməsinin səbəbi barədə versiyalar yaranır.

Bir versiyaya görə, köçkünlər bu adadan başqa yerə köçmək qərarına gəliblər. Onlar yığışıb getmək istəyərkən okeanda qasırğa olub və qayıqları batıb.

İkinci versiyaya görə, Roanok adasına köçkünlərin gəlişindən xəbər tutan ispanlar onları qırıb və ya əsir götürüb özləri ilə aparıblar. Üçüncü versiyaya görə, bu köçkünlər yerli qəbilələrlə assimlyasiyaya uğrayıb. Daha doğrusu, onlar çətinliklərə dözə bilməyib və hindulara qoşularaq cəngəlliklərə çəkiliblər.

İlk kolonistlər tapılmasa da, onların xatirəsi unudulmayıb. Ötən əsrin 30-cu illərində bir qrup biznesmen Amerikada ilk ingilis uşağının doğulmasının 350 illiyini qeyd etmək üçün assosiasiya yaradıb. Bu qurum ilk kolonistlərin xatirəsini əbədiləşdirmək qərarına gəlib. Bu məqsədlə onların məskunlaşdığı ərazidə - okean sahilində 3500 nəfərlik yay teatrı yaradılıb və 1935-ci ilin yayında dramaturq Pol Qrinin yazdığı «İtkin düşmüş koloniya» adlı simfonik dram əsəri tamaşaya qoyulub. O vaxtdan bəri hər yay bu əsər nümayiş etdirilir və geniş tamaşaçı marağına səbəb olur. Teatr yaranandan indiyədək bu əsərə 3 milyondan çox adam baxıb.

1941-ci ildə isə okean sahilində ilk kolonistlərin şərəfinə I Yelizaveta dövrünün üslubunda «Roli istehkamı» yaradılıb, muzey təşkil olunub, bu əraziyə milli park statusu verilib. İtkin düşmüş koloniya»ya daxil olan insanların siyahısı muzeyin divarına həkk edilib.

ABŞ tarixi üçün xüsusi əhəmiyyət daşıyan daha bir fakt da Şimali Karolina ştatının adı ilə bağlıdır. Dünyada ilk mühərrikli təyyarə ilə uçuş cəhdi 1903-cü ildə bu ştatın ərazisində edilib.

Məlum olduğu kimi, hələ XIX əsrin axırlanndan başlayaraq, dünyanın müxtəlif yerlərində uçan qurğular yaratmaqla bağlı cəhdlər olsa da, bu arzular yalnız XX əsrdə reallığa çevrilib. Daha doğrusu, 1903-cü ildə ABŞ-ın Şimali Karolina ştatında daxili yanma mühərrikilə işləyən ilk aeroplan səmaya qalxıb. O vaxt bu fakt ciddi qəbul edilməsə də, illər keçəndən sonra amerikalılar ilk təyyarənin uçuş meydanında muzey yaradıblar və burada ilk uçuşun təşəbbüskarlarının - Uillbir və Orvill Rayt qardaşlarının milli memorialı adlanan abidə tikilib. Memorial Atlantik okeanı sahillərində geniş ərazini əhatə edir. Burada hər şey 100 il əvvəlki kimi bərpa olunub. Rayt qardaşlarının burada qurduqları yay evi, ilk aeroplanın maketi və digər çoxsaylı eksponatlar ilk mühərrikli aeroplanın uçuş tarixindən söhbət açır.

Üçüncü versiyaya görə, bu köçkünlər yerli qəbilələrlə assimlyasiyaya uğrayıb. Daha doğrusu, onlar çətinliklərə dözə bilməyib və hindulara qoşularaq cəngəlliklərə çəkiliblər.

İlk kolonistlər tapılmasa da, onların xatirəsi unudulmayıb. Ötən əsrin 30-cu illərində bir qrup biznesmen Amerikada ilk ingilis uşağının doğulmasının 350 illiyini qeyd etmək üçün assosiasiya

yaradıb. Bu qurum ilk kolonistlərin xatirəsini əbədiləşdirmək qərarına gəlib. Bu məqsədlə onların məskunlaşdığı ərazidə - okean sahilində 3500 nəfərlik yay teatrı yaradılıb və 1935-ci ilin yayında dramaturq Pol Qrinin yazdığı «İtkin düşmüş koloniya» adlı simfonik dram əsəri tamaşaya qoyulub. O vaxtdan bəri hər yay bu əsər nümayiş etdirilir və geniş tamaşaçı marağına səbəb olur. Teatr yaranandan indiyədək bu əsərə 3 milyondan çox adam baxıb.

1941-ci ildə isə okean sahilində ilk kolonistlərin şərəfinə I Yelizaveta dövrünün üslubunda «Roli istehkamı» yaradılıb, muzey təşkil olunub, bu əraziyə milli park statusu verilib. «İtkin düşmüş koloniya»ya daxil olan insanların siyahısı muzeyin divarına həkk edilib.

ABŞ tarixi üçün xüsusi əhəmiyyət daşıyan daha bir fakt da Şimali Karolina ştatının adı ilə bağlıdır. Dünyada ilk mühərrikli təyyarə ilə uçuş cəhdi 1903-cü ildə bu ştatın ərazisində edilib.

Məlum olduğu kimi, hələ XIX əsrin axırlarından başlayaraq, dünyanın müxtəlif yerlərində uçan qurğular yaratmaqla bağlı cəhdlər olsa da, bu arzular yalnız XX əsrdə reallığa çevrilib. Daha doğrusu, 1903-cü ildə ABŞ-m Şimali Karolina ştatında daxili yanma mühərrikilə işləyən ilk aeroplan səmaya qalxıb. O vaxt bu fakt ciddi qəbul edilməsə də, illər keçəndən sonra amerikalılar ilk təyyarənin uçuş meydanında muzey yaradıblar və burada ilk uçuşun təşəbbüskarlarının - Uillbir və Orvill Rayt qardaşlarının milli memorialı adlanan abidə tikilib. Memorial Atlantik okeanı sahillərində geniş ərazini əhatə edir. Burada hər şey 100 il əvvəlki kimi bərpa olunub. Rayt qardaşlarının burada qurduqları yay evi, ilk aeroplanın maketi və digər çoxsaylı eksponatlar ilk mühərrikli aeroplanın uçuş tarixindən söhbət açır.

Rayt qardaşları o dövrdə təzəcə kəşf olunmuş daxili yanma mühərriki ilə işləyən və idarə olunan «Flayer» («Uçan») adlandırdıqları təyyarə hazırlayıb və təyyarənin səmaya qalxması üçün bir qədər təpəlik olan yer axtarıblar. Bu axtarışlar onları Şimali Karolina ştatındakı kiçik Hitti Houk şəhərinə gətirib çıxarıb və onlar burada uçuş sınaqları keçiriblər. Bütün işlər dekabrda başa çatıb və qardaşlar küləkli bir gündə eksperiment uçuş etməyi qərara alıblar. Onlar yerli sakinlərdən birini çağırıblar ki, uçuş faktını fotolentə alsın. Məlum olub ki, həmin adam ömründə ilk dəfə əlinə fotoaparat alır. Ona görə də təyyarə göyə qalxanda həyəcandan aparatın düyməsini basıb-basmadığını xatırlaya bilməyib. Lentin yuyulması üçün iki həftə vaxt keçib və məlum olub ki, şəkil əla alınıb. İndi həmin şəkil muzeyin ən qiymətli eksponatıdır.

«Flayer» ilk cəhddə havada cəmi 12 saniyə qalıb və təxminən 150 fut uçub. İkinci cəhddə 200 futa qədər məsafəni qot etmək mümkün olub. Qardaşların dördüncü uçuş cəhdi daha uğurlu olub - «Flayer» 59 saniyə havada qalıb və 800 füta qədər uçub. Bir futun 30,5 santimetr olduğunu nəzərə alsaq, demək olar ki, onlar təxminən 250 metr uçublar. Qeyd edək ki, həmin dövrdə uçuş faktının qeydə alınması üçün 200 fut uçmaq kifayət sayılıb.

Hadisənin səhəri günü Amerikanın cəmi dörd qəzetində bu barədə məlumat verilib. O da redaktorlar və oxucular tərəfindən tarixi fakt kimi yox, uydurma kimi qəbul olunub.

Lakin bir neçə ildən sonra bu fakt müasir aviasiya tarixinin ilk uğurlu addımı kimi tarixə düşüb və 1932-ci ildə uçuş yerində Rayt qardaşlarına abidə qoyulub.

Amerikada olduğumuz 2003-cü ildə ilk uçuşun 100 illiyi milli memoriala toplaşmış 30 minə yaxın tamaşaçının iştirakı ilə təntənə ilə qeyd olundu. Yubiley tədbirlərində ABŞ prezidenti Corc Buş və Amerika hökumətinin üzvləri də iştirak edirdilər.

Bu faktlar, eləcə də bizim digər müşahidələrimiz deməyə əsas verir ki, amerikalılar o qədər də qədim və zəngin olmayan tarixlərinə hörmət və ehtiramla yanaşır, ən xırda uğurdan da vətənpərvərlik məqsədilə istifadə etməyi bacarırlar.

## AMERİKALILAR HİND TOYUĞUNU NİYƏ SEVİRLƏR?

Əgər ayrı-ayrı xalqların müxtəlif heyvanlar özləri üçün əziz və müqəddəs saydıqlarını xatırlasaq, onda amerikalılar üçün belə bir canlının hinduşka olduğunu qətiyyətlə söyləmək olar. Çünki ən əziz bayram günlərində hər bir Amerika ailəsinin süfrəsinin bəzəyi hind toyuğu - «hinduşka» olur. Amerikalılar ən əziz qonaqlarına «hinduşka» əti bişirirlər. Onlar «hinduşka»nı bütöv şəkildə «duxovka»ya qoyurlar və bir neçə saata həmin xörək hazır olur. Qeyd edək ki, amerikalılar bu mərasimi də xüsusi təmtəraqla keçirməyi xoşlayırlar.

Bəs amerikalıların «hinduşka» ətinə və ümumiyyətlə, «hinduşka»ya bu marağının səbəbi

nədir?

XVI əsrin sonlarından indiki Amerika ərazilərində məskunlaşmağa başlayan ingilislər müxtəlif çətinliklərlə üzləşiblər. Ərzaq qıtlığı isə onların xüsusi narahatlığına səbəb olub. Ona görə yox ki, bu ərazilərdə yeməyə bir şey tapılmayıb. Ona görə ki, gəlmə ingilislər bu ərazilərdə nəyin yeməli olduğunu bilməyiblər. Məsələn, ilk dəfə kartofu görən ingilislər bunun zəhərli olduğunu düşünərək, qidalanmaq üçün ondan istifadə etmək fikrini yaxına da buraxmayıblar. Amma sonralar elə həmin ingilislər indi dünyanın hər yerində əsas qida məhsullarından birinə çevrilən kartofu Avropaya da aparıb çıxarıblar.

Müasir amerikalıların dediyinə görə, 1621-ci ildə yerli hindular indiki Massaçusets ştatında məskunlaşan ingilislərə onların həmin vaxta qədər tanımadıqları və istifadə etmədikləri kartof və pomidorla birlikdə «vəhşi quş əti» də gətiriblər. Həmin quş əti ingilislərin xoşuna gəlib və onlar bu quşu «hinduşka» adlandırmağa başlayıblar. Qarşıdan gələn növbəti qışı yola vermək üçün «hinduşka» ətinin yaxşı ərzaq ehtiyatı olacağı onları sevindirib. Bununla da müasir Amerika Birləşmiş Ştatlarının ərazilərində məskunlaşan ingilislər, demək olar ki, üzləşdikləri ərzaq problemini həll edə biliblər. Həmin vaxtdan başlayaraq, «hinduşka» gəlmə ingilislərin əsas ərzaq məhsuluna çevrilib. Məskunlaşdıqları yeni ərazilərdə ilk kolonistləri aclıqdan onların “hinduşka” adlandırdıqları bu «vəhşi quş» xilas edib. Ona görə də amerikalılar o vaxtdan bəri «hinduşka»ya xüsusi qayğı ilə yanaşır və «hinduşka» ətini süfrələrinin yaraşığı sayırlar.

Təsadüfi deyil ki, Amerika Birləşmiş Ştatları müstəqillik qazandıqdan sonra dövlət gerbi haqqında məsələ müzakirə olunarkən başqa təkliflərlə yanaşı, gerbdə «hinduşka»nın təsvirinin verilməsi barədə də təklif irəli sürülüb. Təklifin (tərəfdarları fikirlərini onunla əsaslandırıblar ki, çətin günlərdə ilk amerikalıları aclıqdan və ölümdən məhz bu quşun əti xilas edib. Həmin müzakirələrdə amerikalıların bir millət kimi formalaşmasında «hinduşka»nın xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. O vaxt qəbul edilən qərara əsasən, ölkənin gerbində «hinduşka» yox, qartal əks olunsa da, «hinduşka»ya amerikalıların məhəbbəti bu gün də azalmayıb.

Ona görə də Amerikada əksər bayramlarda hinduşka əti bişirilir.

Bu ölkədə bir bayram da var ki, həmin gün hər bir amerikalının süfrəsinin əsas yeməyi «hinduşka» olur. Bu, Şükranlıq (və ya Şükran) bayramıdır. Şükranlıq bayramı hər il noyabr ayının dördüncü cümə axşamı günü qeyd edilir. Həmin gün təbii olaraq iş günü sayılmır və Amerikanın ən populyar bayramı hesab edilir. Müqayisə üçün deyək ki, Amerikada Milad bayramı olduqca populyardır. Amma Milad həm də dini bayram olduğu üçün heç də bütün amerikalılar bu bayramı qeyd etmirlər. Məsələn, bu ölkədə yaşayan müsəlmanlar, yəhudilər və digər millətlərin nümayəndələri üçün Milad bayramı, sadəcə, istirahət günüdür. Şükranlıq bayramı isə bütün amerikalılar və bütün Amerika üçün ən əziz və unudulmaz bayramdır. Deyilənlərə görə, həmin il Amerikada qış olduqca sərt keçib və növbəti qışın da ciddi problemlər yaradacağı ingilisləri narahat etməyə başlayıb. Onda qubernator adamlar arasında yaranmış ruh düşkünlüyünü aradan qaldırmaq məqsədilə qışın yaxınlaşdığı günlərdə - noyabrın sonuncu cümə axşamı günü bu insanlara Allahın verdiyi nemətlərə görə minnətdarlıq məqsədilə bayram təşkil edib. Yayılan əfsanələrə görə, bu bayram adamların əhval-ruhiyyəsinin yüksəlməsində mühüm rol oynayıb və onlar daha bir sərt qışı bu əhval-ruhiyyə ilə yola verə biliblər.

Bu günün rəsmi bayram və istirahət günü kimi qeyd edilməsi isə Amerikanın 16-ci prezidenti Abraham Linkolnun adı ilə bağlıdır. O, Şükranlıq gününün ümumxalq bayramı kimi qeyd edilməsini 1863-cü ildə rəsmiləşdirib.

O vaxtdan bəri Şükranlıq bayramı bütün Amerikada yaşayan insanlar üçün rəsmi bayram gününə çevrilib. Bu bayramın əsas atributlarından biri isə həmin çətin günlərdə ilk kolonistləri aclıqdan və ölümdən qurtaran «hinduşka» olub.

Hər il Şükranlıq bayramı günü övladlar valideynlərinin yanına can atır və həmin günü bir yerdə qeyd edirlər. Bu bayram günündə hər bir amerikalı ailəsində çoxsaylı qohumlar və dostlar toplaşır. Statistik məlumatlara görə, Amerikanın dəmiryol və təyyarə nəqliyyatında, eləcə də ölkənin avtomobil yollarında ən çox sıxlıq məhz bu bayram günü ərəfəsinə təsadüf eləyir. Çünki Şükranlıq bayramında bütün əziz və yaxın amerikalılar bir yerə toplaşır və onlara yaradılmış geniş imkanlar üçün Allaha dua edirlər.

Sonralar hər şeydə bir ənənə yaratmaq həvəskarı olan amerikalılar bu bayramın qeyd olunmasına da yenilik əlavə ediblər. Ötən əsrin ortalarından başlayaraq, Şükranlıq bayramı günü Amerika «Hinduşka» İstehsalçıları Federasiyası tərəfindən ABŞ prezidentinin iqamətgahına - Ağ evə iki «hinduşka» gətirilir. Onlardan biri kəsilib ənənəyə uyğun olaraq bişirilir və prezidentin bayram süfrəsinə qoyulur. İkinci «hinduşka» isə prezidentə diri təqdim olunur və prezident həmin «hinduşka»nı kəsmir, təntənəli şəkildə «əfv edir» və həmin quş Virciniya ştatındakı xüsusi fermaya göndərilib ömrünün sonuna qədər azad yaşayır. Biz Amerikada olduğumuz vaxt ABŞ prezidenti Corc Buşun iştirakı ilə Ağ evdə 56-cı dəfə keçirilən bu mərasimi televiziya vasitəsilə izlədik.

Statistik məlumatlara görə, Şükranlıq bayramı günü Amerika əhalisinin 95 faizinin evində «hinduşka» əti bişirilir. Ümumiyyətlə, hər il həmin gün Amerikada 45 milyona qədər «hinduşka» kəsilir.

# NƏHƏNG DÜNYA BAZARI

*Və ya böyük ticarətin kiçik sirləri*

Amerikanın kiçik şəhərlərində bir neçə xırda ticarət obyektləri istisna olmaqla, əksər hallarda yanında nəhəng avtomobil dayanacağı olan iri mağazalar şəhərkənarı rayonlarda yerləşir. Müqayisə üçün deyək ki, əgər Bakıda mağazanı əhalinin sıx yaşadığı yerlərdə açmaq daha məqsədəuyğun və sərfəlidirsə, Amerikada iri mağazaları, adətən şəhər kənarında, geniş meydanda tikirlər.

Amerikalılar bazarlığa şəxsi avtomobildə gedirlər, ona görə də mağazanın yaşayış yerindən uzaq olması problem yaratmır. Əsas odur ki, mağazanın yaxınlığında maşını saxlamaq üçün rahat yer olsun.

Demək olar ki, əksər şəhərlərdə «JCPenney», «Wall-Mart», «Mall» tipli nəhəng mağazalar şəbəkəsi var. Belə mağazalarda, bir qayda olaraq, iynə-sapdan tutmuş ən vacib ərzaq mallarına qədər hər şey satılır.

Bütövlükdə isə Amerika Birləşmiş Ştatlarını nəhəng dünya bazarı adlandırmaq olar. Çünki bu ölkənin mağazalarında dünyanın hər yerində istehsal olunan mallara rast gəlmək mümkündür. Gəzdiyimiz şəhərlərdə Azərbaycan istehsalı olan nəyəsə rast gəlməsək də, Ermənistan istehsalı olan gödəkçələr, Türkmənistanda buraxılmış jaketlər, Belarus kostyumları və s. gördük. Amerika mağazalarında satılan sənaye mallarının 70 faizi Çin istehsalıdır, desək, yəqin ki, çox da yanılmarıq. Adam bu ölkə istehsalçılarının fantaziyasına həsəd aparmalı olur. Amerikada nəyə daha çox maraq göstərilirsə, həmin malların üstündə «Made in China» sözləri yazılmış yarlıq görərsən. Xüsusən, suvenir və hədiyyələrin demək olar ki, 90 faizinin istehsal ünvanı Çindir. ABŞ-da Çin istehsalı olan geyim şeyləri də kifayət qədərdir. Özü də bu mallar bizdəki kimi ucuz yox, Amerika qiymətləri ilə satılır. Təbii ki, buradakı Çin malları bizdə satılanlar kimi keyfiyyətsiz deyil və ona görə də alıcıları narazı salmır.

Söhbət alıcılardan düşmüşkən, qeyd edək ki, Amerikada istehlakçılar adətən aldıqları malın hansı ölkənin istehsalı olmasına o qədər də əhəmiyyət vermirlər. Onlar üçün əsas meyar rahatlıqdır! Amerikalılar kimin necə baxacağından asılı olmayaraq, özlərinə yaraşan və əyinlərinə rahat oturan şeyləri alırlar. Ona görə də bu ölkədə dəb ardınca qaçmaq xəstəliyi yoxdur.

Yeri gəlmişkən, bu ölkədə qadınların kosmetikadan istifadə səviyyəsi də bizdəki kimi xəstəlik dərəcəsinə çatmayıb. Xüsusən, iş yerlərində amerikalı qadınlar sırf işgüzar geyimdə və görkəmdə olurlar. Bu «vəhşi kapitalizm» dünyasının qız və qadınları müsəlman Bakısındakı geyim açıq-saçıqlığına da həsəd apara bilərlər.

Amerika mağazalarında Çin malları ilə bərabər Meksika, Vyetnam, Kamboca, Şri-Lanka, Tailand, Koreya kimi ölkələrdə istehsal olunan mallar çoxluq təşkil edir. Bəs bu cür superdövlətdə niyə zəif inkişaf etmiş ölkələrin malları satılır? Belə sualla müraciət etdiyimiz amerikalılar bunun səbəbinin çox sadə olduğunu bildirdilər. Onların sözlərinə görə, ABŞ-da sənaye sahələrində çalışan fəhlələr hər iş saatı üçün 20-25 dollarla kifayətlənmir, daha çox əmək haqqı istəyirlər. İşçi qüvvəsinin ucuz olduğu ölkələrdə isə həmin işi cəmi 2-3 dollara gördürmək mümkündür. Ona görə də Amerikanın istehsal yönümlü şirkətlərinin çoxu Çində və digər ölkələrdə fabriklər yaradır, mal və avadanlıqları həmin ölkələrə göndərərək, istehsalı orada təşkil edir və Amerikaya hazır məhsul gətirirlər. Nəticədə külli miqdarda gəlir götürə bilirlər. Bu mənada, mağazalarda tez-tez ucuzlaşmaya dair elanların verilməsi də təsadüfi deyil.

Az qala hər gün televiziya ekranlarında bu və ya digər mağazalarda ucuzlaşmaya dair reklam çarxları nümayiş olunur. Xüsusən, bayramlarla əlaqədar bəzən 50-70 faizə qədər ucuzlaşma barədə elanlar verilir. Mağazaya gedirsən, iri reklam lövhələri adamın gözünə girir: «Yalnız bu gün - 40 faiz ucuzlaşma», «Milad ucuzlaşması - 50 faiz» və s.

Əslində, bu elanlar, sadəcə olaraq, alıcı cəlb etmək üçün oyun deyil, reallıqdır. Məsələn, bir də görürsən ki, qiyməti 250 dollar olan paltar 50 faiz ucuzlaşdırıldı. Alınmırsa, həmin malı bir də ucuzlaşdırırlar və qiymət, deyək ki, 50 dollara endirilir. 250 dollarlıq malın əvvəlki qiymətindən 5 dəfə ucuz satılması fəlsəfəsini anlamaq çətin olsa da, belə hallarla tez-tez rastlaşırsan. Bu

«fəlsəfəyə» təəccübümüzü görən bələdçimizin izahatına görə, Amerika ticarətçiləri mallara o qədər yüksək qiymət qoyurlar ki, onları nə qədər ucuzlaşdırsalar da, yenə qazanc götürə bilirlər.

Mağazalarda «Sale» başlıqlı elanlar ucuzlaşmanı göstərir. "Clearance" kəlməsi də ucuzlaşmadan xəbər verir. Əslində, "Clearance" «satışdan yığışdırılma, təmizlənmə» deməkdir və bu elan onu göstərir ki, satışda olan həmin mallar axırmcıdır. Amerika biznesmenləri alınmayan malların satış zalında və ya anbarda yer tutmasına imkan vermirlər. Alıcısı tapılmayan mallar yarıbayarı ucuzlaşdırılır, alınmırsa, qiymət yenə aşağı salınır və belə malların son satış nöqtəsi "Clearance" elanının altında olur. Bu yolla mağazalar artıq mallardan təmizlənir. Xüsusən, hər ilin yanvar-fevral aylarında mağazalar belə «təmizləmə» kampaniyası keçirirlər ki, satışa təzə mallar çıxara bilsinlər.

Amerika mağazalarında alıcını cəlb etmək üçün müxtəlif üsul və vasitələrdən istifadə olunur. Ən populyar və geniş yayılmış cəlbetmə vasitəsi qiymətin bir sent az göstərilməsidir. Amerikada satılan malların üstündə heç vaxt yuvarlaq rəqəm görməzsən. Məsələn, 20 dollar əvəzinə 19,99 dollar yazılır. Yaxud 9,99 dollar, 52,99, 159,99 və s. Bu vasitənin alıcı cəlb olunmasında səmərəsi nə qədərdir, deyə bilmərik, amma Amerika ticarət obyektlərinin hamısında bu praktika tətbiq edilir. Onu da əlavə edək ki, bu ölkədə malın üstünə yazılan qiymətdə vergi nəzərə alınmır. Kassaya yaxınlaşarkən həmin qiymətin üstünə təxminən 7-9 faiz əlavə dəyər vergisi artırılır.

İki cüt ayaqqabı götürürsənsə, əksər ayaqqabı mağazalarında böyük güzəşt tətbiq olunur - ikinci cütə görə qiymətin yarısını ödəyirsən. Müəyyən mağazalar var ki, bir maldan iki dənə götürəndə ikinciyə görə simvolik məbləğ - 1 dollar ödəyirsən. Məsələn, 35 dollara satılan jaketdən ikisini 36 dollara (35+1 dollar) almaq olar.

Bəzi mağazalarda çoxlu mal alıb nağd pul ödəyənlərə də güzəştlər edilir.

Böyük mağazaların çoxunda daimi müştərilərə xüsusi kart verirlər və belə kart sahibinə bu və ya digər malların alışında bəzən 20-30 faizlik güzəşt edilir.

Sovet dövründə olduğu kimi, bu gün də Azərbaycanın əksər ticarət şəbəkələri «Alınan mallar dəyişdirilmir və geri qaytarılmır) mənasını verən sərt qayda ilə işləyirlər. Yəni bu gün aldığın malı sabah qaytarmaq istəyəndə Bakıda xeyli əsəbiləşməli, müdiriyyətə müraciət etməli, bir sözlə, uzun proseslərdən keçməlisən. Halbuki neçə illərdir Azərbaycanda da istehlakçı hüquqlarının qorunmasına dair qanun qəbul edilib.

ABŞ-da isə alınan malları sərbəst şəkildə qaytarmaq mümkündür. Amerikada populyar olan «Wall-Mart» mağazalar şəbəkəsində aldığı malı qaytarmaq üçün növbəyə duranları görəndə əvvəlcə gözlərimizə inanmadıq. Adamlar ədəb-ərkanla mağazanın bu məqsədlər üçün fəaliyyət göstərən şöbəsində növbəyə durur və bəyənmədikləri, yaxud əyinlərinə kiçik və ya böyük olan paltarları geri qaytarırdılar. Təbii ki, alınan mal üçün mağazadan verilmiş kassa ödəmə çeki təqdim edilməlidir. Aldığın malı dəyişmək məsələsində isə, ümumiyyətlə, problem yoxdur...

Amerika mağazalarında müşahidə etdiyimiz bir məqamı da qeyd etmək istəyirik. Bizdə özünəxidmət tipli iri ticarət obyektinə girərkən adətən əlindəki çanta və ya torbanı harasa qoymalısan ki, necə deyərlər, içəridəki mallarla «qarışmasın». Amerikada buna ehtiyac yoxdur. Bir mağazada etdiyin bazarlıq torbası ilə digər nəhəng mağazanın içində də sərbəst gəzə bilərsən. Heç kim də maraqlanmaz ki, torbada nə var. Əgər nəfsin səni yoldan çıxarmayıbsa, narahat olmağa dəyməz. Görünür, bu da ölkədə insana inam faktorunun nümunəsidir.

Bütün demokratik azadlıqlara baxmayaraq, Amerikada bəzi sərt qadağa və məhdudiyyətlər də var.

Məlum olduğu kimi, Birləşmiş Ştatlar siqaretin vətəni sayılır. Təxminən 2000 il bundan əvvəl Amerika qitəsinin aborigenləri dini mərasimlər zamanı, eləcə də dərman vasitəsi kimi tütündən istifadə ediblər. Kolumb Amerikanı kəşf edərkən hindu tayfalarının tütün yarpaqlarını yandırıb çəkdiklərini və həmin bitkini «tabaqo» adlandırdıqlarını müşahidə edib. Bundan sonra tütün İspaniyaya gətirilib və bu kənd təsərrüfatı məhsulu Avropada da geniş yayılmağa başlayıb. Amma tütünün dünya miqyasında geniş «tanınması» Amerikada bu bitkiyə marağı, eləcə də ondan əldə olunan gəlirin həcmini azaltmayıb. Hazırda ABŞ siqaret istehsalına görə Çindən sonra dünyada ikinci yeri tutur.

Buna baxmayaraq, son illər ABŞ-da siqaret əleyhinə ciddi kampaniya başlayıb. Bu, istehsal prosesinə də öz təsirini göstərib. Hesablamalara görə, 2001-ci ildə Amerikada siqaret istehsalı əvvəlki illə müqayisədə 2 faiz azalıb və həmin tendensiya indi də davam edir. Mütəxəssislər bu azalmanı siqaretin insan orqanizminə ziyanı barədə təbliğatın gücləndirilməsi, eləcə də qiymətlərin və vergilərin artırılması, ictimai yerlərdə siqaret çəkilməsinə qoyulan qadağalarla əlaqələndirirlər. Məsələn, prezident Bill Klintonun dövründə -1993-cü ildə ABŞ-da iş yerlərində, habelə bar və restoranlarda siqaret çəkməyi qadağan edən qanun qüvvəyə minib. Düzdür, siqaret çəkənlər və restoran sahibləri bu addıma etiraz edərək, onu insan hüquqlarının pozulması kimi dəyərləndiriblər. Lakin şəhər meriyası əhalinin, o cümlədən bar və restoranlarda işləyənlərin və müştərilərin sağlamlığının mühafizəsinin bütün hüquqlardan üstün olduğunu bəyan edib. Ümumiyyətlə, indi Amerikanın bütün ştatlarında ictimai yerlərdə siqaret çəkmək qadağandır. Bu məqsəd üçün xüsusi yerlər ayrılır. Məsələn, ABŞ aeroportlarında siqaret həvəskarlarının istifadə etdiyi azsaylı otaqlarda adətən, sözün həqiqi mənasında, tüstüdən göz-gözü görmür. Elə bu cür şəraitdə siqaret çəkməyin özü antisiqaret əhval-ruhiyyəsi yaradır...

Ölkənin əksər bar və ya restoranlarında siqaret çəkməyi qadağan edən lövhələr görmək olar. Mehmanxanalarda da belə qadağa ilə rastlaşmaq adi şeydir. Siqaret həvəskarı ya gərək qabaqcadan elə otaq seçsin ki, bu problemlə üzləşməsin (təbii ki, əlavə haqq ödəmək hesabına), ya da arzusunu reallaşdırmaq üçün hər dəfə otaqdan çölə çıxsın. Çünki siqaret çəkməyin qadağan edildiyi mehmanxana otaqlarında, bir qayda olaraq, xəbərdaredici xüsusi detektorlar fəaliyyət göstərir. Qaydanı pozmağa görə isə sərt cərimə tədbirləri görülür.

Birləşmiş Ştatların ərazisində 21 yaşı tamam olmayanlara spirtli içki satmağın qadağan edilməsi barədə də qanun fəaliyyət göstərir. Ona görə də spirtli içki almaq və ya barda içki sifariş vermək istəyən gəncdən onun 21 yaşının tamam olduğunu təsdiq edən sənəd tələb etmək adi haldır. 21 yaşı tamam olmayanlara spirtli içki satılmır və belələri, bir qayda olaraq, bara və ya diskotekaya buraxılmırlar. Çünki yaşı düşməyən adama spirtli içki satmağa görə həmin iaşə müəssisəsinin sahibi fəaliyyət lisenziyasını itirə bilər. Özü də Amerikada belə sərt qərar qəbul edənlər xahiş-minnət, «axırıncı dəfə olsun» kimi üzrxahlıq-arqumentlər tanımırlar.

ABŞ-da pivə və şərab istisna olmaqla, spirtli içkilər xüsusi mağazalarda satılır. Yəni bizdəkindən fərqli olaraq, Amerikada hər addımbaşı spirtli içki almaq mümkün deyil. Ölkənin bir çox ştatlarında bazar günü spirtli içki satmaq qadağan edilib.

Avtomobili sərxoş halda idarə etməyə görə də ABŞ-da sərt cəza tətbiq olunur. Bununla belə, amerikalı sürücülər bir və ya iki şüşə pivə, yaxud bir qədər şərab içib maşın sürə bilirlər. Çünki bu ölkədə sürücünün sərxoşluq dərəcəsini müəyyən etmək üçün xüsusi qurğulardan istifadə edilir və «norma»da içki qəbulu heç bir problem yaratmır. Amma deyilənə görə, bəzi ştatların qanunvericiliyi avtomobilin salonunda spirtli içki şüşə-sini açıq saxlamağa görə də cəza nəzərdə tutur.

Bir sözlə, Amerika insan hüquqlarının yüksək səviyyədə qorunduğu ölkə olmaqla yanaşı, həm də qanunla qadağan edilən şeylərə ciddi məhdudiyyətlər qoyan dövlətdir.

## YÜKSƏK İNKİŞAF SƏVİYYƏSİNİN ÖZƏLLİKLƏRİ

Yüksək inkişaf səviyyəsi bu ölkədə insanlara əksər problemlərini evdən çıxmadan kompüter vasitəsilə həll etmək imkanı verir. Məsələn, yaşadığın şəhər kiçik olsa da, küçələrin adını əzbərləməyə, getdiyin ünvanı yadda saxlamağa ehtiyac yoxdur. Bir yana getmək istəyən amerikalı axtardığı ünvana necə getməyi öyrənmək üçün internetdən yararlana bilər. Böyük və ya kiçikliyindən asılı olmayaraq, bütün şəhərlərin xəritələri internetə qoyulub. İstənilən adam istənilən şəhərdə öz hərəkət marşrutuna dair konkret sxem çıxarıb ondan istifadə edə bilər. Həmin sxemdə hardan çıxıb hara dönmək dəqiq göstərilir. Digər şəhərlərdə ünvan tapmaq da onun kimidir: şəhərin xəritəsini tap, çıxdığın və getmək istədiyin ünvanı yaz və hazır yol sxemi götür. Bu mənada, istənilən nabələd adam Amerikada sərbəst maşın sürə bilər. Bu işdə haqqında söhbət açdığımız sxem və Amerika şoselərindəki yol nişanları hər bir sürücünün ən yaxın köməkçisinə çevrilir. Çünki bizim məmləkətdən fərqli olaraq, Amerika küçələrində azanda səhvini düzəltmək üçün məsləhət almağa adam tapmaq müşkül iş olur.
Başqa şəhərdə qalmağa yerin yoxdursa, getməzdən əvvəl mehmanxanada yer tapmalısan. Getdiyin şəhərin adı ilə internetdə mehmanxana axtarışı verirsən. Amerikada bütün sahələr kimi, mehmanxana seçimi də genişdir. Təbii ki, bu seçimdə başlıca rolu sifarişçinin maliyyə durumu oynayır. Ona görə də internetdə axtarış verərkən "bahalı", yaxud "ucuz mehmanxana" sözü də əlavə etməlisən ki, seçim zamanı çətinlik çəkməyəsən. Lap ucuz mehmanxana axtaranlar internetdə "çarpayı və səhər yeməyi" sözləri ilə axtarış verirlər. Belə mehmanxanalar ucuz olur və səhər yeməyi pulsuz verilir. Ümumiyyətlə, əksər mehmanxanalarda səhər yeməyinin haqqı ümumi ödənişə daxil olur və orada hazırlanan istənilən ərzaqdan pulsuz istifadə etməyə icazə verilir. Amma mehman-xanaların bəzilərində hətta şəhərdaxili zənglərə görə də pul ödəməli olursan. Doğrudur, ABŞ-da rabitə xidmətləri çox ucuzdur və belə ödəniş ciddi problem yaratmır (müqayisə üçün deyək ki, Amerikadan Azərbaycana zəng vurarkən telefon danışığının hər dəqiqəsinə görə biz təxminən cəmi 500 köhnə manat ödəyirdik).

Qeyd edək ki, Amerika mehmanxanalarında və ümumiyyətlə, bu ölkədə bütün elektrik avadanlıqları, bizdəkindən fərqli olaraq, 220 volt yox, 110 volt gərginliklə işləyir. Ona görə də bu ölkəyə gedərkən işlətmək üçün hər hansı elektrik avadanlığı (məsələn, üzqırxan, fen və s.) aparmağa ehtiyac yoxdur. Çünki bizim istifadə etdiyimiz avadanlıqlar orada işləmir.

Evdən çıxmadan mehmanxanada yer, yaxud təyyarəyə bilet sifariş edən şəxsin müvafiq kredit kartı olmalıdır ki, haqq-hesab apara bilsin. Ona görə də həddi-buluğa çatmış hər bir amerikalının kredit kartı var.

Elə bu səbəbdən də amerikalılar, bir qayda olaraq, üstlərində nağd pul saxlamırlar - bütün ödənişlər kredit kartı ilə həyata keçirilir. Bu, heç də o demək deyil ki, sən hardasa nağd pul verirsən və belə ödənişi qəbul etmirlər. Xeyr, nağd pul ödəmək qadağan olunmayıb. Sadəcə, ödənişi kartla həyata keçirmək mümkündürsə, nağd pul gəzdirməyə ehtiyac yoxdur. Bu, həm də təhlükəsizlik baxımından sərfəlidir. Elə bu səbəbdən də amerikalılar kiminsə cibindən 100 dollarlıq əskinas çıxarmasına təəccüblə baxırlar. Və çoxları, "bu boyda" pulu çoxdan görmədiklərini etiraf edirlər. Çünki bütün ödənişləri kartla həyata keçirən amerikalının heç "bu boyda" pulu görməsinə də lüzum qalmır.

Adətən ödənişlərin əksəriyyəti kompüter vasitəsilə həyata keçirilir və hesablamanı da maşın aparır. Ona görə də bu ölkədə, bizlərdən fərqli olaraq, şifahi hesablama praktikası geniş yayılmayıb. Məsələn, qatara bilet alarkən verdiyimiz 100 dollardan kassirin 36 dolları çıxmaq üçün nə qədər əziyyət çəkdiyini, qaytardığı qalığı neçə dəfə saydığını görəndə bu qənaətə gəldik ki, kompüter bu ölkədə hamını, yumşaq desək, tənbəlləşdirib. Yüksək inkişaf səviyyəsi bir çox adi məsələlərdə baş işlətməyi, fikirləşməyi arxa plana keçirib.

Amerikahlar müxtəlif bayramlarda və ad günlərində bir-birinə açıqca («otkrıtka») göndərməyi xoşlayırlar. Gənc nəslin nümayəndəsi olan oxuculara xatırladaq ki, belə təbrik açıqcaları yazmaq Sovet İttifaqı dağılana qədər Azərbaycanda da çox populyar idi. Amma o vaxt bizdə təbrik edən adam bu açıq məktuba öz mübarək xətti ilə ürəyindən keçən xoş sözləri və arzuları köçürürdü. Amma Amerikada kimisə təbrik etmək üçün oturub xoş sözlər fikirləşməyə ehtiyac yoxdur. Artıq bu sözləri hamının əvəzinə hansısa şirkət çoxdan fikirləşib və səliqə ilə açıqcaya köçürüb. Sən açıqcanı alıb yalnız təbrik etmək istədiyin adamın adını yazırsan və göndərirsən.

Özü də bütün bayramlar üçün hazır açıqcalar satılır. İstəyirsən gənc qızı ad günü, istəyirsən Milad bayramı münasibətilə təbrik elə, istəyirsən də veteran babanı pensiyaya çıxması münasibətilə. Bütün mövzular və bütün kateqoriyadan olan insanlar üçün mətnlər hazırdır. Mağazalarda açıqcalar elə bu kateqoriyalar üzrə qruplaşdırılıb - «valideyn», «qardaş», «bacı», yaxud «Valentin günü», «Milad bayramı» və s.

Amerikalılar belə «xırda» şeylərdən ötrü baş sındırmağı çoxdan tərgidiblər. Amma əvəzində bir ənənəyə sadiqdirlər - hər gün çimir, həftədə bir dəfə bazarlıq edirlər. Hətta bu barədə maraqlı lətifələri də var. Məğzi belədir: amerikalılar hər gün çimir, həftədə bir dəfə bazarlıq edirlər; avropalılar isə eyni işi tərsinə görürlər - hər gün bazarlıq edir, həftədə bir dəfə çimirlər...

Düzdür, indi amerikalılar bu lətifənin köhnəldiyini etiraf edir və deyirlər ki, daha avropalılar da həftədə bir dəfə bazarlıq etməyə və hər gün çimməyə başlayıblar. Bununla belə, hər şeydə hesablama aparan amerikalıların qənaətinə görə, bu ölkədə hər gün çimmək üçün 25 milyon litr su sərf edilir. Başqa bir hesablamaya görə, orta statistik amerikalı duş qəbul etmək üçün gündə 56 litr sudan istifadə edir və bu məşğuliyyətə orta hesabla 10,4 dəqiqə vaxt itirir...

Bazarlıq işində isə amerikalılar olduqca səbirlidirlər. Onlar ərzaq bazarlığını adətən həftəlik edirlər. Bu cür bazarlıq həm rahatlıq mənasında, həm də qənaət mənasında sərfəlidir. Çünki bu ölkənin, demək olar ki, bütün mağazalarında bir maldan çox götürəndə xeyli güzəşt tətbiq edilir. Məsələn, 0,33 litrlik bir şüşə pivə 1 dollaradırsa, bir bağlama (6 şüşə) pivəyə 4 dollar ödəmək olar.

Amerikada ərzaq mallarının qiyməti heç də bizim təsəvvür etdiyimiz qədər baha deyil. Məsələn, ət məhsulları Bakıdakı qiymətlərə yaxındır. Bir toyuğa təxminən 3 dollar ödəyirsən, «hinduşka» əti isə daha ucuzdur.

Amerikalılar yemək zamanı çörəkdən bizim kimi və bizim qədər istifadə etmirlər. Ərzaq mağazalarında satılan çörək məhsulları, bir qayda olaraq, şirin un məmulatı olur. Ona görə də bəzi restoranlarda yemək sifariş verərkən, süfrəyə çörək əvəzinə «pirojna» gətirilməsinə təəccüb etməməlisən.

Bu mənada, Şimali Karolina ştatında çörək ticarəti ilə məşğul olan İsveçrə mühaciri Tomas Buhlerin söhbəti marağımıza səbəb oldu. O dedi ki, amerikalılar tamamilə yumşaq çörək xoşlayırlar. Həm də onlar çörəyi, avropalılar kimi, ayrıca bir ərzaq məhsulu deyil, yemək rasionuna daxil olan təamların ətin, pendirin, qızardılmış kartofun əlavəsi sayırlar, çörəkdənsə, başqa ərzaq məhsulları almağa üstünlük verirlər.

Elə bu səbəbdən də ABŞ-da bizim istifadə etdiyimiz çörəyə mağazalarda az-az rast gəlmək olur və belə çörək nisbətən baha satılır. Məsələn, 400 qramlıq kömbəyə görə 3 dollara qədər pul ödəməlisən.

Bununla belə, ərzaq mağazalarında satılan malların çeşidi təsəvvürə gəlməz dərəcədə rəngarəng olur. Statistik hesab-lamalara görə, ABŞ mağazalarında 800 növ içməli su satılır. Digər məhsullar da belədir. Məsələn, pendir almaq istəyən alıcı sözün əsl mənasında 100 növün içindən seçim edə bilər. Təbii ki, bu seçimdə maliyyə durumu əsas amil rolunu oynayır: pulun çoxdursa, daha bahalı və daha keyfiyyətli mal ala bilərsən. Kasıblar isə, hər yerdə olduğu kimi, burada da ucuz malla kifayətlənirlər.

Amerikanın hər yerində «dollar» adı ilə bağlı mağazalar var. «Dollar Tree» («Dollar ağacı»), «Dollar Zone» («Dollar zonası»), «Dollar Family» («Dollar ailəsi») və s. adlanan bu ticarət obyektləri bizim adət etdiyimiz min cür xırdavat mağazalarıdır. Belə mağazaların əksəriyyətində hər şey 1 dollara satılır. Bəzən 2 və ya 3 əşyanı da bir dollara almaq olar. Bir sözlə, ucuz mal almaq istəyənlər belə mağazalara üz tuturlar.

Amerikalılar «Dollar...» mağazalarından adətən bayram günlərində, hədiyyə almaq üçün daha

çox istifadə edirlər. Məsələn, Milad bayramı ərəfəsində belə mağazalarda uzun növbələr yaranır. Çünki amerikalılar bayramlarda bir-birinə hədiyyə verməyi xoşlayırlar. Bu məsələdə isə hədiyyənin qiyməti yox, diqqətcillik üstün tutulur.

Müvəqqəti sakini olduğumuz Şimali Karolina ştatı Amerikanın cənub-şərqində yerləşir və ölkənin bu regionu mülayim təbiəti ilə fərqlənir. Doğrudur, bu ştat son bir neçə ildə Atlantik okeanından gələn hava siklonlarının yaratdığı tufanlarla yadda qalıb. Və bu tufanlar bir neçə dəfə insan tələfatı ilə nəticələnib. Təbiətin belə qeyri-adi sınaqlarını nəzərə almasaq, yerli əhalinin sözlərinə görə, Şimali Karolinada demək olar ki, soyuq olmur. Hətta bu regionda qar da neçə ildə bir dəfə yağır. 2004-cü il isə, deyəsən, istisnalar ili idi. Yanvar ayında ikinci dəfə Şimali Karolinaya qar yağdı. Amma buna baxmayaraq, burada yaşayanlar təbiətlə, necə deyərlər, zarafat eləməyi xoşlamırlar. Əgər hidrometeoroloqlar havanın pisləşəcəyini elan edirlərsə, işlərini qabaqcadan planlaşdırmağı sevən amerikalılar bütün görüş və tədbirləri təxirə salırlar.

Amma biz orada olanda bir bazar günü yağan qar çoxlarının planlarını alt-üst elədi. Amerika Türk İcmasının Şimali Karolina üzrə qurumunun iclası da hələ qar yağmazdan əvvəl təxirə salınmışdı. Tədbirə bir neçə gün qalmış bütün dəvətlilərə elektron poçt vasitəsilə xəbər göndərilmişdi ki, havaların pisləşəcəyi ilə əlaqədar iclas təxirə salınır. Doğurdan da isti və günəşli iş günlərinin ardınca bazar günü bizim adət etdiyimiz adi qar yağmağa başladı, axşama yaxın yerdə 5-6 santimetr hündürlüyündə qar qaldı və hidrometeoroloqlar gecə yolların buz bağlayacağını vəd etdilər.

Əslində, bizlərdə yağan qarla, şaxtayla müqayisədə bu, elə də təhlükəli vəziyyət demək deyildi. Sən demə, amerikalılar, daha doğrusu, Amerikanın cənubunda yaşayanlar üçün bu, «qorxulu hava şəraiti» sayılırmış. Çünki hidrometeoroloqların bu xəbərdarlığından yarım saat sonra yerli televiziya kanallarının ekranlarındakı «qaçan reklam sətirləri»ndə sabah bağlı olacaq idarə və müəssisələrin siyahısı nümayiş olunmağa başladı. «Şərqi Karolina Universiteti bazar ertəsi işləməyəcək», «Bütün orta məktəblər bağlıdır», «Şəhər məhkəməsi günortadan sonra işləyəcək», «Filan küçələrə qum səpilməsinə baxmayaraq, avtomobillərin hərəkəti üçün təhlükəlidir» və s. Əlavə məlumat almaq istəyənlərə isə internet ünvanı verilirdi ki, istədiyi məlumatı dəqiqləşdirsin.

Bu canfəşanlıq Amerika və amerikalıların adət elədiyi adi bir mənzərə idi. Bizi isə tamam başqa suallar «narahat edirdi»: həmin bazar axşamı yağan qarın donacağını görən universitet və orta məktəb rəhbərləri bu qərarlarını görəsən, «nazirliklə» razılaşdıra bilmişdilərmi? Şəhər məhkəməsinin rəhbərliyi günortaya qədər işləməyəcəyi barədə Ali Məhkəməyə, yaxud Ədliyyə Nazirliyinə xəbər vermişdimi?

Təbii ki, yox! Əgər bu icazələr alınmağa başlasaydı, yəqin ki, cavabı qar əriyəndən sonra məlum olacaqdı. Sadəcə, Amerikada belə icazələr almağa ehtiyac yoxdur. Bu məmləkətdə idarəetmə o qədər sadələşdirilib ki, hər hansı bir addımı atmaq üçün «yuxarılarla» razılaşdırmaq lazım gəlmir. Problem yerli səviyyədə - «aşağılarda» həll olunur. Universitet bir gün bağlanır və başqa bir istirahət günü onun əvəzinə işini davam etdirir. Orta məktəblər də onun kimi (doğrudan da, burada müəllim bir bu və ya digər səbəbdən dərsə gələ bilməyəndə, həmin dərsi istirahət günü hesabına da olsa keçir). Bunun «təhsil naziri»nə və ya «şəhər icra hakimiyyəti başçısına» nə dəxli var? Bu məsələ, deyək ki, universitetin öz səlahiyyətinə aid olan məsələdir. Uiniversitet rəhbərliyi isə tələbə və müəllimlərin rahatlığını düşünür.

Bütün bunlar barəsində televiziya vasitəsilə xəbər vermək də insanların rahatlığına xidmət edir. Tələbə də, müəllim də, məhkəməyə şikayəti olan adam da axşamdan bilir ki, sabahdan çıxmamaq olar.

Görünür, hər addımda belə diqqət və qayğı gördükləri üçün amerikalılar özlərini xoşbəxt ölkənin vətəndaşları hesab edirlər. Təbii ki, amerikalıların xoşbəxtliyi barədə fikir bizim şəxsi müşahidəmizin nəticəsi deyil. Bu mövzuda hər il ABŞ-da xüsusi sorğular keçirilir.

«Nyu-York tayms» qəzetinin yazdığına görə, «Qellap» sorğu şirkətinin 2003-cü ilin sonlarında keçirdiyi sorğu göstərib ki, ABŞ sakinlərinin əksəriyyəti özlərini xoşbəxt hesab edirlər. Reyi soruşulanların 55 faizi «çox xoşbəxt», 40 faizi «kifayət qədər xoşbəxt» olduqlarını bildiriblər.

Mütəxəssislərin qənaətinə görə, belə sorğunun birinci dəfə keçirildiyi 1956-cı ildən

indiyədək ABŞ-da «xoşbəxtlik dərəcəsi» ilk dəfə belə yüksək səviyyəyə çatıb.

Amerikalıların xoşbəxtlik deyəndə nəyi nəzərdə tutduqlarını söyləmək çətindir. Çünki bu ölkədə də heç də hamı «yağ içində böyrək kimi» yaşamır. ABŞ-da da işsizlikdən, maaşın azlığından, evsizlikdən giley-güzar edən kifayət qədər adam var. Amma bütün bu adamların hamısı dünyanın ən qüdrətli dövlətində yaşadıqları ilə fəxr edirlər.

Deyilənə görə, amerikalıların «xoşbəxtlik səviyyəsi»nin yüksəlməsində 2003-cü ilin axırlarında Səddam Hüseynin həbsinin də rolu olub. Çünki belə siyasi məsələlər insanların əhval-ruhiyyəsinə təsirsiz qalmır. Təsadüfi deyil ki, bu ölkədə əhalinin «xoşbəxtlik səviyyəsi»nin ən aşağı həddi 2001-ci ilin noyabrında - Nyu-York və Vaşinqtonda terror aktları törədiləndən sonra qeydə alınıb. Həmin vaxt ABŞ sakinlərinin yalnız 37 faizi özlərini xoşbəxt hiss etdiklərini bildiriblər.

Nə qədər qəribə də olsa, bu ölkənin sakinlərinin az qala hər addımda rastlaşdıqları bürokratik «sorğu-suallar» onların «xoşbəxtlik səviyyəsi»ni aşağı salmır. Söhbət hansı bürokratiyadan gedir?

ABŞ demokratik dəyərlər ölkəsi olmaqla yanaşı, həm də ilk baxışda bürokratik görünən «təlimatlar» diyarıdır. Birləşmiş Ştatlarda anket-məlumat blankı dolduranda, adi bir alqı-satqı müqaviləsi tərtib edəndə, bir sözlə, az qala hər addımda kənar adama mənasız və gülməli görünən çoxlu suallara cavab tələb edilir. Və bu tələblər ABŞ-ın demokratik imicinə qətiyyən xələl gətirmir.

Viza almaq üçün ABŞ səfirliyinə müraciət zamanı doldurulan anketlərin birində belə sual da qoyulur. «Nə vaxtsa ABŞ-ın terrorçu təşkilat kimi tanıdığı qurumların üzvü olmusunuzmu?»

Mağazadan kompüter alırsan. Hansısa alqı-satqı müqaviləsi hazırlanır və orada da bizim üçün qəribə səslənən sual qoyulur: «Kompüterdən kütləvi qırğın silahının istehsalı üçün istifadə etmək fikriniz yoxdur ki?»

Bütün bunlar nədir? Amerika məmurlarının özlərini işgüzar göstərmək cəhdi, yoxsa «kağız bürokratiyası»na aludəçilik?

Qətiyyən! Amerika anket-məlumat vərəqələrində bu cür «mənasız» sualların çoxluğu təsadüfi və ya sadəcə, bir bürokratiya nümunəsi deyil. Amerikada güclü və müstəqil məhkəmə sistemi fəaliyyət göstərir və bizim üçün mənasız görünən bu suallar insanları gələcək məhkəmə çəkişmələrindən və cərimələrdən xilas etmək üçündür. Çünki bu məmləkətdə ayrı-ayrı vətəndaşlar və ya ictimai təşkilatlar tez-tez məhkəməyə müraciət edirlər. Məsələn, tutaq ki, filan firmadan kompüter alan vətəndaş ondan silah istehsalında istifadə edir. Sonradan məsələ məhkəmə səviyyəsinə qalxanda həmin vətəndaşın vəkili kompüter satan firmaya qarşı iddia qaldıra bilər ki, firma vətəndaşı vaxtında xəbərdar etməyib. Məhkəmə bu iddiaya baxıb firma barəsində sərt qərar qəbul edə bilər. Ona görə də firma, necə deyərlər, işini ehtiyatlı tutur...

## AMERİKANIN YOLLARI

Amerikanın avtomobil yollarını ideal saymaq olar. Xatırladaq ki, hətta vaxtilə bu ölkəyə səfər qeydlərini yazan sovet jurnalistləri də ABŞ həyatından müsbət şeylər «tapa bilməyəndə», heç olmasa yolların keyfiyyətini etiraf etməli olurdular. Ötən əsrin 70-ci illərində məşhur sovet jurnalistləri Vasili Peskovla Boris Strelnikovun ABŞ-a birgə ekspedisiya çərçivəsində yazdıqları yol qeydlərinin leytmotivini təxminən belə bir cümlə təşkil edirdi: «ABŞ-da mövcud olan ən yaxşı şey elə yollardır...».

Təbii ki, o müəlliflər də bilirdilər ki, ABŞ-da yalnız yollar yaxşı deyil. Sadəcə, o dövrdə belə yazmağa məcbur idilər.

Bununla belə, Avropanı gəzənlərin qənaətinə görə, məsələn, Amerikanın yolları keyfiyyətcə Almaniya yollarından geri qalır. Buna baxmayaraq, fikrimizcə, amerikalı sürücülərin şikayətlənmək üçün əsası yoxdur. Maraqlıdır ki, ABŞ-da şəhərlərarası şoselərdə əsas yola çıxan ikinci dərəcəli yollar, bir qayda olaraq, perpendikulyar birləşmir. Ona görə də ikinci yoldan baş yola çıxan sürücünün gözləməsinə ehtiyac qalmır. Belə sürücülər əsas yolda onun üçün nəzərdə tutulan xəttə çıxır və necə deyərlər, ümumi axma qoşulurlar. Bu isə təhlükəsizlik baxımından çox əhəmiyyətlidir.

Bir də Amerikada «kənd yolu», «dağ yolu» kimi məfhumlar yoxdur. Ölkənin hər yerində yollar eyni qaydada səliqəlidir, hər yerdə yol hərəkətini tənzimləyən nişanlar asılıb, işıqforlar normal işləyir.

Amerika yollarında bizim adət etdiyimiz yol polisi postları yoxdur. Ara-sıra yollarda görünən polislər də sürücünü, sadəcə olaraq, sənəd yoxlamaq üçün heç vaxt saxlamırlar. Maşını əylədib sənəd yoxlamaq üçün ciddi əsas olmalıdır. Amerikalı sürücülər üçün təlimatda göstərilir ki, hərəkət zamanı sürücü ətrafdakıların hamısının qaydalara əməl etmədiyini nəzərə almalı, hər cür gözlənilməz vəziyyətə hazır olmalıdır. Bir növ sürücüyə öyrədirlər ki, bütün maşın sürənlər dəli və axmaqlardır, özünü onlardan qorumalısan. Hər halda maraqlı «tərbiyə» üsuludur. Amerikada yol hərəkəti qaydasının ən ciddi pozuntusu yüksək sürət, işıqforun qırmızı işığında keçmək, «Təcili yardım» maşınına yol verməmək sayılır.

ABŞ-da yol hərəkəti qaydasını pozmağa görə hadisə yerində cərimə ödəmək praktikası yoxdur. Polis əməkdaşı qaydanı pozan sürücüyə onun yol verdiyi pozuntunun yazıldığı standart blank təqdim edir. Bu, bir növ bizim öyrəşdiyimiz protokoldur. Amma «protokol»u doldurmamaq üçün polis əməkdaşına pul təklif etmək cinayət sayılır və sürücünün polis şöbəsinə aparılmasına səbəb olur. Həmin blankda sürücünün yol verdiyi pozuntu və yerli məhkəməyə gəlmək vaxtı göstərilir. Sürücüyə cəzanı məhkəmə təyin edir. Qeyd olunmuş pozuntuya görə nəzərdə tutulan cəriməni ödəməyə hazır olduğu barədə məhkəməyə xəbərdarlıq edənlər məhkəmə zalına getməyə də bilər.

Adətən yol hərəkəti qaydalarını pozmağa görə məhkəmə ya cərimə təyin edir, ya da cərimə xalları hesablayır. Cərimə xalı almaq daha ağır cəza növü sayılır. Çünki sığorta şirkəti cərimə xalı çox olan sürücünü ehtiyatsız hesab edir və növbəti il üçün sığorta haqqını artırır.

Amerikada yol hərəkəti qaydasını pozmağa görə bir çox hallarda cərimə xalı hesablanır. Məsələn, Nyu-Cersi ştatında sürəti saatda 30 mil artırmağa görə 5 cərimə xalı yazılır. Sürəti 15 mil artırmağa və ya icazə verilməyən tərəfə dönməyə görə 2 cərimə xalı düşür. Əgər sürücü iki il ərzində 12 cərimə xalı yığıbsa, xəbərdarlıq alır, əgər bu xallar 15-dən çox olubsa, müəyyən müddətə sürücülük vəsiqəsindən məhrum edilir.

Cərimə xalları toplanmış adam növbəti bir il ərzində heç bir qayda pozuntusuna yol verməyibsə, onda əvvəlki cərimə xallarından 3-ü silinir.

Qeyd edək ki, sürücü ilə birlikdə onu saxlayıb cəzalandıran polis işçisi də məhkəməyə gəlir və sürücünü haqlı cəzalandırdığını sübut etməli olur.

Əgər polis saxlayırsa, sürücü maşından düşməməlidir. Bu zaman sərt hərəkət etmək polis əməkdaşını şübhələndirə bilər. Polis əməkdaşı maşına yaxınlaşarkən sürücünün əlləri ya sükanda, ya da dizlərinin üstündə olmalıdır. Sürücülük vəsiqəsi tələb olunmayınca, sənəd təqdim etməyə ehtiyac yoxdur.

Bizim müşahidələrimizə görə, amerikalılar yol hərəkəti qaydalarına ciddi əməl edirlər. Amma

Amerika Avtomobil Assosiasiyasının 2003-cü ildə sürücülər arasında keçirdiyi rəy sorğusu amerikalıların maşını yaxşı idarə etmədiklərini sübut edib. Sorğunun nəticələrinə görə, yaşmdan asılı olmayaraq, bu ölkədə sürücülərin 91 faizi ən azı bir dəfə yol hərəkəti qaydasını pozub. Sorğuda iştirak edənlərin 73 faizi etiraf edib ki, yollarda sürətin məhdudlaşdırıldığını göstərən nişana əhəmiyyət vermədən sürəti artırırlar.

Rəyi soruşulanların 59 faizi sükan arxasında yemək yediyini, *M* faizi mobil telefonla danışdığını, 14 faizi isə hətta qəzet oxuduğunu (!) etiraf edib. Təbii ki, söhbət sükan arxasında oturub sözün əsl mənasında qəzet oxumaqdan yox, sadəcə işıqforun önündə dayanarkən və s. hallarda qəzetdəki hansısa şəklə, yaxud elana baxmaqla fikrin yayınmasından gedir.

# TOXLUQDAN... ƏZİYYƏT ÇƏKƏNLƏRİN VƏTƏNİ

2004-cü il yanvarın 5-də ABŞ-ın səhiyyə naziri Tommi Tompson ABŞ hökuməti adından ölkə əhalisinə maraqlı bir müraciət etmişdi. Kütləvi informasiya vasitələri nazirin bu müraciətinin məğzini qısaca belə ümumiləşdirmişdilər: «Tərəziyə çıx, Amerika!».

Bu cümlə jurnalistlərin növbəti fantaziyasının məhsulu olmayıb, nazirin müraciətinin mahiyyətini əks etdirirdi. Çünki səhiyyə naziri ölkə əhalisindən xahiş edirdi ki, artıq çəki ilə mübarizə kampaniyası çərçivəsində, ilk addım kimi, yanvarın 10-da harrn özünü tərəzidə çəkdirsin və əlavə çəkisi barədə bir daha fıkirləşsin.

Aparıcı Amerika televiziya kanallarının reklam çarxında çıxış edən səhiyyə naziri ölkə vətəndaşlarını əlavə çəki ilə mübarizə kampaniyası çərçivəsində keçirilən tədbirlərə fəal qoşulmağa çağırırdı.

ABŞ hökumətinin narahatlığı başadüşüləndir. Çünki bu ölkədə adamların piylənmə dərəcəsi təhlükəli həddə çatıb. Qəribədir ki, dünyanın bir çox dövlətlərində insanlar aclıqdan, Amerikada isə toxluqdan əziyyət çəkirlər.

Tommi Tompson hesab edirdi ki, hər bir amerikalı öz çəkisini bir daha xatırlamaqla, ölkədə epidemiya həddinə çatmış bu xəstəliyin mahiyyətini və miqyasını anlamahdır.

Amerika həkimlərinin hesablamalarına görə, bu ölkədə artıq çəki uşaq və yeniyetmələr arasında daha təhlükəli tendensiyaya çevrilib: gənc amerikalıların 15-20 faizi piylənmədən əziyyət çəkir.

ABŞ-m nüfuzlu «Pedietriks» jurnalı bu sahədə uşaq və yeniyetmələr arasında aparılmış ümummilli tədqiqatın nəticələrini dərc etmişdi. Harvard Universitetinin tibb fakültəsində çalışan bir qrup alimin apardığı tədqiqat uşaqlarda vaxtından əvvəl piylənmənin təhlükəli miqyas aldığını göstərib və alimlər bunun düzgün qidalanmamaqla birbaşa əlaqəli olduğunu sübut ediblər.

Bəs amerikalılar niyə düzgün qidalanmırlar? Necə deyərlər, bu adamların nəyi çatışmır?

Qeyd etmək yerinə düşər ki, ABŞ-da adamlar yemək vaxtını ötürməyi xoşlamırlar. Heç bir vacib tədbir amerikalının «lanç»ını arxa plana keçirə bilməz. Həm də amerikalılar çox yeyirlər. Kafe və restoranlarda verilən yeməyin bir payı bizdə iki adama kifayət edəcək qədər olur. Deməli, düzgün qidalanmamaq deyəndə bu ölkədə həm də çox yemək problemi nəzərdə tutulur. ABŞ-da adamların piylənməsinin bir səbəbi çox yeməkdir.

Piylənməyə gətirib çıxaran səbəblərdən biri kimi amerikalıların «oturaq» həyat tərzinə üstünlük verməsini də unutmaq olmaz. «Oturaq» həyat tərzi dedikdə, biz avtomobildən istifadəni nəzərdə tuturuq. Adama elə gəlir ki, sanki bütün Amerika əhli daim maşında gəzir. Evdən işə, işdən evə, mağazaya, konsertə - hər yerə amerikalılar maşınla gedirlər. İctimai nəqliyyatdan istifadə edənlər və deməli, heç olmasa, avtobus dayanacağına qədər piyada gedənlər çox azdır. Bankdan pul götürmək lazımdır, maşını yol kənarındakı bankomata yaxınlaşdır və maşından düşmədən pul çıxar. Nahar eləmək istəyirsən, yaxınlaş «Makdonalds»a, elə maşındaca qulluq edəcəklər. Aptekdən dərman alırsansa, yenə də maşından düşməyə bilərsən - aptekin müvafıq pəncərəsinə yaxınlaşıb sifarişini səsgücləndirici ilə verirsən, sonra digər pəncərəyə yaxınlaşıb dərmanı götürürsən. Hətta poçta məktub atmaq üçün maşından düşüb poçt idarəsinə və ya poçt qutusunun yanına qədər piyada getməyə ehtiyac yoxdur: poçt qutusu maşın yoluna qoyulub, sənə ancaq maşının əyləcini basıb zərfı qutuya atmaq qalır...

Amerikalılar oturaq həyata o qədər aludə olublar ki, deyilənə görə, Las-Veqas şəhərində toy nikahmı rəsmiləşdirərkən gənclərə sənədləri maşından düşmədən, daha doğrusu, elə maşındaca imzalamaq hüququ verilir.

Təbii ki, bütün bunlar amerikalıların gündəlik həyat tərzinin avtomatlaşdırılmasından xəbər verir. Bununla belə, bu həyat tərzi və hərəkətsizlik ölkədə insanların həddindən artıq piylənməsinə səbəb olur. Bir çox amerikalılar hətta xəstəlik dərəcəsinə qədər kökəlir və buna görə əlillik dərəcəsi alır, yaxud cərrahi müdaxilədən istifadə edirlər. Doğrudur, Amerikada hər

addımbaşı nəhəng və ən müasir avadanlıqlarla təchiz olunmuş idman-sağlamlıq kompleksləri ilə rastlaşırsan. Amma görünür, oturaq həyata alışan amerikalıların heç də hamısı bu komplekslərdən istifadəyə üstünlük vermir.

Yerli sakinlərin etirafına görə, ABŞ-da əhalinin kökəlməsinin bir səbəbi də çoxlu maye qəbul etməklə əlaqədardır. Amerikalılar hesab edirlər ki, hər bir insan gündə çoxlu maye qəbul etməlidir. Və onlar bunun sağlamlıq üçün, xüsusən, böyrəklərin təmizlənməsi üçün vacib olduğunu bildirirlər. Dediklərinə görə, maye bədəni artıq çöküntülərdən təmizləyir. Ona görə də hər addımbaşı - küçədə, ofisdə, dərsdə, kitabxanada, sükan arxasında, bir sözlə, hər yerdə əlində bu və ya digər maye doldurulmuş plastik qab tutan amerikalı görmək təəccüblü sayılmır. Amerika maşınlarının, demək olar ki, hamısında sürücülərin mayeyə tələbatını ödəməsi və rahatlığı üçün plastik stəkan və şüşə yerləşən xüsusi oyuqlar düzəldilir.

Məlumdur ki, amerikalılar maye qəbulu zamanı «Kola»ya üstünlük verirlər. Kolanın tərkibində isə şəkər və bir sıra konsentrantlar var ki, bu da insanın kökəlməsinə səbəb olur.

4 yaşdan 19 yaşa qədər 6 min nəfərdən çox amerikalının qida rasionunu öyrənən tədqiqatçıların qənaətinə görə, rəyi soruşulanların hər üç nəfərindən biri hər gün «Makdonalds» tipli ayaqüstü yemək müəssisələrinə gedir. Mütəxəssislərin fikrincə, meyvə-tərəvəz yeməyərək, hamburger, qızardılmış kartof və qazlı şirin maye qəbuluna üstünlük verənlər hər il orta hesabla 3 kiloqram artıq çəki «qazanırlar».

Belə statistik məlumatlardan narahat olan Amerika Pediatriya Akademiyası kola və limonad tipli alkoqolsuz içkilərin məktəblərdə satılmasının tamamilə qadağan olunmasını təklif edib. Akademiyanın yaydığı rəsmi bəyanatında deyilir ki, bu içkilərin qəbulu piylənməyə gətirib çıxarır. İndi Amerika məktəblilərinin 15 faizi (bu isə 9 milyon nəfər deməkdir) piylənmənin ağır formasından əziyyət çəkir. Onların sayı 1980 - cı illə müqayisədə iki dəfə artıb. Hesablamalara görə, məktəblilərin 65-85 faizi gündə ən azı bir şüşə limonad içirlər. 1970-ci ildən 2003-cü ilə qədər isə ayaqüstü qida sənayesi Biehsullarının istehlak səviyyəsi ABŞ-da 5 dəfə artıb.

Bütün bunlarla yanaşı əhalinin kökəlməsinə gətirib çıxaran səbəblərdən biri də insanların qida əvəzləyicisi və s. kimi müxtəlif vitaminlər qəbul etməsi sayılır. Məsələn, evində kinayədə qaldığımız Syuzan hər gün üstündə sadəcə «50 yaşdan yuxarı qadınlar üçün» sözləri yazılmış xüsusi vitaminlər atmağa vərdiş etmişdi...

ABŞ Səhiyyə Nazirliyinin yaydığı statistik məlumatlarda deyilir ki, ölkə əhalisinin 190 milyonu və ya üçdə ikisi əlavə çekinin sağlamlıq üçün yaratdığı problemlərdən əziyyət çəkir.

## DƏRS SAATI

Qeyd edək ki, Amerika təhsil sistemi də bizdəkindən çox fərqlənir. Əvvəlcə orta məktəbdə gördüklərimiz barədə söhbət açmaq istəyirik.

Amerikada şagirdlər dərsə məktəb avtobusu ilə gəlirlər. Özəl, yaxud dövlətə məxsusluğundan asılı olmayaraq, bütün məktəblərin xüsusi rənglə seçilən avtobusları var. Bu avtobuslar hər səhər şagirdləri, necə deyərlər, qapı-qapı yığır, dərsdən sonra isə yenidən evlərinə qaytarır.

Məktəbə şəxsi avtomobildə gəlməyə də qadağa qoyulmur. Bu, valideynin istəyindən və imkanından asılıdır. Əgər valideynin vaxtı və həvəsi varsa, uşağını öz maşınında gətirə bilər.

Avtobuslar, bir qayda olaraq, məktəbin ön giriş qapısında dayanır. Şəxsi maşınlar isə arxa qapıda. Bu, ayrı-seçkiliklə bağlı deyil, maşınların bir-birinə mane olmaması üçündür.

İstər avtobus, istərsə də fərdi maşın sürücüləri bir-birini tələsdirmirlər. Uşaq maşından sərbəst düşənədək onu gözləyirlər. Ümumiyyətlə, Amerikada sürücülər olduqca səbirlidirlər. Bu ölkədə maşınların siqnal səsini çox nadir hallarda eşidərsən.

Amerikada orta təhsil almaq üçün 12 il oxumaq lazımdır.

Biz Qrinvill şəhərindəki ibtidai məktəblərdən birinin işi ilə yaxından tanış olmaq imkanı qazandıq. Məktəbin direktoru İzabel Uikə bildirdi ki, məktəbdə 485 uşaq təhsil alır. Onun sözlərinə görə, şagirdlərin əksəriyyəti qaradərili amerikalılar, qalan 25 faizi isə digər irqlərin nümayəndələridir. Məktəbdə ətraf küçələrin sakini olan uşaqlar təhsil alır.

Qeyd edək ki, bu məktəb özəl yox, dövlət tərəfindən maliyyələşdirilən ictimai təhsil ocağıdır. Ona görə də burada təhsil pulsuzdur. Həm də bu məktəbdə nisbətən kasıb təbəqəyə aid insanların uşaqları oxuyurdu.

Uşaqların bir hissəsi səhər məktəbə gələn kimi elə avtobusdan birbaşa yeməkxanaya yollanır. Çünki onlara burada səhər yeməyi verilir.

Direktor bizimlə söhbət zamanı dedi ki, uşağın məktəbdə qidalanması məsələsi valideynin istəyi ilə bağlıdır. Bəzi valideynlər uşağın çantasına yeməyə nəsə qoyurlar. Bəziləri isə müraciət edir ki, uşaq məktəbdə yesin. Əgər valideynin səhərlər uşağı yedirtməyə vaxtı yoxdursa, yeməklə bağlı məktəbdə müvafiq sənəd doldurmalıdır. Bu sənədə əsasən, valideynin imkanları öyrənilir. Əgər onun imkanları zəif, əməkhaqqı azdırsa, uşaq məktəbdə pulsuz qidalana bilər. Əgər valideynin əmək haqqı yüksəkdirsə, onda uşağının yeməyi üçün məktəbə müəyyən miqdarda pul ödəməlidir.

Direktorun dediyinə görə, məktəbə yemək haqqı kimi ödənilən pul çox deyil - hər uşağın gündəlik yemək haqqı təxminən 2 dollara yaxındır. Amerika miqyasında isə bu rəqəmi qəpik-quruş saymaq olar.

Direktorun otağında və bütün siniflərdə televizor qoyulub. Məktəbdə televiziya şəbəkəsi fəaliyyət göstərir. Direktor televiziya vasitəsilə siniflərdə nə baş verdiyini müşahidə eləyə bilər.

Səhərlər dərs başlayan kimi direktor televiziya vasitəsi ilə məktəbə müraciət edir, müəllim və uşaqları salamlayır. Sonra iki şagird Amerika tarixinin bu günü ilə bağlı ən mühüm faktları sadalayır. Bu gün dünyaya gəlmiş məşhur adamların adını xatırladır.

Bütün bunlar başa çatandan sonra direktor məktəb kollektivini Amerikanın dövlət bayrağına sədaqət andı içməyə ;ağırır. İngilis dilində cəmi 31 sözdən ibarət andm təxmini mətni belədir: «Mən Allahın altındakı bir millət üçün - hamımız üçün bölünməzliyin, azad və ədalətin rəmzi olan Amerika Birləşmiş Ştatlarının bayrağına sədaqət andı içirəm».

Bayrağa and içilərkən müəllim və uşaqlar əlini ürəyinin üstünə qoyaraq sinifdə asılmış bayrağa tərəf düzlənir və mətni oxuyurlar. Ona görə də bütün siniflərdə Amerikanın bayrağı asılır. Qeyd edək ki, bu ənənə təkcə uşaqlar üçün deyil. Böyüklər də ayrı-ayrı tədbirlərdə bayrağa sədaqət andı içirlər.

Biz musiqi dərsi keçilən sinifdə də olduq. Müəllim musiqi mətnini əzbərlətmir. Həmin mətnin çoxaldılmış surəti hər bir uşağa verilir və onlar mahnını kağızdan oxuyurlar. Ümumiyyətlə, Amerikanın istər orta, istərsə də ali məktəblərində heç bir mətni əzbərlətmirlər.

Bu məsələ ilə bağlı Şərqi Karolina Universitetinin müəllimi Brus Saauzardm dedikləri marağımıza səbəb oldu:

- Mən cavanlığımda Filippində müəllim işləmişəm. Təhsil fərqini orda görmüşəm ki, bu ölkədə şagird və tələbələrə hər şeyi əzbərlədirlər. Uşaq kitabı qabağıma qoyurdu və sonra verilən mətni əzbər, sitat kimi danışırdı. Amerikada mətni əzbərləmək lazım deyil. Mətnə analitik yanaşma lazımdır. Biz problemə analitik yanaşmağı, problemin təhlilini verməyi öyrədirik.

Onun sözlərinə görə, Amerika təhsil sistemində azadlıq var, sərbəstlik var. Başqa ölkələrdə müəyyən fənlər var, kurs var, hamı həmin kursu öyrənir. Amma Amerikada tələbə öyrənmək üçün istənilən fənni seçməkdə azaddır.

Amerikada valideyn və uşaqların dərsə münasibəti barədə musiqi müəllimi, həmvətənimiz Rəna Məmmədlinin dedikləri də maraqlıdır:

- Amerikalılar bizdəki kimi uşaqları dərslərlə yormurlar. Müəllimlərdən də bu, tələb olunur. Ona görə də amerikalı uşaqlar hər şeydə bir əyləncə axtarır, həmişə əylənirlər. Birinci dəfə eşidəndə mənə təəccüblü gəldi ki, valideyn uşağı dərsdən evə aparanda ona ilk sualı belə olur: «Bu gün əylənə bildinmi?». Amma bizdə valideyn soruşur ki, ev tapşırığı necə oldu, müəllim nə tapşırdı və s.

Yüksək təhsil sisteminə malik olan Amerika müəllimləri də hər şeydən razılıq etmirlər. 20 il orta məktəb müəllimi olub pensiyaya çıxan tanışımız Kani bizə danışdı ki, bizi də dünyanın bütün ölkələrində müəllimlərin rastlaşdıqları problemlər narahat edir. Həmin problemlər Amerika məktəblərində də var.

Onun sözlərinə görə, Amerikada müəllimlərin ən böyük problemi uşaqların fikrini yayındıran şeylərdir, məsələn, televiziyadır, valideynlərin hər ikisinin işləməsidir. Valideyn dərsdən sonra uşaqların qayğısına qalmalıdır. Onlar isə işdə olurlar və belə qayğını göstərə bilmirlər. Bu da bütövlükdə ı-Diniyyətdə müəyyən problemlər yaradır.

Amerika məktəblərində biliyin qiymətləndirilməsi də bizimkindən fərqlidir. Uşaqların bilikləri ingilis əlifbasının ilk hərfləri ilə qiymətləndirilir. «A» hərfi alan ən yüksək göstəriciyə malik olur- 93-100 bal arası. «B» şagirdin 85-92 bal toplamasının göstəricisidir. Daha zəif şagirdlər «C» və «D» ilə qiymətləndirilir.

Məktəbi bitirən amerikalıların çoxu, bizdəki kimi, ali məktəblərə - universitet və kolleclərə üz tuturlar. Yaxından tanış olduğumuz belə universitetlərdən biri - Şərqi Karolina Universiteti barədə bəzi faktları xatırlatmaq istəyirik.

Əsası 1905-ci ildə qoyulan universitet dövlət tərəfindən maliyyələşdirilsə də, burada təhsil pulludur. Amma ödəniş fərqləri var. Bu ştatda yaşayanlar təhsil haqqı kimi ildə təxminən 7 min dollar ödəyirlər. Başqa ştatlardan gələnlərin təhsil haqqı bir qədər bahadır. Əcnəbilərin isə burada bir illik təhsili, ixtisasdan asılı olaraq, təxminən 20-22 min dollara başa gəlir. Amerikalı tələbələr bütün sahələrdə olduğu kimi, geyim və davranış məsələlərində də olduqca sərbəstdirlər. Kim nə və necə istəyirsə, geyə bilər. Universitetin beynəlxalq proqramlar üzrə direktoru doktor Çarlz Layəns bizimlə söhbət zamanı bildiridi ki, burada 22 min tələbə təhsil alır. Universitetdə dünyanın 50 ölkəsindən 200 tələbə oxuyur.

Demək olar ki, hər həftənin cümə günü əcnəbi tələbələr üçün universitetdə görüş-qonaqlıq təşkil olunur. Bu tədbirləri universitet maliyyələşdirir. Tələbələr arasında bilik yarışları təşkil edilir, maraqlı sərgilər nümayiş olunur, burada təhsil alan ayrı-ayrı xalqların nümayəndələrinin milli bayramları qeyd edilir. Bu tədbirlər bir növ valideynlərindən uzaqda yaşayan əcnəbilərin darıxmaması üçün təşkil olunur.

Universitet avtobusları tələbə və müəllimləri ayrı-ayrı ünvanlarda yerləşən korpuslara, eləcə də şəhərin ən iri super marketlərinə pulsuz aparır. Bu avtobuslar dəqiq cədvəl üzrə işləyir. Hərəkət qrafiki tələbə və müəllimlərə paylanır. Avtobusları, bir qayda olaraq, tələbələr idarə edir və əlavə pul qazanırlar. Qeyd edək ki, universitetin ayrı-ayrı strukturlarındakı texniki işlərin çoxunu da tələbələr yerinə yetirir.

Universitetdə bütün tədris prosesi müasir texniki avadanlıqlarla təmin edilir. Tətbiq olunan ümumi texnologiyalara elektron poçtlar, elektron kitabxana, müəyyən kurslar üzrə veb - saytlar

və s. daxildir. Məsələn, tibb fakültəsinin xüsusi veb – saytları var və müəllimlər materiallarını, mühazirə mətnlərini həmin veb – saytlara yerləşdirirlər. Tələbələrin isə həmin veb - saytlardan istifadə etmək imkanı var. Bundan başqa, müəllimlər elektron poçt vasitəsilə həmin materialları tələbələrə göndərir və onların mənimsəmə səviyyəsini texniki vasitələrlə müəyyənləşdirir, biliklərini qiymətləndirirlər.

Amerikada bizim üçün yenilik olan dərslərdən biri də «on - layn klas» və ya «video-konfrans» adlandırılan dərslər oldu. Auditoriyada amerikalı tələbələr Qambiyada oxuyan tələbələrlə eyni vaxtda internet vasitəsilə dərs keçirdilər. Hər iki tərəfdə tələbələrin bir hissəsi yazışır, bir hissəsi isə canlı dialoq aparırdı. Tələbələr bir-birinə istənilən mövzuda sual verirdilər.

Başqa bir auditoriyada isə İsveçrədə yerləşən universitetin tələbələri internet vasitəsilə amerikalı müəllimin mühazirəsinə qulaq asırdılar.

Şərqi Karolina Universitetinin məsafədən təhsil (Distance edication) proqramının rəhbəri Elmer Poo bildirdi ki, internetlə əlaqəsi olan istənilən ölkə ilə bu cür əlaqə sistemi qurmaq olar. O, Azərbaycanın da bu sistemə daxil edilməsi üçün elə bir problem olmadığını söylədi. Bununçün güclü internet əlaqəsinin, bir neçə kiçik kompüter və video-kameranın oltnası kifayətdir.

Universitetin kitabxanası həftənin dörd günü səhər saat 7.30-dan gecə saat 2-yə qədər, qalan günlər isə axşam saat 6-ya qədər açıq olur.

Adətən kitabxana deyəndə adamın xəyalına toz basmış kitab rəfləri gəlir. Amerika kitabxanalarındakı səliqə-sahmana isə ancaq həsəd aparmaq olar. İstənilən şəxs sərbəst şəkildə kitabxanaya girə bilər, istənilən kitab və ya sənəddən istifadə edə bilər. Kitabxanada kompüterlərdən və internet xidmətindən istifadə də pulsuzdur. Kitabxananın qapısı, sözün əsl mənasında, hamının üzünə açıqdır.

Burada heç kimə əziyyət vermədən istədiyin kitabı kompüterdə tapırsan, onun hansı rəfdə olduğunu müəyyən eləyib götürürsən. Ehtiyac varsa, kitabxana işçilərinin köməyindən də istifadə etmək olar. Bir sözlə, burada hər şey adamların rahatlığına xidmət edir.

Tələbə və müəllimlər universitetin əyləncə mərkəzindən istifadə etməkdə də sərbəstdirlər. Böyük üzgüçülük hovuzu, saysız-hesabsız idman avadanlıqlar onların ixtiyarına verilib. Əyləncə mərkəzindən istifadəyə görə müəllimlər cüzi haqq ödəsə də, tələbələr burada pulsuz dincələ bilirlər. Çünki tələbələrin sağlamlığı qayğısına qalmaq da universitetin borcu sayılır. Tələbə-sağlamlıq mərkəzi bu məqsədə xidmət edir.

Tələbələr universitetə qəbul olunarkən təhsil haqqı ödəyirlər. Tibbi xidmət haqqı da bura daxildir. Ona görə də tələbələr bu mərkəzdə pulsuz müayinə oluna bilər, lazım olan dərmanları ucuz qiymətə ala bilərlər.

Amma bütövlükdə Amerikada səhiyyə xidmətlərindən istifadə olduqca bahalı məşğuliyyətdir.

## SAĞLAMLIĞIN QİYMƏTİ

Amerikada xəstəxanaya qəbul uzun və yorucu bir prosedurdur. Amerikalılar bu prosedura özləri də gülür və onu «Əmerikən bürokrasi» - «Amerika bürokratiyası» adlandırırlar. İlk dəfə xəstəxanaya gələn adam uzun-uzadı anket suallarına cavab verməlidir. Adama elə gəlir ki, bu sualların çoxunun pasiyentin müalicəsinə və xəstəxanaya qəbula dəxli yoxdu. Amma amerikalılar belə hesab etmirlər.

Həkimin qəbuluna getmək üçün gərək xəstəxanaya qeydiyyata düşəsən. Qeydiyyata düşmək üçün isə «Pasiyent haqqında informasiya» blankını doldurmalısan. Dörd səhifəlik bu blankda qoyulan sualları Amerika bürokratiyasının bariz nümunəsi saymaq olar. Məsələn, soruşulur ki, «neçə uşağınız var», «xəstəxanaya kimlə gəlmisiniz», «gündə nə qədər çay və ya kofe içirsiniz» və s.

«Qohumlarınızdan kimdəsə aşağıdakı xəstəliklər olubmu» sualı verilir və bundan sonra az qala bütün xəstəliklər sadalanır: ürək xəstəliyi, astma, şəkər və s. Anlamaq olmur ki, bütün bunların bu günkü qəbula və müayinəyə dəxli nədir?

Bəs pasiyentin atasının nədən öldüyünün (təbii ki, əgər ölübsə), anasının neçə yaşı olduğunun müayinə ilə nə əlaqəsi? Pasiyentin qardaş və bacılarının neçə yaşında olmasının mətləbə bir dəxli varmı?

Amerika xəstəxanalarında pasiyentin cavab verməli olduğu mənasız suallardan ikisini də xatırlatmaqla bu mövzuya nöqtə qoyuruq: «Yatanda xoruldayırsınızmı?», «Avtomobilə minəndə təhlükəsizlik kəmərini bağlayırsınızmı?»

Qeyd etmək lazımdır ki, bütün bu çətinliklər yalnız birinci dəfə gələnlər üçündü. Növbəti dəfə həkimin qəbuluna gəlmək üçün evdən zəng vurub vaxt təyin eləmək kifayətdir. Təyin olunmuş vaxtda qəbula gəlirsən və əlavə vaxt itirməyə ehtiyac qalmır.

İlk dəfə müayinəyə gedəndə birinci iş kimi pasiyenti tərəziyə çıxarırlar. Bu barədə müvafıq qeyd aparılır. Tibb bacısının növbəti işi qan təzyiqini ölçmək, nəbzi yoxlamaq və s. olur.

Bundan sonra tibb bacısı pasiyenti narahat eləyən problemlərlə maraqlanır. Bir neçə sual da verir və topladığı bütün məlumatlan kompütere daxil edir. Bununla da tibb bacısı işini başa çatdırır. Həkim yalnız bundan sonra pasiyentin və ya Kestenin yanına gəlir.

I ləkimin də ilk sualı pasiyenti narahat edən problemlərlə maraqlanmaq olur. Bu vaxt həkim insandan daha çox kompütere daxil edilən məlumatlara inanır və müalicəni həmin məlumatlara əsasən təyin edir.

Yeri gəlmişkən, həkimlərlə tez-tez təmasda olan əcnəbilərin müşahidəsinə görə, Amerika həkimləri xəstələrlə olduqca soyuq davranırlar. Belə ki, onlar xəstə ilə həmsöhbət olmaqdan, onları dinləməkdən daha çox kompüterə yığılmış məlumatlara əsaslanırlar. Bir sözlə, onlar müayinə və müalicəni texniki iş kimi yerinə yetirirlər.

Amerikada tibbi sığortası olmayan adamın xəstələnməsi, xüsusən cərrahi əməliyyata ehtiyac yaranması həmin insan üçün əsl faciəyə çevrilə bilər. Çünki bahalı səhiyyə xidmətlərinə görə haqq ödəmək hər adama nəsib olan xoşbəxtlik deyil. Səhiyyə xidmətlərinə görə xərclərin əsas hissəsini sığorta şirkətləri ödəyir. Sığorta şirkətlərinə ödənişləri isə həmin adamın işlədiyi müəssisə həyata keçirir.

Müqayisə üçün deyək ki, bir adamın adi tibbi sığortası ayda təxminən 600 dollara başa gəlir. Bu xərcin, məsələn, 100 dollarmı işçi özü, 500 dollarını isə işlədiyi şirkət ödəyir.

Amerika səhiyyə sisteminin ən müasir texnologiya və avdanlıqlarla təchiz olunduğu da heç kimdə şübhə doğurmur. Belə avadanlıqlardan biri - «Da Vinçi mexanizmi» adlanan qurğu xüsusi marağımıza səbəb oldu.

Qurğu universal bilikləri ilə şöhrət qazanmış məşhur rəssamı, memar, heykəltəraş, alim və mühəndis Leonardo da Vinçinin şərəfinə belə adlandırılıb: Məlum olduğu kimi, Mona Lizanın müəllifi universal biliyə malik şəxsiyyət olub, rəssamlıqla yanaşı, materialların müqavimətini öyrənib, hidravlika ilə məşğul olub, paraşüt konstruksiyaları hazırlayıb və s.

Da Vinçi mexanizmi Amerika və Almaniya alimlərinin birgə əməyinin məhsuludur. Mexanizmlə əməliyyat zamanı cərrahın əli xəstəyə toxunmur. Xəstə qonşu otaqda, ayrı şəhərdə və hətta başqa ölkədə də ola bilər. Əsas məsələ odur ki, Da Vinçi mexanizminin bir hissəsi xəstənin, bir hissəsi isə cərrahın yanında olsun. Bu iki hissə arasında əlaqəni və onların qarşılıqlı idarə olunmasını isə etibarlı internet əlaqəsi təmin edir. Daha doğrusu, cərrahiyyə əməliyyatı internet vasitəsilə həyata keçirilir.

Bu mexanizm hərbi əməliyyatlar zamanı daha böyük səmərə verir. Məsələn, İraq müharibəsində yaralanmış əsgəri döyüş bölgəsindən çıxarıb sakit bir guşədə yerləşdirmək olar. Həmin döyüş bölgəsində, yaxud xəstənin yerləşdirildiyi ərazidə yüksək ixtisaslı cərrahın olması isə vacib deyil. Nyu-Yorkda oturan cərrah bu mexanizm vasitəsilə əsgərin üzərində lazımi əməliyyat apara bilər.

Mütəxəssislərin sözlərinə görə, bu qurğu ilə işləyərkən yenə də qərar çıxarmaq texnikanın yox, tibbi heyətin ixtiyarında olur.

Adi cərrahiyyə əməliyyatından fərqli olaraq, Da Vinçi ilə əməliyyat zamanı bədəni yarmağa ehtiyac qalmır. Bədəndə təxminən 1 sm diametrində üç deşik açmaq kifayətdir. Bunlardan ikisi aparatın manipulyatoru üçün, biri isə miniatür telekamera üçündür. Həmin telekamera əməliyyat sahəsini ekran vasitəsilə müşahidə etməyə imkan verir. Cərrah da alətləri bu müşahidəyə uyğun hərəkətə gətirir.

Qurğunun bir üstünlüyü də ondadır ki, həkim əməliyyat aparılan orqanın ölçülərini ekranda onun real ölçüsündən 12 dəfə çox artıra bilir. Bu da əməliyyat zamanı ən xırda toxumaları belə görməyə imkan verir.

Bədənə daxil edilən manipulyatoru istənilən tərəfə asanlıqla döndərmək olur. Qurğunun «barmaq»ları qeyri-adi çevikdir. İnsan barmaqları isə çox vaxt belə əməliyyatları fiziki cəhətdən yerinə yetirə bilmir.

Mütəxəssislərin sözlərinə görə, adi cərrahiyyə əməliyyatı zamanı ən təcrübəli cərrahın da əlləri bəzən gözlənilmədən titrəyir. Amma bu aparatda titrəmə, hər hansı deformasiya mümkün deyil.

Bu qurğu ilə əməliyyat zamanı xəstənin ağrıları az olur, əməliyyatdan sonrakı sağalma və bərpa müddəti isə xeyli tez başa çatır: adi əməliyyat zamanı xəstə bir həftədən artıq xəstəxanada qalır, sonra isə 6 gün bərpa prosesi gedir; bu aparatla əməliyyat olunan xəstə isə 3 gündən sonra evə gedə bilir, bərpa müddəti də daha tez başa çatır.

Robot cərrahiyyəsindən fərqli olaraq burada əsas işi robot yox, insan iradəsi, cərrahın barmaqları görür.

Da Vinçi mexanizmi indi əsasən kardiologiya, ginekologiya, urologiya və ümumi cərrahiyyədə geniş tətbiq olunur. Xüsusilə tok damarlarının şuntlanmasında bu qurğunun rolu və əhəmiyyəti əvəzolunmaz sayılır. Hər il Birləşmiş Ştatlarda 375 minə qədər insanın şuntlama əməliyyatına məruz qaldığını nəzərə alsaq, onda bu qurğunun əhəmiyyətini təsəvvür etmək çətin olmaz.

Bütün bunlardan sonra qeyd etmək yerinə düşər ki, bu ölkədə səhiyyə sahəsinə dünyanın istənilən ölkəsində olduğundan çox pul ayrılır. Deyilənə görə, Birləşmiş Ştatlarda səhiyyəyə ayrılan vəsait müdafiəyə ayrılan vəsaitdən çoxdur. Elə bu səbəbdən də Amerikada səhiyyə xidmətləri daha keyfiyyətli və daha səmərəlidir.

Bu ölkədə səhiyyə müəssisələri artıq iri sənaye sahələrinə çevrilib. Məsələn, Bostonda yerləşən «Massaçusets Ceneral hospital»da 14 minə qədər adam işləyir. Hospitalın büdcəsi isə bir çox iri dövlətlərin büdcəsindən çoxdur. Bununla belə, hospitalda xidmət hamı üçün eynidir. Məsələn, sabiq dövlət katibi Henri Kissincerlə xırda bir ölkədən gəlmiş mühacir üçün yaradılan xidmət səviyyəsi arasında heç bir fərq qoyulmur.

## AMERİKADA AZƏRBAYCANI NECƏ TANIYIRLAR?

Amerika Birləşmiş Ştatları millətlərin və adətlərin bir-birinə qaynayıb-qarışdığı məmləkətdir. Ona görə də bu məmləkətdə milli ayrı-seçkilik problemi, hansısa xalqın qoruyub saxladığı ənənəyə hörmətsizlik nümunəsi görmək mümkün deyil. Hamı üçün ümumi olan qanunlar var, bir də hamının hörmət etməyə borclu olduğu dövlət atributları. Adət-ənənəyə sədaqət, dini etiqad seçimi və s. məsələlərdə isə sözün əsl mənasında azadlıq və sərbəstlikdir. Bununla belə, amerikalılar ən inkişaf etmiş ölkənin vətəndaşları olmalarından qürur duyur və hesab edirlər ki, dünyada ən yaxşı nə varsa, hamısı bu ölkədədir. Bu mənada, əksər sadə amerikalıların keçmiş Sovet İttifaqı barədə təsəvvürləri ziddiyyətli, hətta bəsitdir. Bir çox amerikalılar bu gün də «KQB» («Komitet Qosudarstvennoy Bezopastnosti» -Dövlət Təhlükəsizliyi Komitəsi) sözünü xüsusi vurğu ilə tələffüz edir, bu sözü SSRİ-nin və Rusiyanın simvolu kimi xatırlamağa üstünlük verirlər. Hətta indinin özündə də bəziləri üçün Rusiya əvvəlki kimi «təhlükə» mənbəyi sayılır.

Sadə amerikalılarda SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan respublikalara bir növ nəhəng əjdahanın ağzından qurtulmuş məzlum ölkələr, inkişafdan geri qalmış məmləkətlər kimi baxmaq tendensiyası da hiss olunur. Məsələn, evində kirayənişin qaldığımız qadın ilk tanışlıq zamanı bizə «geri qalmış» ölkənin vətəndaşı təsəvvürü ilə müasir məişət əşyalarından istifadə barədə «dərs» keçmək niyyətinə düşmüşdü. Lakin pəncərəyə asılmış adi jalüzləri işlətmək qaydası barədə «izahat»ına ehtiyac olmadığını, Azərbaycanda da jalüzdən geniş istifadə olunduğunu biləndə üzr istəməli oldu və etiraf etdi ki, ölkəmiz barədə məlumatı çox azdır. Halbuki həmin qadın universitet müəllimi və kifayət qədər erudisiyalı adam idi.
Sonradan məlum olacaqdı ki, onun 22 yaşlı tələbə oğlu, anasından fərqli olaraq, Azərbaycan barədə eşidib və bir neçə il əvvəl yazdığı hekayədə Qafqaz dağlarının ətəklərində yerləşən «kiçik Azərbaycan» dövlətinin vətəndaşını əsərinin qəhrəmanı edib...

Son onillikdə Azərbaycanın dünya birliyinin müstəqil subyekti kimi tanınması istiqamətində xeyli iş görüldüyü danılmazdır. Təbii ki, Amerikada da bu yöndə müəyyən işlər aparılıb və bu gün Azərbaycan ABŞ-ın strateji tərəfdaşına çevrilib. Ölkəmiz antiterror koalisiyasında Amerikanın yaxın müttəfiqlərindən biridir. ABŞ-ın aparıcı neft şirkətləri Xəzərin neft yataqlarının istismarında aparıcı mövqe tutur.

Bütün bunlara baxmayaraq, sadə amerikalıların böyük əksəriyyəti Azərbaycan adlı dövlət tanımır. Bizcə, bu, nə hər hansı ayrı-seçkiliyin, nə adətən təkrarlamağı xoşladığımız hansısa informasiya blokadasının nəticəsidir. Sadəcə, haqqında söhbət açdığımız adi amerikalılar heç öz ölkələrini də düz-əməlli tanımırlar. ABŞ haqqında bizlərə orta məktəb dərsliklərindən bəlli olan hansısa bir faktı bu ölkədə universitet müəlliminin bilməməsi qəbahət sayılmır. Sadə amerikalı, bir qayda olaraq, öz işi ilə məşğul olur, fakt və rəqəmləri əzbərləməyə vaxt itirməyi lazım bilmir. Belə məlumat lazım olduqda isə internetə müraciət edir. Bu mənada, dünyada Azərbaycan kimi yüzlərlə kiçik ölkə var və onların hər birini amerikalıların tanıması qeyri-mümkün və ağlasığmazdır.

Bununla belə, bizim müşahidəmizə görə, dolanışığından artıq pul qazana bilən hər bir amerikalı potensial turistdir. Bu ölkənin əhalisi xarici ölkələrə səfər etməyi, gəzməyi və görməyi çox sevir. Ona görə də amerikalıların çoxu ABŞ administrasiyasının həyata keçirdiyi antiterror əməliyyatlarından narazılıq edir. Çünki bir çox ölkələrə gedib-gəlmək Amerika vətəndaşları üçün təhlükəli məşğuliyyətə çevrilib.

Həm də, deyək ki, biz adətən gəzmək üçün daha çox inkişaf etmiş ölkələrə maraq göstəririksə, amerikalılar, əsasən, ekzotik ölkələrə üstünlük verirlər. Bu məsələdə onların məntiqi də anlaşılandır. Deyək ki, Fransa inkişaf etmiş ölkədir və amerikalı üçün bu ölkəni görmək o qədər də maraqlı deyil. Amma, məsələn, Tailand, Bəhreyn, Hindistan kimi ölkələrdə olmaq istəyənlər çoxdur.

Bu mənada, Azərbaycana da maraq kifayət qədər böyükdür. Bir qayda olaraq, amerikalıları səfər etmək istədikləri ölkələrdə təhlükəsizlik məsələləri daha çox narahat edir. Azərbaycanda mövcud sabitlik və inkişaf bu mənada cəlbedici arqument ola bilər. Sadəcə, bu potensialı təbliğ etməyə ehtiyac var. Təbliğat məsələsində isə hələlik xaricdə, konkret desək, Amerikada aparılan işlərimizi ürəkaçan saymaq olmaz.

Fikrimizi əsaslandırmaq üçün bir müşahidəmizi xatırlatmaq istəyirik. 20 mindən çox tələbənin təhsil aldığı Şərqi Karolina Universitetinin kitabxanasında milyonlarla nüsxə kitab və sənəd saxlanılır. Təbii ki, belə bir «kitab dəryası»nda Azərbaycana aid kitab və sənədlər də var.

Bəs bu kitablar nəyi və necə təbliğ edir? Bu suala cavab almaq üçün kitabxananın kompüterində «Azərbaycan» sözü ilə axtarış verdik və məlum oldu ki, burada cəmi 78 adda kitab var. Müqayisə üçün deyək ki, «Ermənistan» sözü ilə axtarış verəndə az qala iki dəfə çox - 141 kitab adı üzə çıxdı.

Şimali Karolina Dövlət Universitetinin kitabxanasında isə «Azərbaycan» sözü ilə axtarış aparanda 47, «Ermənistan» sözü ilə axtarış verəndə 97 kitab adı üzə çıxır.

Amerikanın məşhur təhsil ocaqlarından sayılan Dük Universitetinin kitabxanasında isə Azərbaycana aid 406, Ermənistana aid 717 kitab və sənəd var.

Göründüyü kimi, Amerikanın 3 universitet kitabxanasında Ermənistana aid kitablar Azərbaycana aid kitablardan təxminən 2 dəfə çoxdur. Necə deyərlər, şərhə ehtiyac yoxdur.

O da təəssüf doğurur ki, Azərbaycan haqqında olan kitabların çoxu sovet dövründə nəşr olunan və sovet ideologiyasına xidmət edən əsərlərdir. Ötən əsrin 60-70-ci illərində rus dilində nəşr olunmuş həmin kitablardan bir neçəsinin adını çəkmək istəyirik: «Kommunizm mədəniyyətinin yaradıcısı olan xalq», «Azərbaycan SSR SSRİ-nin tərkibində suveren dövlətdir», «Sovet Azərbaycanı xalqlar dostluğu respublikasıdır», «Azərbaycanda Lenin milli siyasətinin həyata keçirilməsi uğrunda Kommunist Partiyasının mübarizəsi».

Ermənistan haqqında kitablarda da sovet ideologiyasının izləri hiss olunur. Lakin ermənilər bu boşluğu yeni kitablarla doldurmağa nail olurlar. Bu mənada ABŞ-ın əksər kitabxanalarını «bəzəyən» bircə kitabın adını çəkmək kifayətdir: «Sumqayıt faciəsi şahidlərin gözü ilə». Bu kitabın 1989-cu ildə rus dilində buraxılmış nəşri, həm də bir il sonra ingilis dilində çap edilmiş nəşri saxlanılır. Xatırladaq ki, Samvel Şahmuratyan adlı müəllifin bu kitabı ermənilərin bədnam qəyyumu Yelena Bonnerin ön sözü ilə çap olunub.

Qeyd edək ki, Amerikanın bir neçə kitabxanasında mərhum tarixçi-alim, Milli Məclisin sədri Oqtay Əsədovun atası Sabir i )sədovun ermənilərin ifşasına həsr olunmuş iki kitabını gördük: «Böyük Ermənistan haqqında mif» və «Terrorizm - səbəb və s;) nəticələr» kitabları. Təəssüf ki, hər iki kitab yalnız rus dilindədir.

2001-ci ildə Şərqi Karolina Universitetində, magistratura təhsili almış həmyerlimiz Ramil Hüseynovun universitet kitabxanasında saxlanan 106 səhifəlik «Ermənistanla Azərbaycan arasında münaqişə: çıxış yolu varmı?» («The (conflict between Armenia and Azerbaijan: is there any way out?») adlı tədqiqat əsəri Qarabağ probleminin anlaşılması və təbbliği baxımından maraqlıdır.

Amerikada 1831-ci ildən bəri lüğət və məlumat kitablarının nəşri ilə məşğul olan "Merriam Webster's" nəşriyyatı 2003-cü ildə «Ədəbiyyat ensiklopediyası»nın (Merriam Webster's Hncyclopedia of Literature) yeni nəşrini buraxıb. Ensiklopediyaya Azərbaycan ədəbiyyatının dörd nümayəndəsi də daxil edilib - Xaqani, Nizami, Nəsimi və Füzuli. Lakin bu dühalar haqqında verilən məlumatlar da yanlışlıqdan xali deyil: Xaqaninin və Füzulinin doğum illərinin səhv göstərilməsi bir yana, Xaqani və Nizami fars ədəbiyyatının görkəmli nümayəndələri kimi təqdim olunub.

Klassik türk ədəbiyyatının məşhur nümayəndələri kimi təqdim olunan Nəsimi və Füzulinin bioqrafiyasında isə Azərbaycan sözü, ümumiyyətlə, işlədilməyib.

Sadə amerikalılardan fərqli olaraq, Amerikanın siyasət olimpində əyləşənlər istər ölkəmiz barəsində, istərsə də illərdən bəri uzanan Dağlıq Qarabağ münaqişəsi haqqında kifayət qədər bilgiyə malikdirlər. Sadəcə, baxır bu bilgiləri hansı prizmadan təqdim edirlər.

Bill Klintonun prezidentliyi dövründə dövlət katibi vəzifəsində işləmiş çex əsilli Madlen Olbrayt Azərbaycanı yaxşı tanıyır, bu ölkənin probJemlərinə də yaxından bələddir. Xanım Olbraytın xatirələr kitabında (Madam Secretary: A Memoir Madeline Albright. New York, 2003) 1994-cü il avqustun 26-dan sentyabrın 4-dək Almaniya, Slovakiya, Çexiya, Avstriya, Moldova, Gürcüstan, Ermənistan, Azərbaycan və Rusiyaya rəsmi səfərləri barədə təəssüratları əks olunub.

Sabiq dövlət katibi 1994-cü ilin Bakısını belə xatırlayır: "Azərbaycanın paytaxtı və mənzərəli liman şəhəri olan Bakı ölkənin neft mənbəyi kimi tarixi rolunu əks etdirən neft quyulan ilə tanınır. Mən orada səfərdə olarkən şəhərdə Cənub-Qərbi Amerika ləhcəsində danışan və kovboy ayaqqabıları geymiş ticarətçilər qaynaşırdı. Restoranlara daxil olan müştərilərin silahlarını qapının ağzında yoxlayan qurğular var idi. Mən prezidentin rəsmi qonaq evində - sovet dövrünün kommunist qaydalarına uyğun estetikayla tikilmiş abidələri xatırladan binada qaldım. Zalın tavanından üzüm salxımı formasında bənövşəyi-qırmızı və yaşıl rəngə çalan 15 fut uzunluğunda şüşə çilçıraq asılmışdı...»

Təəssüf ki, Dağlıq Qarabağ probleminə münasibətdə Olbraytın fikirləri daha çox erməni separatçılannın mövqeyi ilə üst-üstə düşür. Xanım Olbrayt yazır: «Ermənistan və Azərbaycan qədim torpaqlar, tarixinə və mədəniyyətinə görə fərqlənən qonşulardır. Əsasən xristianların yaşadığı Ermənistan birinci dünya müharibəsi dövründə və ondan əvvəl Türkiyə tərəfindən göstərilən təzyiqin ağrı-acısını unutmur. Azərbaycan əhalisinin isə əksəriyyəti türk mənşəlidir. Əvvəllər Ermənistan ərazisi olmuş (?-Red.) Dağlıq Qarabağ regionunu Azərbaycana daxil etmək Stalinin oyunlarından biridir. «Soyuq müharibə» qurtaran kimi döyüş başlanıb. Ermənilər tezliklə Dağlıq Qarabağa nəzarəti ələ keçiriblər və Ermənistandan ora dəhliz açıblar.

Göründüyü kimi, sabiq dövlət katibi erməni işğalından danışmır, Dağlıq Qarabağın «əvvəllər Ermənistan ərazisi olmasını iddia edir və işğal faktını «ermənilər tezliklə Dağlıq Qarabağa nəzarəti ələ keçiriblər» formasında ümumiləşdirir.

Problemin həlli istiqamətində görülən işlər barədə M. Olbraytın fikri belədir: «Regiona səfərim zamanı vasitəçi kimi səylərimizi Dağlıq Qarabağın statusuna dair qətnamə qəbul olunmasına yönəltməyə çalışdım. Təəssüf ki, bu təşəbbüs mənim hökumətdə olduğum illər ərzində uğur qazanmadı: hər dəfə biz məsələnin həllinə yaxınlaşanda gah bu, gah da digər tərəf böhrana səbəb olurdu».

Sadə amerikalıların Dağlıq Qarabağ münaqişəsinə dair bilgisi də olduqca azdır. Xüsusən, gənclər bu konfliktdən demək olar ki, xəbərsizdirlər. Şərqi Karolina Universitetinin tələbələri arasında keçirdiyimiz ayaqüstü sorğu bu qənaətə gəlməyə əsas verir. Bu da başa düşüləndir: dünyanın bir çox regionlarında münaqişə ocaqları var və onların hamısı ilə maraqlanmaq, kimin haqlı olub-olmadığını öyrənmək qeyri-mümkündür. Həm də ona görə ki, müasir Amerika gənclərini, bizdəki kimi, idman yarışları və musiqi daha çox cəlb edir...

Bununla belə, nisbətən yaşlı nəslin nümayənədəsi olan sadə amerikalılar Qafqaz və keçmiş Sovet İttifaqı kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə bu və digər məlumatlara malikdirlər.

Lakin yuxarıda xatırlatdığımız sorğu zamanı respondentlərin birinin «bəli, mən Azərbaycanı tanıyıram, çünki erməniyəm» deməsi, doğrusu, bizim üçün gözlənilməz oldu.

Söhbət zamanı öyrəndik ki, Ceff adlı həmsöhbətimizin anası Ermənistanda doğulub və 1960-cı ildə Kanadaya köçüb. Ceff Ermənistanı görməsə də, Dağlıq Qarabağ münaqişəsindən xəbərdardır: «Eşitmişəm ki, etnik zəmində, torpaq iddiası ilə əlaqədar çoxlu qurban verilib, qan tökülüb. İsrail-Fələstin münaqişəsi kimi, bu münaqişə də kütləvi xarakter alıb, region üçün xoşagəlməz vəziyyətə gətirib çıxarıb.

...Eşitdiyimə görə, orada çoxlu azərbaycanlı yaşayırdı.
Ermənilər isə iddia elədilər ki, bu torpaq onlarındır. Sonra həmin adamları oradan çıxarmağa çalışdılar.

Eşitdiyimə görə, həmin ərazidə eybəcər vəziyyət yaranıb hərbi qüvvələr cəlb olunub. Bura

həqiqətən də narahat regiona çevrilib".

Bu fikirləri söyləyərkən Ceffin nə dərəcədə səmimi olduğunu deyə bilmərik. Hər halda əslən erməni olan kanadalı gəncin Qarabağ münaqişəsi barədə azərbaycanlılara dedikləri bu oldu

# AMERIKALI AZƏRBAYCANLILAR

Kirayədə qaldığımız evə bir axşam zəng vuran şəxs ingilis dilində əslən Təbrizdən olduğunu və Şərqi Karolina Universitetində çalışdığını bildirdi. Dedi ki, eşitdiyimə görə, bu Azərbaycandan gələn adamlar yaşayır...

Siz Azərbaycan dilində danışa bilirsinizmi? - deyə soruşanda naməlum həmsöhbətimiz bu dəfə təmiz Təbriz ləhcəsində dedi:

- Baba, nəinki Azərbaycan dilində danışıram, bu dildə danışmaqdan ötrü ölürəm...

Qısa söhbətdən sonra, hər şey aydın oldu. Qrinvill şəhərində olduğumuz barədə təsadüfən xəbər tutan və çətinliklə də olsa, yaşadığımız evin telefon nömrəsini tapıb bizə zəng vuran soydaşımız doktor Məhəmmədhüseyn Təbrizi idi. Elə ilk telefon danışığı zamanı görüşüb söhbətləşmək arzusunu bildirdi və bizi evinə dəvət elədi. Şərtləşdiyimiz vaxtda görüşdük və onun müasir amerikalılara məxsus böyük villasına getdik. Bizi qapıda ilk görüşdəncə xoş təəssürat bağışlayan həyat yoldaşı Sima xanım qarşıladı. Sonra univeristetdə oxuyan qızları gəldilər. Otağı isə plov ətri bürümüşdü...

Bir qədər əvvəldə qeyd etmişdik ki, həddi-buluğa çatan hər bir amerikalının şəxsi maşını olmalıdır. Doktor Təbrizinin ailəsi də bu mənada istisna deyil. Soydaşımızın həyətində dörd avtomobil dayanmışdı...

Elə söhbət zamanı birinci sualı bu oldu:

- Rəşid Behbudov durur
mu?

Görkəmli müğənnimizin dünyasını dəyişdiyini dedik. Sonra Zeynəb Xanlarovanı soruşdu...

Doktor Təbrizi 20 ildən çoxdur ki, Amerikada yaşayır və bu illər ərzində Azərbaycanla əlaqəsi olmayıb. Rəşid Behbudov və Zeynəb Xanlarovanın mahnıları isə onun uşaqlıq xatirələrində yaşayır.

Amerikalı soydaşımız orta məktəbi Təbrizdə başa vurandan sonra ali təhsil almaq üçün İngiltərəyə gedib. 1974-cü ildə Mançester Universitetini bitirib. Ingiltərədə doktorluq dərəcəsi alıb, bir neçə il Mançester Universitetində çalışandan sonra ona ABŞ-ın Şərqi Karolina Universitetində işləməyi təklif ediblər. Artıq 20 ildən çoxdur ki, həmin universitetin kompüter elmləri departamentində dərs deyir.

Amerikalılar adətən bir-birinə adla müraciət edirlər. Soydaşımızın adı uzun olduğu üçün ona qısaca «Doktor Təbrizi» deyirlər. Özü zarafatla bildirir ki, «adımı söyləyəndə amerikalılar «spell» elə («hərflərlə de») deyirlər. Ona görə də mən burada qısaca Təbrizi kimi tanınmışam».

Doktor Təbrizi bir müddət Avropada yaşadığı üçün Amerika həyat tərzinin üstünlüklərini müqayisə etmək imkanına malikdir. O deyir ki, Avropadan fərqli olaraq, ABŞ-da pul qazanmaq üçün heç bir məhdudiyyət yoxdur. Əgər bacarırsansa, çox işlə və çox qazan.

Son illər Azərbaycanda bir çox qeyri-hökumət təşkilatlarının və ayrı-ayrı adamların beynəlxalq təşkilatlardan qrant almasına bəzən qısqanclıqla yanaşma halları ilə rastlaşırıq. Amerikada isə yalnız bu ölkənin vətəndaşlarına qrant ayıran kifayət qədər fond və qurumlar var, hər bir vətəndaş bu imkanlardan sərbəst istifadə edir. Doktor Təbrizi də tez-tez müvafiq layihələr hazırlayır və bu yolla ailə büdcəsini daha da zənginləşdirir. Biz ABŞ-da olarkən o, kompüter texnologiyaları üzrə 1 milyon (!) ABŞ dolları dəyərində qrant layihəsi üzərində işləyirdi. Bu faktı xatırlatmaqda məqsədimiz insanların bu məmləkətdə yüksək əməkhaqqı ilə yanaşı, digər mənbələrdən də pul qazanmaq imkanlarına malik olduğunu göstərməkdir. İş tapmaq, pul qazanmaq məsələsində isə bu ölkədə hər hansı tnilli və irqi ayrı-seçkilikdən söhbət gedə bilməz.

Qeyd edək ki, hələ Amerikada olarkən biz Şərqi Karolina Universiteti ilə Azərbaycanın ali təhsil müəssisələri arasında əlaqə yaratmaq üçün danışıqlar aparmışdıq. Bu danışıqların nəticəsi olaraq qayıdanda müvafiq məktublar da gətirmişdik. 2005-ci ilin martında doktor Təbrizi belə əlaqələr qurmaq məqsədilə ölkəmizə gəldi, Azərbaycan Dillər Universitetində, Xəzər Universitetində, eləcə də Qafqaz Universitetində maraqlı görüşlər keçirdi, mühazirələr oxudu.

Şimali Karolina ştatında tanış olduğumuz başqa bir soydaşımız - əslən Bakıdan olan Asəf Əlimərdanov ABŞ-a ötən əsrin 90-cı illərində, Moskvada təhsilini başa vurandan sonra gedib. İxtisasca kimyaçı olan Asəf uzun illər bu ölkədə əczaçılıq şirkətində çalışıb. 2003-cü ilin

axırlarında ixtisası üzrə Nyu-Yorkda daha yaxşı iş taparaq, bu şəhərə köçüb. 10 ildən çox bir müddətdə uzaq Amerikada yaşayan Asəf Əlimərdanov Azərbaycanla əlaqələrini itirmir, bu ölkəyə gələn həmyerlilərinə qayğı və köməyini əsirgəmir.

Şimali Karolina ştatının paytaxtında yaşayan dövlət auditoru Bədir Məmmədli ilə tanışlığımız isə elektron poçt vasitəsilə başlandı. Qrinvill şəhərinə Azərbaycandan qonaqlar gəldiyindən xəbər tutan Bədir «e-mail» göndərərək, bizə bu yad yerdə öz köməyini təklif etmişdi. Sonra uzun müddət yazışdıq və bir bazar günü amerikalı dostumuz Fill bizi öz maşını ilə həmin şəhərə qonaq apardı. Qeyd edək ki, paytaxt Roli şəhəri bizim yaşadığımız Qrinvilldən 100-110 kilometr aralıda yerləşirdi.

Doğrusu, bazar günü onlara qonaq gəlmək arzumuz barədə məlumat versək də, konkret vaxt deməmişdik. Bununla belə, gənc ailənin qapısını döyən andan əsl azərbaycanlı qonaqpərvərliyinin şahidi olduq. Cavan ər-arvad - Bədirlə Rəna bizi gülərüzlə qarşıladılar. Dərhal süfrə açıldı və söhbətə başladıq...

Amerikalı dostumuz bu adamlarla ilk dəfə üzbəüz oturduğumuzu yalnız indi anladı və təəccübünü gizlədə bilmədi: «İlk dəfə görüşürsünüz və dərhal süfrə açılır? Bu, Amerika adəti deyil...»

Təbii ki, bu, Amerika adəti yox, Azərbaycan adəti idi, Azərbaycan qonaqpərvərliyi idi. Sadəcə, Amerikada qorunub saxlanan milli adət-ənənəmiz!

Rolidən qayıdandan sonra Filldən elektron poçt vasitəsilə məktub aldıq. O, belə bir səfərə, belə insanlarla tanışlığa görə minnətdarlıq edirdi. Axırda isə yazırdı ki, mən dünən Rolidə təzə adamlarla yox, həm də təzə bir mədəniyyətlə tanış oldum...

Bu qeydləri oxumaq olduqca xoş idi; çünki bu mədəniyyətin daşıyıcılar və onu Amerikada ləyaqətlə təqdim edənlər bizim cavan soydaşlarımız Bədir və Rəna Məmmədlilər idi...

Qeyd edək ki, Bədir 1986-cı ildə Bakının Nizami rayonundakı 12 nömrəli məktəbi bitirib. Sonra iki il Keşlə maşınqayırma zavodunda tokar işləyib. 1988-90-cı illərdə hərbi xidmətdə olub.

1991-ci ildə BDU-nun hüquq fakültəsinə daxil olub. Bir il oxuyandan sonra «Azərneftyağ» zavodunun təşkil etdiyi müsabiqənin qalibi olub və ABŞ-da təhsil almağa göndərilib.

O, 1992-96-cı illərdə Şimali Karolina Dövlət Universitetində biznes-menecment ixtisası üzrə təhsil alıb və bakalavr dərəcəsinə yiyələnib. Sonra Roli şəhərindəki ticarət mərkəzlərindən birində işləyib. 1999-cu ildə universitetin magistraturasına daxil olub və mühasibat ixtisası üzrə magistr dərəcəsi alıb. Təhsilini başa vurandan sonra Şimali Karolina ştatının audit departamertində işə düzəlib. O vaxtdan həmin departamentdə auditor vəzifəsində çalışıb və Şimali Karolinada fəaliyyət göstərən dövlət müəssisələrinin maliyyə fəaliyyətini yoxlamaqla məşğul olub.

Bədir elə təhsil aldığı müddətdə burada yaşamaq hüququ («green-card») qazanıb. Sonra Bakıya qayıdaraq Rəna ilə ailə qurub. Rəna xanım da ingilis dilini təmiz öyrənib, özünə iş də tapa bilib; o, musiqi məktəbində uşaqlara pianodan dərs deyirdi.

Bədirin sözlərinə görə, Amerikada tələbələrin çoxu gələcək iş yerlərini hələ oxuduqları müddətdə müəyyənləşdirə bilirlər. ABŞ-dakı bütün universitetlərdə «karyera» idarələri var. Bu idarədə tələbələrlə müxtəlif söhbətlər apanlır, müəssisə rəhbərləri ilə görüşlər təşkil edilir. Tələbələrin işlə təmin olunmasında bu idarənin rolu böyük olur.

Hər bir tələbə universiteti bitirməyə bir il qalmış həmin idarəyə müraciət edə bilər. Burada heç bir məhdudiyyət yoxdur. Tələbə öz tərcümeyi-halını («CV») verir və həmin sənəd internet saytında yerləşdirilir. Hər il universitetə müxtəlif müəssisələrdən, dövlət idarələrindən işəgötürənlər gəlir. Həmin adamlar burada oxuyan tələbələrin «CV»-si ilə tanış olur. Karyera şöbəsinin nəzdində işə götürənlərlə tələbələrin görüşüləri təşkil edilir, tələbəni daha yaxından tanımaq, onun nəyə qadir olduğunu öyrənmək üçün söhbətlər aparılır. Bədirin dediyinə görə,

bəzən elə birinci görüşdən iş təklif edirlər, bəzən isə bir neçə görüşdən, bir neçə müsahibədən sonra tələbəni müəssisəyə dəvət edir, iş rejimi ilə tanış edirlər.

Qeyd edək ki, biz Azərbaycana dönəndən sonra Bədirin karyerasında xeyli irəliləyiş olduğunu eşitdik. Məlum oldu ki, o, özünə daha yaxşı iş tapıb və ölkənin paytaxtına köçüb. Onda B.Məmmədli ABŞ-ın Nəqliyyat Departamentində (Department of Transportation) çalışır. Konqres tərəfindən nəqliyyat vasitələrinin alınmasına, avtomobil və dəmir yollarının çəkilməsinə və s. ayrılan qrantların auditi ilə məşğul olurdu. Azərbaycandan gələn cavan bir oğlana belə məsuliyyətli iş tapşırılması həqiqətən də qürur doğurası faktdır.

Onlar Bakıya növbəti dəfə məzuniyyətə gələndə isə öyrəndik ki, Bədir ABŞ Müdafiə Nazirliyi sistemində auditor kimi çalışır. Bu kitab çapa hazırlanarkən isə xəbər tutduq ki, həmyerlimiz ABŞ-ın Əmək Nazirliyində (U.S. Department of Labor) mühasib vəzifəsində işləyir.

Amerikada yaşayan daha bir neçə soydaşımızla Vaşinqton şəhərində - «Amerikanın səsi» radiostansiyasında görüşdük. Bu görüşə bizi radionun Azərbaycan redaksiyasının rəhbəri Həsən Cavadi dəvət etmişdi. Doğrusu, bu görüş və redaksiyada apardığımız söhbətlər nəinki bizə, həm də bizi müşaiyət edən amerikalı dostlarımıza xoş təsir bağışladı. Həsən bəy zəngin təcrübəyə malik peşəkar, istedadlı ədəbiyyat mütəxəssisidir.

O, 1938-ci ildə Təbrizdə doğulub. Burada universitet təhsili alan Həsən bəy bir müddət Fransada ingilis dilində oxuyub. Sonralar isə Kembric universitetində doktorluq dərəcəsi alıb. İki il Kembricdə dərs deyəndən sonra İrana qayıdaraq, 11 il də Tehran universitetində çalışıb. İranda İslam inqilabından əvvəl ABŞ-a gələn doktor Cavadi Amerika universitetlərində 16 il dərs deyəndən sonra pensiyaya çıxıb. 1990-cı ildən «Amerikanın səsi» radiosundadır. Bir müddət radionun Orta Asiya üzrə müxbiri işləyib və xeyli vaxtdır ki, Azərbaycan redaksiyasına başçılıq edir.

Həsən Cavadi həm də Azərbaycan ədəbiyyatı nümunələrinin ingilis dilinə tərcüməsi kimi xeyirxah bir işlə məşğul olur.

Radionun 72 yaşlı əməkdaşı Əsgər Süleymani və onun həyat yoldaşı Maya xanımla söhbətləri, onların nurani sifətlərini unutmaq olmur. Uzun illər Bakının ali məktəblərində Sov.İKP tarixindən dərs deyən Əsgər müəllim 1978-ci ildə Amerikaya gedib və qayıtmayıb. Onun Bakıda qalan həyat yoldaşının və övladlarının o illərdə nələr çəkdiyini təsəvvür eləmək çətin deyil. Bu ailə yalnız 10 illik ayrılıqdan sonra - Sovet İttifaqının dağılması ərəfəsində bir-birinə qovuşa bilib. Əslində, Əsgər müəllimin enişli-yoxuşlu həyat tarixçəsi aynca bir yazı mövzusudur. Lakin bu nurani insan həyatının o çətin illəri barədə yazılmasına razılıq vermədiyi üçün bu ailə barədə söhbətə yekun vururuq.

«Amerikanın səsi»nin əməkdaşı, cavan soydaşımız, tarixçi-alim Süleyman Əliyarlının qızı Dilşad Əliyarlı ilə qısa ünsiyyətimiz də xoş xatirəyə çevrilib.

Əslində, indi Amerikada azərbaycanlılar çoxdur və onların sayı ilbəbil artır. Xarici Ölkələrdə Yaşayan Azəbaycanlılarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, hazırda ABŞ-da 500 mindən çox azərbaycanlı və bir vaxtlar sovet Azərbaycanının vətəndaşı olmuş çoxlu insan yaşayır. Komitə rəsmilərinin dediyinə görə, bu insanların bir hissəsi başqa millətlərə mənsub olsalar da, özlərini azərbaycanlı hesab edirlər.

Yenə də komitə əməkdaşlarının açıqlamasına inadla deyək ki, azərbaycanlılar əsasən Kaliforniya ştatında məskunlaşıblar. Bundan başqa, Nyu-York, Nyu-Cersi, İllinoys və Texas ştatlarında, eləcə də Vaşinqtonda xeyli soydaşımız yaşayır. Bu ölkədəki azərbaycanlıların çoxu keçmiş İran vətəndaşlarıdır.

Azərbaycan müstəqillik qazanandan sonra müxtəlif yollarla ABŞ-da yaşamaq hüququ qazanan həmyerlilərimizin sayı ilbəil artır. Bu ölkəyə gəlib çıxan soydaşlarımız, bir qayda olaraq, özlərinə yaxşı güzəran qurur, Azərbaycanda yaşayan qohumlarına da maddi yardım edə bilirlər. Təbii ki, söhbət Birləşmiş Ştatlara leqal yolla gedən və bu ölkədə qanunu fəaliyyət göstərən soydaşlarımızdan gedir. Şübhəsiz, Amerika hökuməti qeyri-leqal miqrantların gəlişinə nə qədər qadağa qoysa da, bu fenomenlə nə qədər mübarizə aparsa da, ölkənin sərhədlərini bu və ya digər yolla keçən və orada «ilişib» qalan qeyri-qanuni miqrantlar az deyil.

## "QEYRİ-LEQAL"LAR: AMERİKA ARZUSU REALLIQDA

Amerika hökuməti ölkəyə qeyri-leqal mühacirlərin gəl-məsinin qarşısını almaq üçün mübarizə üsullarını ilbəil sərtləşdirir. 2003-cü ildən ABŞ sərhədini keçənlərin barmaq izlərinin kompütерə salınması da bu məqsədə xidmət edir. Bununla belə, ölkəyə qeyri-qanuni mühacir axınının qarşısını tamamilə almaq mümkün olmayıb. Amerikalıların özlərinin dediyinə görə, bu məmləkətə adamlar qeyri-qanuni yolla daha çox Latın Amerikasından, Meksika və Kubadan gəlirlər. Belələri bir qayda olaraq, ABŞ-a turist vizası ilə daxil olur, sonra isə ölkəni tərk etmirlər. Deyilənə görə, burada kriminal hadisələrin çoxu da məhz qeyri-leqal miqrantlarla əlaqədar olur. Yerli televiziya kanallarından birinin verdiyi məlumata görə, ABŞ həbsxanalarında cəza çəkənlərin 30 faizə qədəri əcnəbilərdir. Özü də bu adamlar cəzalarını öz ölkələrində çəkmək üçün geri göndərilmələrinə razılıq vermirlər.

Bəs ölkədə qeyri-leqal yaşayan əcnəbilər necə iş tapır, gün-güzəranlarını necə qururlar? Amerikalıların dediyinə görə, qonşu ölkələrdən gələn mühacirlər adətən kənd təsərrüfatı sahələrində qeyri-qanuni fəaliyyət göstərməklə dolanırlar. Bundan başqa, müxtəlif xidmət sahələrində də əcnəbilərə iş tapılır. Çünki Amerika qəzetlərinin əksəriyyətində tez-tez yeni iş və xidmət sahələrinə dair elanlar verilir və heç də bütün təkliflər Amerika həyat tərzinə uyğun əməkhaqqı vəd etmir. Ona görə də belə işlərə adətən əcnəbi mühacirlər daha çox maraq göstərirlər.

Mühacirlər bu ölkədə leqal və qeyri-leqal işlərdə çalışmaq imkanına malikdir. Leqal fəaliyyət üçün həmin şəxsin ölkədə qalmağa qanuni icazəsi olmalıdır. Çünki ABŞ-da adamı işə qəbul edərkən "Sosial təminat" ("Social Security") deyilən qurumdan sənəd, daha doğrusu, bizdə vergi ödəyicisinə verilən eyniləşdirmə nömrəsinə bənzər "sekyurite nambə" (təminat nömrəsi) tələb olunur. Həmin idarədən müvafiq ərizə əsasında verilən sənədi olmayan adam leqal işdə çalışa bilməz.

İşəgötürənlər bu sənedi tələb edirlər ki, işləyən şəxsin əməkhaqqının müəyyən faizini bizim pensiya fondu kimi tanıdığımız fonda keçirsinlər. Bu, həmin şəxsin gələcək pensiyasının təminatı üçündür. Bir sözlə, "Social Security" Birləşmiş Ştatların pensiya təminatı proqramıdır. Bu proqram çərçivəsində pensiyaya çıxan işçilərə işlədikləri dövrdə özlərinin və sahibkarlarının həmin proqrama verdikləri xeyir əsasında müavinətlər kəsilir. Belə təminatı olmayan adam qocalanda küçədə qala bilər. Amerikada "Sekyurite nambə"si olmayan şəxsi işə götürmək qanunsuz sayılır. Ölkədə qalmaq hüququ olmayan, istifadə etdiyi viza işləmək və pul qazanmaq hüququ verməyən əcnəbilər bu nömrəni ala bilməzlər. Ona görə də bu cür sənədi olmayan əcnəbilər və mühacirlər qeyri-leqal fəaliyyətə üstünlük verir, daha doğrusu, buna məcbur olurlar. Müvafiq orqanlar adamlar qeyri-leqal işə cəlb edənlərə qarşı sərt cəza tətbiq etsə də, belə halların qarşısını almaq hələlik mümkün olmayıb. Məsələn, Gürcüstandan gedən qeyri-leqal mühacirlərdən biri bizimlə söhbətdə gecələr böyük bir mağazada işləməyə məcbur olduğunu dedi. O, mağaza bağlanandan sonra işə gedir, səhərə qədər burada təmizlik işləri ilə məşğul olurdu. Söhbət zamanı aldığı haqqın məbləğini deməsə də, bu pulun ailəsini saxlamağa kifayət etdiyini bildirdi.

ABŞ-a gələn əcnəbilər, təbii olaraq, ingilis dilində az-çox danışmağı bacarırlar. İspan dilində danışmaq da ABŞ-a gələnlərin köməyinə çatır, hətta elə bu dili bilmək də kifayət edir. Çünki bu məmləkətdə ispan dili, demək olar ki, ikinci dil sayılır. Belə ki, aeroportlarda, dəmir yolu vağzallarında və bir çox digər ictimai yerlərdə elanlar həm ingilis, həm də ispan dilində verilir.

Beynəlxalq telefon danışıqları zamanı operator sifarişçidən ingilis, yoxsa ispan dilində danışmaq istədiyini soruşur.

Bununla belə, Amerikada dil məsələsinə bir qədər loyal münasibət var. İngilis və ya ispan dilini zəif bilənlərə heç kim həqarətlə yanaşmır, gülmür. Əksinə, müxtəlif xidmət sahələrində insanlar belələrinə lazımi köməklərini əsirgəmirlər. ABŞ vətəndaşlarının ingilis dilindən savayı, özgə bir dil bilməmələrini isə amerikalılar özləri də təqdir etmirlər. Onlar bir neçə əcnəbi dil bilən insanlara həsədlə baxır, belə adamlara hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, bu ölkədə dil bilməklə bağlı maraqlı bir lətifə də yayılıb. Həmin lətifənin məğzi belədir:

Sual: Üç dil bilən adama nə deyirlər?

Cavab: «Trilingual", yəni üçdilli.

Sual: İki dil bilənə nə deyirlər?

Cavab: «Bilingual», yəni ikidilli.

Sual: Bəs bir dil bilənə nə deyirlər?

Cavab: «American", yəni amerikalı!

Əcnəbilərlə bağlı söhbətimiz elə təsəvvür yaratmasın ki, ABŞ-a gələn bütün əcnəbilər çətinliklə üzləşir, yaxud işləyə bilmirlər. Bu ölkədə qanuni yolla biznes quran, özünün müstəqil şirkətini yaradan və kifayət qədər böyük uğurlar qazanan əcnəbilər az deyil.

İsveçrədən ABŞ-a gəlib Qrinvill şəhərində çörək biznesi ilə məşğul olan Tomas Buhlerin sözlərinə görə, Birləşmiş Ştatlarda biznes fəaliyyətinə başlamaq və bizneslə məşğul olmaq çətin deyil. Sözsüz ki, federal hökumətin, ABŞ immiqrasiya xidmətinin, sığorta şirkətlərinin qoyduğu qaydalara, bir sözlə, bu ölkənin qanunlarına uyğunlaşmalısan. Amma deyək ki, İsveçrə ilə müqayisədə burada lisenziya üçün daha çox sənəd tələb edilir. Özü də bütün sənədləri pulla almalısan. Söhbət, təbii ki, rüşvətdən getmir. Hər bir kağız üçün federal hökumətin, ştat hökumətinin, yaşadığın şəhərin büdcəsinə pul köçürməlisən. Tomasın dediyinə görə, Avropada belə deyil. Məsələn, İsveçrədə bizneslə məşğul olmaq istəyən şəxsin təhsili, işlədiyi sahədə qazandığı təcrübə ona lisenziya almaq hüququ verir.

ABŞ immiqrasiya xidmətinin bizneslə məşğul olmaq istəyən əcnəbilərdən bir tələbi də var: gərək işləmək istədiyin ərazidə tamam yeni fəaliyyət sahəsi ilə məşğul olasan. Əks halda «təkrarçı sahibkarlıq» fəaliyyətinə icazə verilmir.

Bununla belə, statistik hesablamalara görə, Amerikada kasıblıq həddində yaşayanların əksəriyyətini buraya xarici ölkələrdən gələnlər təşkil edir. Bu ölkədə təkcə Latın Amerikasından 35 milyon nəfərdən çox mühacir yaşayır. Bunun 20 milyondan çoxunun Meksikadan olduğu bildirilir. O da hesablanıb ki, ABŞ-da hər 5 mühacirdən biri kasıblıq həddində yaşayır.

Bəs kasıblıq həddi deyəndə amerikalılar nəyi nəzərdə tuturlar? ABŞ-da dörd nəfərdən ibarət ailənin ümumi illik gəliri 17 min dolları keçmirsə, belə ailə yoxsul sayılır.

Qeyd edək ki, ABŞ-da minimum əmək haqqı saatda 6,5 dollar sayılır. Belə əməkhaqqı alan adamlar yoxsul hesab edilir. Xatırladaq ki, bu ölkədə minimum əməkhaqqı ilk dəfə 1938-ci ildə müəyyən olunub və həmin vaxt bu rəqəm saatda 25 sent təşkil edib.

Amerika mətbuatında verilən məlumatlara əsasən, müqayisə üçün qeyd edək ki, bu ölkədə ən yüksək əməkhaqqı alanlar Konnektukut ştatında yaşayırlar - ştatda orta illik əməkhaqqı 40 min dollardır. Ən az əməkhaqqı isə Missisipi ştatında qeydə alınıb: orta illik göstərici - 21 min dollar. Kaliforniya, Kolorado, İllinoys, Nyu-York, Nyu-Cersi və Merilend ştatları sakinlərinin əməkhaqqı digər ştatlarda olduğundan yüksək sayılır. Montana, Aydaho, Yuta və s. ştatlarda dolanışıq səviyyəsinin aşağı olduğu bildirilir. ABŞ Ticarət Nazirliyinin məlumatına görə, 2000-ci ildə orta statistik amerikalı 28 min 272 dollar qazanıb. Ağdərili kişilər həmin ildə orta hesabla 30 min, qara dərililər isə 22 min dollar qazana biliblər. Latın Amerikasından gəlmiş əcnəbilərin orta illik qazancı təxminən 20 min dollar olub.

Hökumətin həyata keçirdiyi müvafiq sosial siyasət nəticəsində ötən əsrin 90-cı illərində bu ölkədə yaşayan yoxsulların sayı kəskin şəkildə azalmağa başlayıb: əgər 1993-cü ildə ölkə əhalisinin təxminən 34 milyonu, yaxud 14,4 faizi yoxsulluq həddində yaşayıbsa, 2000-ci ildə bu rəqəm müvafiq olaraq, 26,4 milyon və 10,7 faiz təşkil edib.

Göründüyü kimi, Amerikada həyat şəraiti nə qədər yüksək olsa da, bu məmləkətdə də kifayət qədər yoxsullar var. Təsadüfi deyil ki, biz sinəsinə «Evsizəm» plakatı yazıb Vaşinqton

küçələrini gəzən insan da gördük, Ağ evin yüz metrliyində əl açıb dilənən amerikalı da!

Deməli, Amerikada da kasıblar və evsizlər problemi öz həllini tapmayıb. Amma Amerikada bu və ya digər səbəbdən evsiz-eşiksiz qalan insanlar, bir qayda olaraq, bizim adət etdiyimiz şəraitdə - vağzallarda, yaxud küçələrdə gecələmirlər.

## "EVSİZLƏR SIĞINACAĞI" VƏ "PENSİYA İCMASI"

Bu ölkənin əksər şəhərlərində «Evsizlər sığınacağı» ("Homeless Shelter") deyilən qurumlar fəaliyyət göstərir. Belə evlərdən birində olarkən izah etdilər ki, ev-eşiyi olmayan vətəndaşlar gecələr burada müvəqqəti qalır, ayrı-ayrı qeyri-hökumət təşkilatları onların işlə təmin olunmasına, bəzi hallarda isə hətta yaşayış yeri tapmasına köməklik göstərir. «Evsizlər sığınacağı» yerli vaxtla axşam saat 6-da açılır. Gecələməyə yeri olmayanlar bura gəlir, qeydiyyata alınır və içəri girmək hüququ qazanırlar. Belə evlərdən birində müşahidə aparmaq imkanı qazandığımız üçün deyə bilərik ki, bura gələnlər içəri daxil olarkən xüsusi monitordan keçirlər. Sığınacağın rəhbərliyi bu yoxlamanın səbəbini izah edərkən bildirdi ki, bəziləri içəriyə spirtli içki, yaxud narkotik maddə gətirirlər. Yoxlama belə halların qarşısını almaq üçündür.

«Evsizlər sığınacağı»nın içərisi ikimərtəbəli çarpayıları ilə hərbi kazarmaları, yaxud həbsxana kameralarını xatırladır. Doğrudur, içəridə televizorla təchiz olunmuş ümumi yemək otağı, yuyunmaq və paltar yumaq üçün şərait və s. də var.

Bəzən bu evlərə uşaqlı ailələr də gəlir.

Belə sığınacaqlara pənah gətirənlər səhər saat 8-ə qədər burada qalıb, sonra sığınacağı tərk etməlidirlər. Burada evsizlərə şam və səhər yeməyi verilir. «Sığınacaq»da yalnız 120 gün qalmaq olar. Bu müddətdə onlara iş tapmaqda müəyyən köməklik göstərənlər tapılır. İş tapmayanlar isə başqa şəhərlərə üz tuturlar...

«Evsizlər sığınacağı»nda olarkən sakinlərlə söhbət etmək cəhdimiz alınmadı. Onlardan heç biri əcnəbi jurnalistin suallarını cavablandırmaq istəmədi. Bu adamların sosial vəziyyətinin son dərəcə ağır olmasına baxmayaraq, qurumun rəhbərliyi də kimisə müsahibə verməyə məcbur edə bilməzdi. Lakin son anda «sığınacağ»ın sakinlərindən biri «insafa gələrək» özü haqqında məlumat verdi: «Şimali Karolina ştatına Konnektikutdan gəlmişəm. İş axtarıram. Iki həftədir burdayam, daha iki həftə də qalmaq istəyirəm ki, bəlkə iş tapa bildim. Ailəm, uşaqlarım var, onları dolandıra bilmirəm».

Biz «Evsizlər sığınacağı»nda olduğumuz gün orada təxminən 40 nəfər «qonaq» vardı...

Amerikada belə evlərə ayrı-ayrı qeyri-hökumət təşkilatları, icmalar və könüllülər yardım edir. Bu yardım aksiyalarından birinin iştirakçısı və şahidi olduğumuz üçün qeyd edək ki, aksiyanı qeyri-hökumət təşkilatı kilsə ilə birgə təşkil etmişdi. «Evsizlər sığınacağı»na yardım aksiyası barədə reklam işi aparılmış və aksiyaya dəstək vermək istəyənlər kilsəyə dəvət olunmuşdu. Bura könüllü gələn insanlar və ayrı-ayrı təşkilatların nümayəndələri öz ianələrini təqdim edir və kilsədə təmənnasız verilən şorbaya qonaq olurdular. Təbii ki, bura yardım etmək məqsədilə gələn adamların həmin şorbaya ehtiyacı yox idi, sadəcə olaraq, şorba verilməsi rəmzi xarakter daşıyırdı. Aksiya təşkilatçılarının dediyinə görə, uzun illər bundan əvvəl Amerikada varlı adamlar kömək niyyətilə vaxtaşırı kasıblara şorba verirmiş. Burada şorba vermək də, bir növ həmin ənənəni yada salmaq üçündür...

Qeyd edək ki, Amerikada pensiyaçılar üçün də xüsusi evlər fəaliyyət göstərir. «Pensiya icması» ("Retirement Community") adlanan qurumlara gələnlər, demək olar ki, ömürlərinin sonuna qədər burada qalırlar. Lakin pensiyaçıların heç də hamısı belə evlərin xidmətindən istifadə edə bilmir. Çünki «Pensiya icması»na qəbul olunmaq üçün müəyyən şərtlər var...

50 ildən çox fəaliyyət təcrübəsi olan bu icmaların xidmətindən pensiyaya çıxan amerikalılar istifadə edirlər. Özü də icmaya yaşı 55-dən yuxarı olanlar qəbul olunur.

«Pensiya icması»nda görüşdüyümüz 84 yaşlı qadın etiraf etdi ki, heç vaxt özünün evi olmayıb. Kənd yerində doğulub, şəhərə gəlib və həmişə kirayədə yaşayıb. Ömrünün sonuna qədər də burada qalmaq niyyətindədir.

Qadının sözlərindən belə anladıq ki, ailə qurmayıb. Dediyinə görə, cavanlıqda uzun illər müəllimlik edib, sonralar isə 12 il stadionda işləyib və qocalığını təmin etmək üçün kifayət qədər pul qazana bilib. Lakin ev almağa ehtiyac duymayıb. Nə qədər ki, özü-özünü saxlayıb, kirayədə yaşayıb. Müəyyən yaşa çatdıqdan sonra - hiss edəndə ki, ona həkim lazım ola bilər, yıxılanda qolundan tutana ehtiyac yarana bilər, - onda üz tutub «Pensiya icması»na. Buradakı həyat tərzi isə onu qane edirdi. Dedi ki, icmada hər şey - hamam da, yemək otağı da, ehtiyac olsa, həkim də yaxınlıqdadır. Onun qənaətinə görə, bu yaşda insana daha nə lazımdır ki?

O, burada özü kimi qocalarla söhbət edir, qəzet oxuyur, hər cümə günü isə icmanın istirahət otağına düşür və təxminən 3 saat orada yaşıdlarına ucadan bədii əsər oxumaqla vaxtını keçirirdi. «Pensiya icması»nda yaşamağa görə isə ayda 1400 dollar ödəyirdi. Və Allaha şükür edirdi ki, vaxtında işləyib və indi burada qalmağa imkan verən pensiya alır.

«Pensiya icması»na kimlər qəbul olunur?

Müdiriyyətdən aldığımız məlumata görə, bura gələnlər sağlam və müstəqil yaşamaq imkanına malik olmalıdır. Müstəqil yaşaya bilməyənlər qulluqçunun xidmətindən yararlana bilər təbii ki, qulluqçunun da haqqını ödəmək şərtilə.

«Pensiya icması»nda yaşamaq üçün başlıca şərt isə buranın xərclərini ödəməyə pulun olmasıdır. Qocaları qəbul edərkən onun qalacağı illər ərzində buranın otaqlarına, müalicə və yeməyinə görə xərcləri ödəyə biləcəyinə əminlik yaradan sənədlər təqdim olunmalıdır. Şəxsi evin mövcudluğu barədə sənədlərin, yaxud müvafiq bank hesabının olması bura qəbul üçün kifayət edir. Bu şərtlərə uyğun olmayanlar, daha konkret desək, pulsuzlar «Pensiya icması»na qəbul olunmur.

Qaldıqları şəraitdən asılı olaraq, qocaların ödədiyi haqq da müxtəlifdir. Tək qalmaq istəyənlərin, yanında qulluqçu saxlayanların xərci daha çox çıxır.

Məsələn, yuxarıda haqqında söhbət açdığımız qadın ayda 1400 dollar ödəyirdisə, bizim oradakı dostlarımızdan birinin 93 yaşlı atası ikiotaqlı mənzildə qulluqçu ilə yaşayır və buna görə onun qızı ayda 2400 dollar ödəyirdi. Bəs ayda bu qədər pulun başından keçən qadın niyə atasına özü qulluq etmir? Bu, artıq sırf amerikalı psixologiyasına aid məsələdir. Qadın hesab edir ki, atası burada yaşıdları ilə həmsöhbət olur, daim həkim nəzarəti altında yaşayır, vaxtlı-vaxtında yeməklə təmin olunur və s. İşləyən qızı isə evdə ona bu şəraiti yarada bilmir.

Biz «Pensiya icması»na baş çəkdiyimiz gün orada 200 nəfərə yaxın qoca guşənişin idi...

Amerikada evsizlərə, qocalara münasibət kimi, fiziki cəhətdən qüsurlu şəxslərə münasibət də bizdəkindən fərqlənir. Bu fərqin fəlsəfəsi isə belədir: fiziki cəhətdən qüsurlu şəxs də cəmiyyətin üzvüdür və onun da cəmiyyətdəki bütün hüquq və azadlıqlardan sərbəst istifadə etmək haqqı var.

Bizdə fiziki cəhətdən qüsurlu şəxslərə dövlət tərəfindən müxtəlif yardımlar olunur, onlar müvafiq pensiya ilə təmin edilirlər. Lakin özlüyündə bu yardımlar həmin şəxsləri bir növ cəmiyyətdən təcrid edir, daim onların yararsızlığını xatırladır. Amerikada da əlillərə və fiziki cəhətdən qüsurlu şəxslərə dövlət yardım edir. Amma bu məmləkətdə dövlət, birinci növbədə, həmin şəxslərə başqaları ilə birlikdə işləmək, təhsil almaq hüququ verir və buna şərait yaradır ki, fiziki cəhətdən qüsurlu şəxslər özləri özlərini dolandıra bilsinlər, kiməsə möhtac olmasınlar. Ona görə də Amerika universitetlərinin auditoriyalarında nəinki əlil arabasında gəzən tələbələr, hətta müəllimlər də görmək adi haldır. Bu məmləkətin böyük ticarət obyektlərində xidmət fəaliyyətini əlil arabasında yerinə yetirən adamlar görmək də təəccüb doğurmur.

Bütün bu məsələlər 1990-cı ildən fəaliyyətdə olan əlillərin hüquqlarının müdafiəsi haqqında ABŞ qanunu (Americans with Disabilities Act) ilə tənzimlənir. Həmin qanunun tələbinə görə, ABŞ-da fiziki cəhətdən qüsurlu şəxslər sağlam adamlarla bərabər hüquqlara malikdir.

Məsələn, bizdə adətən lift beş mərtəbədən hündür olan binalarda qoyulur. Amerikada isə bir mərtəbədən hündür olan bütün ictimai binalarda lift qoyulmalıdır ki, əlillər istifadə edə bilsinlər. Qanunun tələbinə əsasən, hər bir ictimai binada avtomatik açılan xüsusi qapılar olmalı, ictimai binalara əlil arabasında daxil olmaq üçün giriş olmalıdır.

ABŞ-da bütün sərnişin avtobusları əlil arabasını avtobusa qaldırmaq üçün xüsusi qurğularla təmin olunur. Əgər daya nacaqda əlil varsa, sürücü səbrlə həmin mexanizmi işə salır və əlili öz arabası ilə birlikdə avtobusa qaldırır.

İstənilən dövlət idarəsinin və ya mağazanın yanında mütləq əlillərin maşın saxlaması üçün dayanacaqlar qoyulur. Özü də belə dayanacaqlar idarəyə girişin lap yaxınlığında olmalıdır.

Bütün bunlar yuxarıda adını çəkdiyimiz qanunun tələbidir. Həmin qanun əlillərin işə götürülməsi problemini də həll edib. İndi Amerika qanunvericiliyinə görə, sağlam adamlarla fiziki cəhətdən qüsurlu şəxslərin işə və ya oxumağa qəbulunda da heç bir fərq qoyulmur. Məsələn, qulağı zəif eşidən şəxsi bu qüsuruna görə universitetə qəbul etməmək olmaz. Həmin şəxs universitetə qəbul tələbinə cavab verirsə, buyursun, oxusun. Universitet onu başa düşdüyü

şəkildə öyrətməyə borcludur. Dərslər lal və ya kar tələbələrə xüsusi işarələrlə öyrədilməlidir. Təsadüfi deyil ki, bu ölkənin ali məktəblərində fiziki cəhətdən qüsurlu şəxslərlə işləmək üçün müəllimlər yetişdirən xüsusi departamentlər fəaliyyət göstərir.

Bir məqamı da vurğulayaq ki, təhsil haqqı ödəməkdə fiziki cəhətdən qüsurlu şəxslərə heç bir güzəşt olunmur. Amerikanların qənaətinə görə, belə güzəşt həmin şəxslərin ləyaqətinə toxuna bilər.

Əlillər haqqında Amerika qanunvericiliyi idman salonlarının və stadionların da əlillərin istifadəsi üçün uyğunlaşdırılmasını tələb edir. ABŞ-da olarkən əlillərin işi üzrə ekspert tanışımız bununla əlaqədar ibrətamiz bir misal çəkdi. Onun sözlərinə görə, 1997-ci ildə Havay Universiteti yeni tikilmiş beysbol stadionunu istifadəyə verməyə hazırlaşarkən, açılış mərasimini təxirə salmalı olublar. Ştatın əlillər üzrə komissiyası son anda xəbər tutub ki, stadionun arxitektoru əlil arabalarını tribunalara qaldırmaq üçün qaldırıcı qurğu quraşdırmağı unudub. Ona görə də stadionun açılış mərasimi qanun pozuntusunun aradan qaldırılmasına qədər təxirə salınıb...

Onu da qeyd edək ki, əlillərin təminatı üçün çəkilən əlavə xərclər federal və ştat büdcəsi, eləcə də könüllü yardım və ianələr hesabına maliyyəşdirilir. Əlillər üçün normal şərait yaradılmasını təmin etməyən qurumlar büdcə yardımından məhrum olunur.

## SADƏ AMERİKALI NECƏ YAŞAYIR?

Bu suala cavab vermək üçün evində kirayədə qaldığımız xanımın - Syuzan Ludekkenin yaşayış tərzi barədə danışmaq kifayət edər. Qeyd edək ki, Amerikada da kifayət qədər pul qazana bilməyən şəxslər öz evlərində kirayənişin saxlayırlar. Kirayə haqqı hər bir şəhərdəki yaşayış səviyyəsindən, eləcə də evdəki şəraitdən asılı olaraq müxtəlifdir. Deyək ki, Nyu-Yorkda kirayədə qalmaq üçün ayda 1000 dollar ödəməlisənsə, əyalət şəhərlərində, xüsusən kiçik şəhərlərdə bu xərc 300-500 dollara başa gələ bilər. Qrinvilldə biz, kommunal xərclər nəzərə alınmamaqla, hər ay ev sahibinə 400 dollar ödəyirdik.

Evində kirayədə qaldığımız Syuzan peşəkar rəssam kimi Şərqi Karolina Universitetinin incəsənət departamentində dərs deyirdi. O, ildə universitetdən 38 min dollar əməkhaqqı alır, orta hesabla ayda təxminən 3150 dollar qazanırdı. Bəs ayda bu qədər əməkhaqqı alan müəllim niyə evində kirayənişin saxlayır?

Qeyd edək ki, amerikalılar adətən geniş evlərdə yaşamağı xoşlayırlar. Bu da yalnız onların maddi imkanlarının yüksək olması ilə bağlı deyil. Hətta imkanı olmayanlar da ev alanda bu amili nəzərə alır, daha doğrusu, bu amili üstün tuturlar. Halbuki belə evlərin xərci də baha olur. Syuzan ikimərtəbəli geniş villanı 7 il əvvəl bank krediti hesabına təxminən 100 min dollara almışdı. Bu pul bankdan götürüldüyü üçün faizi ilə birlikdə həmin rəqəm bir az da artmışdı və dediyinə görə, daha 7 il də banka pul ödəyəcəkdi. Özü də nə az, nə çox - ayda təxminən 1200 dollar!

Əslində Syuzanı geniş imkanlı amerikalı saymaq olmaz. Bu ölkədə ildə 38 min dollar qazanmaq hələ yaxşı yaşamağa zəmanət vermir. Bununla belə, o, villasında tək yaşayırdı. 22 yaşlı tələbə oğlu isə başqa yerdə - kirayədə qalır və həmin kirayə haqqını da ana ödəyirdi. Bizim meyarlarla, bu, paradoks sayılmalıdır. Amerika meyarlarına əsaslanan Syuzanın özü isə bunu normal sayır və deyirdi ki, oğlum artıq böyüyüb və sərbəst yaşamağı öyrənməlidir. Onun sözlərinə görə, bu yaşda oğulun ana ilə bir yerdə qalması qadının özünün də sərbəst yaşayışına maneçilik törədir.

Təbii ki, tək qadın ikimərtəbəli villa əvəzinə, daha kiçik ev alıb daha az borca düşə bilərdi. Amma Syuzan bizim çıxardığımız bu nəticə ilə razılaşmadı. Onun qənaətinə görə, insan geniş və rahat evdə sərbəst yaşamalıdır: «Neyləyim ki, maddi vəziyyətimlə əlaqədar evdə kirayinişin saxlamağa məcburam. Evə görə banka borclu olmaq isə ikinci dərəcəli və həll olunan məsələdir...»

Syuzanın dediyinə görə, federal və yerli büdcəyə vergiləri ödədikdən sonra o, ayda 3150 yox, təxminən 2000-2200 dollar əməkhaqqı alır. Bundan başqa, tibbi sığortaya ildə 300 dollara qədər pul ödəyir və bu, hələ güzəştli sığorta sayılır. Çünki sığortanın bir hissəsini universitet ödəyir. Su, qaz, kanalizasiya yə digər kommunal xərcələrinə ayda təxminən 320 dollar verir. İşıq pulu isə ayda, havadan asılı olaraq, 100 dollardan 400 dollara qədər pul aparır. Ayda təxminən 50 dollar telefon xərclərinə gedir. Yeməyə isə 400 dollara qədər piri xərcləyir.

Bütün bunlarla yanaşı, onun bir təsəllisi vardı: «Amerikalıların əksəriyyəti maşın sürür. Mənim isə heç vaxt sürücülük vəsiqəm olmayıb. Bu da böyük qənaətdir. Maşını olan adamlar həftədə benzinə azı 25 dollar xərcləyirlər».

Syuzan işə velosipedlə gedir, həftəlik bazarlıq işində isə maşını olan dostlarının köməyindən bəhrələnirdi...

Göründüyü kimi, həmsöhbətimiz öz yaşayış səviyyəsindən razı deyildi. Ona görə də əlavə pul qazanmaq üçün universitetin yay kurslarında da dərs deyir, özünün çəkdiyi rəsm əsərlərini satışa çıxarmaqla da müəyyən gəlir əldə edirdi. Dediyinə görə, rəsm əsərlərinin birini orta hesabla 500 dollara sata bilir və bir çox problemlərini də bu yolla həll edir...

## AMERIKADA JURNALISTIKA VƏ JURNALİSTLƏR

Amerikada jurnalistika və jurnalistlərə münasibət bizdə-kindən tamamilə fərqlidir. Bu ölkədə jurnalistika ən nüfuzlu peşələrdən biri sayılır, jurnalistlər də vəkil və həkimlərlə bərabər əhalinin ən yaxşı yaşayanlar kateqoriyasına aid edilir.

Qrinvill şəhərində nəşr olunan "The Daily Reflektor" qəzetinin redaksiyasında söhbət zamanı da bu həqiqətə əmin olduq. 100 illiyini 2003-cü ildə qeyd edən bu qəzetin xəbərlər departamentinin rəhbəri ilə söhbətin sonunda jurnalistlərin aldığı əməkhaqqının məbləği ilə maraqlandıq və xanım həmkarımız bu suala diplomatik cavab vermək istədi: «Bizdə departament redaktorlarının bir illik qazancı ən bahalı maşın almağa imkan verir». Sonra isə fikrini bir az da dəqiqləşdirdi: «İldə təxminən 60-70 min dollar»...

Populyar və təcrübəli jurnalistlərin əməkhaqqı da yüksəkdir, sıravi müxbirlər isə daha aşağı məbləğdə əməkhaqqı ilə kifayətlənməli olurlar.

Həmkarımızın dediyinə görə, onlar qonorar yox, ancaq maaş alırlar. Qəzet əməkdaşlarını yazı yazmağa qonorarla həvəsləndirmək praktikası tətbiq olunmur.

Müxbirin hər gün redaksiyaya gəlib axşama qədər iş yerində olmasına da ehtiyac yoxdur. O, hadisə yerində əldə etdiyi faktlara əsasən, materialı evində yazaraq elektron poçtla da redaksiyaya göndərə bilər. Digər əməkdaşların da məcburi qaydada iş gününün sonuna qədər redaksiyada oturması tələb edilmir. Əsas tələb redaksiya tapşırığını yerinə yetirmək, özü də yüksək səviyyədə yerinə yetirməkdir.

Qeyd edək ki, Amerika qəzetlərinin gəliri əsasən reklam hesabına formalaşır və həmin vəsait yüksək əmək haqqına zəmanət verir. Həm də bu ölkədə qəzet redaksiyası istehsal və xidmətlərlə məşğul olan müvafiq şirkətlərin tərkibində, lakin müstəqil struktur bölməsi kimi fəaliyyət göstərir.

Amerikalı həmkarlarımızın yüksək əməkhaqqı ilə təmin edilməsi bu məmləkətdə jurnalistlərin ictimai rəyə təsir imkanlarının çox böyük, ictimai rəyə təsirin qiymətinin isə xeyli baha olduğunu göstərir.

Ona görə də amerikalılar jurnalist peşəsinə xüsusi hörmətlə yanaşırlar. Bu məmləkətdə harada yaşamasından asılı olmayaraq, jurnalist nəinki nüfuzlu peşə sahibi, həm də hər şeydən xəbərdar və məlumatlı adam sayılır. Bu münasibətin bariz nümunəsi kimi bir faktı qeyd etmək istəyirik.

Bir axşam qaldığımız evə dönərkən, telefonun yaddaşına göndərilmiş mesajdan məlum oldu ki, Şərqi Karolina Universitetinin siyasi elmlər departamentinin rəhbəri bu şəhərdə azərbaycanlı jurnalistin «peyda olmasından» xəbər tutub və onu departamentin tələbələri qarşısında Azərbaycan barədə mühazirə oxumağa dəvət edir. Görüşümüz zamanı o, məqsədini belə izah etdi ki, tələbələrimiz dünyanın əksər ölkələrində gedən ictimai-siyasi proseslərdən xəbərdardırlar; lakin kiçik ölkələrin, xüsusən sabiq SSRİ-nin dağılmasından sonra müstəqillik əldə etmiş dövlətlərin tarixinə maraq böyükdür və tələbələrin bu sahədə bilgiyə ehtiyacı var.

Qərara aldıq ki, mühazirəmiz Azərbaycanın müstəqillik tarixini, Dağlıq Qarabağ problemini və Xəzərin neft ehtiyatlarının Qərb şirkətləri ilə birgə istismarı məsələlərini əhatə etsin. Təxminən bir saata qədər davam edən söhbətə tələbələrlə yanaşı, müəllimlər də təşrif buyurmuşdu və axırda xeyli suala da cavab verməli olduq.

Amerikanın şərqinə yayımlanan "WNCT" (amerikalılar qısaca "9-cu kanal» deyirlər) televiziyasının əməkdaşları üçün isə Səddam Hüseynin həbsinə və ümumiyyətlə, İraq müharibəsinə azərbaycanlı jurnalistin münasibətini öyrənmək maraqlı görünmüşdü. Kanalın əməkdaşı ilə söhbətimiz xəbərlər proqramında nümayiş etdirildi və bunu da ABŞ-da jurnalist sözünə ictimai marağın daha bir təzahürü saymaq olardı.

Müsahibənin hazırlanması zamanı Amerika jurnalistikasının bir maraqlı cəhəti də diqqətimizi

cəlb etdi. Vədələşdiyimiz vaxt evdə oturub televiziya əməkdaşlarını gözləyirdik. Bu vaxt həyətdə televiziyanın maşını dayandı. Sürücü düşüb maşından kamera və digər avadanlıqları götürərək, aparıcı qızla evə daxil oldu. Belə başa düşdük ki, Amerika televiziyasının operatoru həm də sürücülük edir.

Müsahibə zamanı operatorun tez-tez söhbətə «müdaxilə etməsinin», aparıcı ilə bərabər suallar verməsinin şahidi olduq. Axşam isə xəbərlər proqramına baxanda gündüz sürücülük və operatorluq edən həmin oğlanı səliqəli geyimdə, tamam başqa ampluada gördük: demə, bu televiziya şirkətində o, həm də xəbərlərin əsas aparıcılarından biri imiş...

Amerikada jurnalistlər xüsusi imtiyaza malik olmaqla yanaşı, müəyyən məhdudiyyətlərlə də barışmağa məhkumdurlar. Bu məhdudiyyətlər isə ölkədə insan hüquqlarına daşlaşmış hörmətlə bağlıdır. Məsələn, amerikalı telejurnalist kütləvi tədbirlər istisna olmaqla, hər bir digər halda insanı kamerasının obyektivinə salmaq üçün onun icazəsini almalıdır. Özü də bu icazə çox vaxt şifahi yox, yazılı şəkildə rəsmiləşdirilir. Bu məqsədlə xüsusi icazə müqaviləsi formaları var. Jurnalist çəkmək istədiyi adamın həmin müqaviləyə imza atmasına nail olmalıdır. Bu zaman müsahibə verən tərəf pul da tələb edə bilər. Ona görə də sən müsahibinə heç olmasa, rəmzi məbləğ - 1 dollar ödəməyə hazır olmalısan.

İcazə müqavilələrindən birinin qısa məzmunu: «Mən səsimin, adımın və imicimin müxtəlif mexaniki və elektron vasitələrlə çəkiləcəyini və yazılacağını anlayıram və... prodüsserə, onun işçilərinə bu işdə heç bir məhdudiyyət qoymuram». Müqavilənin başqa bir bəndində isə deyilir ki, «çəkilmiş material prodüsserin öz istəyinə uyğun olaraq istifadə edəcəyi şəxsi mülkiyyətidir». Bizə bürokratik yazışma nümunəsi kimi görünən bu müqavilənin mahiyyətini Şərqi Karolina Universitetində jurnalistika kadrları hazırlayan departamentin müəllimi belə izah etdi: «Əgər kütlə arasında çəkiliş aparıb, kimdənsə nəsə soruşursansa, icazə vərəqəsinə ehtiyac yoxdur. Amma kimdənsə konkret müsahibə götürürsənsə, icazə vərəqəsi vacibdir. Bütün hallarda icazə vərəqəsinin imzalanması jurnalisti də, operatoru da, rejissoru da gələcəkdə ortaya çıxa biləcək problemlərdən xilas etmək üçündür. Elə hallar olur ki, müsahibə verən adam evində çəkilişlə razılaşır, amma icazə vərəqəsini imzalamır. O, sonradan iddia qaldıra bilər ki, siz mənim evimi çəkibsiniz, film yaradıbsınız və ondan gəlir götürübsünüz».

Biz Amerika həyat tərzinə dair sənədli filmin çəkilişi zamanı icazə vərəqəsindən istifadənin əyani şahidi olduq. Növbəti çəkilişi xəstəxanada aparırdıq və təbii ki, hər şey qabaqcadan razılaşdırılmışdı. Xüsusi qurğunun köməyi ilə hərəkət edən xəstələrdən birini çəkmək istəyəndə bizə bələdçilik edən həkim tələsməməyi məsləhət gördü, bildirdi ki, əvvəlcə həmin xəstənin razılığı alınmalıdır. Sonra həkim müvafiq icazə müqaviləsini xəstəyə oxuyub qol çəkdirdi və yalnız bundan sonra çəkilişə icazə verildi. Özü də söhbət fiziki cəhətdən hər hansı etiraz imkanına malik olmayan xəstədən gedir...

Başqa bir nümunə. Qrinvill şəhərində fəaliyyət göstərən məsciddə çəkiliş aparmağa icazə ala bildik və Amerika müsəlmanlarının həyatı barədə onların özləri ilə söhbət apardıq. Amma, deyək ki, Afrika mənşəli amerikalıların əksəriyyətinin bağlı olduğu baptist kilsəsində dini mərasimi müşahidə etməyə icazə versələr də, orada çəkiliş aparmaq qadağan olundu. Fikrimizcə, bu, mətbuata qoyulan məhdudiyyət nümunəsi yox, həmin dini icma rəhbərlərinin şəxsi istəyinin nəticəsi və insani hüququ idi...

Amerikada hər hansı şəxsi binanı və obyekti də onun sahibinin icazəsi olmadan çəkmək qadağandır və belə hallar jurnalistlər üçün ciddi problem yaradır. Ona görə də amerikalı jurnalistlər məhdudiyyətlərlə hesablaşmalı olurlar. Bu, həm də söz azadlığı və demokratiyanın geniş inkişaf etdiyi bir məmləkətdə jurnalistin sadə insanın şəxsi işlərinə qarışmasının, şəxsi həyatına icazəsiz müdaxiləsinin qarşısını almaq üçündür.

Bütün bunlarla müqayisədə Azərbaycanın bəzi televiziya kanallarında çalışan müxbirlərin az qala adi adamların mənzilində, hətta yataq otağında icazəsiz çəkiliş aparmaq «cəsarəti», yumşaq desək, qəribə və eybəcər görünür...

## ABŞ MÜSƏLMANLARI

Hər bir Amerika vətəndaşı dini etiqad və vicdan azadlığı məsələsində tam sərbəstdir. Amerikalıların əksəriyyəti övladlarına dini etiqad sərbəstliyi verirlər. Məsələn, amerikalı şair dostumuz Culiya Fey artıq 10 yaşına çatmış qızının gələcəkdə hansı dinə qulluq edəcəyini indidən müəyyənləşdirmək istəyirdi. Daha doğrusu, bu seçimdə övladına kömək etmək vaxtının çatdığını düşünürdü. Ananın balaya din seçməkdə köməyinin mahiyyətini isə şair dostumuz belə izah etdi: «Mən qızımı müxtəlif dinlərə sitayiş olunan kilsələrə aparıram. Onu müsəlman məscidinə də aparmaq fikrindəyəm ki, bütün dinlərlə tanış olsun və özü seçim eləsin».

İndi Amerikada islami dəyərlərə tapınan Sonya adlı tanışımız söhbət zamanı əvvəllər katolik olduğunu dedi. Bildirdi ki, yeniyetmə vaxtı valideynləri ona və bacısına din seçməkdə sərbəstlik veriblər: bacısı katolik olmağı üstün tutub, Sonya isə 14 yaşından İslamı qəbul edib.

Qrinvill məscidinə rəhbərlik edən Pakistan əsilli Səid Dar isə bizimlə söhbət zamanı bildirdi ki, dörd il əvvəl bu şəhərdə cəmi iki müsəlman ailəsi vardı, indi isə burada 300 nəfərə yaxın müsəlman yaşayır və onların əksəriyyəti cümə namazını məsciddə qılır. Ayda bir dəfə müsəlmanlar cümə namazından sonra elə məsciddə nahar edirlər: hər kəs evində hazırladığı təamlardan məscidə gətirir və namazdan sonra kişilər bir, qadınlar isə başqa bir otaqda eyni süfrə arxasında əyləşib nahar edirlər. Onların qənaətinə görə, bu ənənə müsəlman qardaşlığının daha da möhkəmlənməsinə xidmət edir.

Amerikah müsəlmanların dediyinə görə, onların dini seçiminə və keçirdikləri tədbirlərə heç bir müdaxilə və maneçilik yoxdur.

Biz güman edirdik ki, 2001-ci ilin 11 sentyabr terror akt-larından sonra bu məmləkətdə İslama və müsəlmanlara münasibət dəyişmiş olar. Lakin tanış olduğumuz müsəlmanlarla söhbətlər, eləcə də Amerika mətbuatında açıqlanan statistik rəqəmlər fikrimizdə yanıldığımızı sübut etdi.

Statistik məlumatlara görə, Amerikada 7 milyona yaxın müsəlman yaşayır. Son onilliklərdə Amerikada ən sürətlə inkişaf edən və yayılan din də İslam sayılır.

Mütəxəssislər bu artımın immiqrasiyanın və müsəlman ailələrində doğum səviyyəsinin yüksək olması ilə, eləcə də son onilliklərdə, ümumiyyətlə, bu ölkədə İslama marağın güclənməsi ilə əlaqələndirirlər.

Amerika qəzetlərinin yazdığına görə, 11 sentyabrdan sonra İslama tapmanların sayı xeyli artıb. Məsələn, terrordan bir il sonra «Nyu-York tayms» qəzeti bu nəticəyə gəlib ki, «11 sentyabr hadisələrindən sonra 34 min amerikalı İslam dinini qəbul edib və bu, İslamın Amerikada mövcud olduğu bütün illər ərzində ən böyük rəqəm olub».

«National Post» qəzetinin ekpertlərindən birinin verdiyi məlumatda isə deyilirdi ki, ABŞ-da orta hesabla hər il 25 min nəfər müsəlmanlığı qəbul edir.

Bütün bunlara baxmayaraq, Amerikada heç də hamı bu dövlətin həyata keçirdiyi siyasətlə razı deyil...

## NARAZI AMERİKALILAR

ABŞ-ın ayrı-ayrı şəhərlərinə qısamüddətli səfərləri istisna etsək, Amerikada olduğumuz ayların çoxunu sakitliyinə heyran qaldığımız Qrinvill şəhərində keçirmişdik. Lakin bir bazar ertəsi bu sakit şəhərdə də, necə deyərlər, «sükut pozuldu». Səhər saat 10-dan başlayaraq, əllərində müxtəlif ölçülü plakatlar tutan adamların qışqırığı bütün şəhəri başına götürdü. Öndə gedən bir nəfər səsgücləndirici vasitəsilə «Sən nə istəyirsən?» - deyə sual verir, qalan adamlar isə xorla qışqırırdılar: «Azadlıq!»

Əslində həmin gün Amerikada bayram günü idi. Ölkə əhalisi istirahət edirdi. Bəs bu bayram günü istirahətini unudub küçələrə çıxanlar kim idi və onlar nədən narazı idi?

«Bayram günü» ifadəsini xüsusi vurğulamağımız təsadüfi deyil. Sadə amerikalıların çox sevdikləri bir abbreviatura var -«TGTF». İngiliscə açması belədir: «Thanks for God today is Friday». Bu ifadənin bizim dilə tərcüməsi isə bu cür səslənir: «Allaha şükür ki, bu gün cümədir». Yəni həftə başa çatır və istirahət günləri gəlir.

Deməli, dünyanın hər yerində olduğu kimi, Amerikada da sadə adamlar istirahət günlərini çox sevirlər. Ona görə də iki günlük istirahətdən sonra başlayan bazar ertəsi amerikalılar üçün də «ağır» gün sayılır. Amma bu məmləkətdə yaşayanlar ildə altı bazar ertəsini də istirahət gününə «çevirməklə», bir növ «ağır» günlərin saymı azaltmağa nail olublar.

Belə ki, Amerika Birləşmiş Ştatlarında bütün ölkəni əhatə edən federal bayramlar, demək olar ki, yoxdur. Ölkənin 50 ştatının hər biri hansı günləri bayram etmək barədə özü qərar çıxarır. Amma bu ölkədə 10 bayram günü var ki, ABŞ qanunvericiliyinə əsasən, bu bayramlar bütün ştatlarda qeyd edildiyi üçün, həm də ümummilli, federal və ya dövlət bayramları hesab olunur.

Bunlar Yeni il, Martin Lüter Kinq günü, Prezidentlər (Corc Vaşinqtonun doğum günü) günü, Xatirə günü, Müstəqillik günü, Əmək günü, Kolumb günü, Veteranlar günü, Şükranlıq və Milad bayramlarıdır.

Maraqlıdır ki, bu bayramlardan dördü (Yeni il, Müstəqillik günü, Şükranlıq və Milad bayramları) istisna olmaqla, Amerikada istirahət günü sayılan qalan altı bayram həftənin bazar ertəsi günləri qeyd edilir. Bu da təsadüfi deyil.

ABŞ-ın 37-ci prezidenti Riçard Nikson 1971-ci ildə bir çox federal bayramların yaxın bazar ertəsi gününə keçirilməsi barədə rəsmi qərar qəbul edib. Məqsəd də bu olub ki, iki gün istirahət edən amerikalılar bazar ertəsini də işləməsinlər. Məsələn, Prezidentlər günü fevralın üçüncü bazar ertəsinə salınıb. May ayının sonuncu bazar ertəsi Xatirə günü hesab olunur. Əmək günü hər il sentyabrın birinci bazar ertəsi, Kolumb günü oktyabrın ikinci bazar ertəsi, Veteranlar günü isə noyabrın ikinci bazar ertəsi qeyd edilir.

Üstəlik, Yeni il, Müstəqillik günü və Milad bayramı bazar gününə düşəndə növbəti gün - bazar ertəsi də bayram sayılır. Bu bayramlardan hansısa biri şənbə gününə düşəndə bayramdan bir gün əvvəlki cümə günü də istirahət günü hesab edilir.

Beləliklə, 2004-cü il yanvarın 19-da Amerikada bazar ertəsinə keçirilən belə bayramlardan biri - Martin Lüter Kinq günü qeyd olunurdu. Həmin gün Corc Buş hökumətinin siyasətini tənqid etmək məqsədilə küçələrə çıxıb, «Azadlıq» hayqıranlar da Kinqin xatirəsini yad edirdilər.

Martin Lüter Kinq ötən əsrin 50-60-cı illərində Amerikada yaşayan zəncilərin insan və vətəndaş hüquqlarının bərpası uğrunda təşkil etdiyi mübarizə kampaniyasına görə, Afrika mənşəli amerikalıların ən görkəmli nümayəndəsi hesab olunur. Onun ABŞ-da irqi ayrı-seçkiliyə qarşı apardığı mübarizə öz müsbət nəticəsini verib və zəncilərin «ikinci növ» vətəndaşlar sayılmasına mərhələ-mərhələ son qoyulub. Afrika mənşəli amerikalılar yalnız ötən əsrin 50-ci illərinin sonunda ağlarla bərabər mənzil hüququ, təhsil hüququ və s. hüquqlar qazanıblar. 60-cı illərin ortalannda isə Amerika zənciləri insan hüquqları sahəsində daha bir mühüm nailiyyət əldə ediblər - onlara da seçib-seçilmək hüququ verilib.

Bu sahədə xidmətlərinə görə Martin Lüter Kinq 1964-cü ildə Nobel sülh mükafatına layiq görülüb və... 1968-ci ilin aprelində öldürülüb.

1986-cı ildə Konqresin qəbul etdiyi qətnaməyə əsasən, hər il yanvarın üçüncü bazar ertəsi ABŞ-da Afrika mənşəli amerikalıların bu liderinin xatirə günü kimi qeyd olunur. O, ABŞ-ın ilk prezidenti Corc Vaşinqtondan sonra yeganə şəxsiyyətdir ki, doğum günü ümummilli səviyyədə

bayram edilir.

Kinqin ad günündə Qrinvill şəhərində etiraz aksiyasını bir neçə təşkilat - «Cənubi xristianlara rəhbərlik konfransı», «Qaradərili adamların vəziyyətinin yaxşılaşdırılması uğrunda milli assosiasiya» və «İrqi ayrı-seçkiliyə qarşı koalisiya» təşkil etmişdi. Mitinq-yürüşün iştirakçıları (demək olar ki, əksəriyyəti zəncilər idi) səhər saat 10-un yarısından etibarən qabaqcadan müəyyən edilmiş əraziyə toplaşmağa başladılar. Tədbir iştirakçılarından əvvəl həmin yerə bir neçə polis maşını da gəlmişdi. Yürüş başlanmazdan əvvəl yüksək çinli polis əməkdaşı təşkilatçılara yaxınlaşaraq, keçiləcək marşrut barədə bir daha fikir mübadiləsi apardı.

Aksiya saat 10-da başlandı. Yürüş iştirakçılarını öndə və arxada polis maşmı müşaiyət edirdi. Lakin polis əməkdaşları heç nəyə müdaxilə etmirdilər. Təxminən bir saata qədər şəhər küçələri ilə yürüyən və xorla mahnı oxuyan, siyasi şüarlar səsləndirən aksiya iştirakçıları Amerika üçün ən mühüm hakimiyyət orqanlarından biri sayılan şəhər məhkəməsinin binası qarşısına gəldilər. Oradaca etiraz mitinqinə start verildi. Çıxış edənlər ABŞ-dakı irqi ayn-seçkilikdən, kasıb əhaliyə qarşı ədalətsizliklərdən, İraq müharibəsinin dayandırılması zərurətindən danışdılar.

Bir məqamı da qeyd edək ki, Qrinvill Şəhər Şurasının (şəhər rəhbərliyinin) üzvü olan qaradərili bir qadın - Rouz Qlouvə də yürüş iştirakçıları arasında idi və o, mitinqdə emosional bir nitq də söylədi.

Aksiyanın təşkilatçılarından biri - «Filippi» baptist kilsəsinin keşişi Rəndu Royal nə istədikləri barədə verdiyimiz suala cavabdan əvvəl dedi: «Mən xoşbəxtəm ki, Azərbaycandan olan adamlar da bizim mübarizəmizə maraq göstərirlər».

Sonra o, xatırlatdı ki, Afrika mənşəli amerikalıların köləliyə qarşı mübarizəsi neçə illərdir davam edir:

«Bu gün biz Amerika hökumətinin apardığı siyasətə etiraz edirik. Bizim iqtisadi problemlərimiz var. Təhsil sahəsində, işlə təmin olunmaq sahəsində problemlərimiz var.

Bu gün biz Martin Lüter Kinqi anır, xalqın konstitusiya hüquqlarının pozulmasına etiraz edirik. Biz hər il Afrika mənşəli amerikalılara, kasıb insanlara qarşı ölkədə baş verən ədalətsizliklərə etiraz edirik».

R.Royal «İraqın işğalına son qoyulsun» məzmunlu şüarlarla əlaqədar isə bildirdi ki, Amerika İraqa qarşı mənasız və lazımsız müharibə aparır: «Biz inanırıq ki, bu müharibə neftə maraqdan, başqa iqtisadi maraqlardan irəli gəlir. Biz əminik ki, prezidentimizin İraqa qarşı müharibəyə çağırışları yersiz və lazımsızdır».

Qeyd edək ki, təxminən bir saatlıq etiraz çıxışlarından sonra aksiya iştirakçıları şəhərin mebel mağazalarından birinin qarşısına toplaşıb, orada da piket keçirdilər. Aksiyanın təşkilatçılarından biri izah etdi ki, bir neçə gün əvvəl dörd nəfər Afrika mənşəli amerikalı bu mağazadan işdən çıxarılıb. Onlar hesab edirlər ki, bu insanlar qaradərili olduqları üçün işdən qovulublar.

Göründüyü kimi, bu cəmiyyətdə də narazılar var və haqqında söhbət açdığımız yürüş-mitinq bu narazılığın yeganə ifadəsi deyil.

Bəli, ABŞ-da da insan hüquq və azadlıqlarının pozulduğunu iddia edən insanlar yaşayır. Amma razılar da, narazılar da bu məmləkətin qanunlarına, Amerikanın dövlət tarixinə, dövlət atributlarına xüsusi rəğbət və ehtiramla yanaşır, dövlətçiliklə bağlı ən xırda məsələləri də yaddaşlarda yaşadıb nəsildən-nəsilə ötürürlər.

ABŞ-ın dövlət başçıları, onların həyat və fəaliyyətinin mühüm məqamları da ABŞ tarixinin və Amerika həyat tərzinin tərkib hissəsidir. Amerikadan bəhs edərkən bu məsələlərə də biganə qalmaq olmur...

Konstitusiyaya görə, Birləşmiş Ştatlarda doğulan, 35 yaşdan yuxarı olan və ABŞ ərazisində ən azı 14 il daimi yaşayan istənilən şəxs prezident seçilə bilər. Prezidentlik müddəti 4 ildir. Konstitusiyaya 1951-ci ildə edilmiş 22-ci düzəlişə əsasən, heç bir şəxs iki dəfədən artıq prezident seçilə bilməz.

Prezident yüksək dövlət vəzifəsini qəbul edərkən Kontitusiyanın 2-ci maddəsinin 1-ci bəndində əks olunmuş aşağıdakı məzmunda and içir: «Mən təntənəli surətdə and içirəm ki, Birləşmiş Ştatların Prezidenti vəzifəsini vicdanla icra edəcək, Birləşmiş Ştatlarının Konstitusiyasını müdafiə, mühafizə və hifz etmək üçün var qüvvəmi əsirgəməyəcəyəm».

Adətən prezident Ali Məhkəmənin sədri qarşısında and içir.

ABŞ prezidentinə «Cənab prezident» («Birləşmiş Ştatların prezidenti») deyə müraciət olunur. Prezidentə ünvanlanmış yazılı müraciətlər isə bu ünvana göndərilir: «Ağ ev, Prezidentə».

**II Hissə**

**Koloniyalardan bərabərhüquqlu ştatların ittifaqınadək**

## ABŞ DÖVLƏTİNİN SİYASİ ƏSASLARI

### Müstəqillik bəyannaməsi

Müstəqillik bəyannaməsi Şimali Amerikada məskunlaşmış ingilis koloniyalarının Böyük Britaniyadan asılılığına son qoyulduğunu, başqa sözlə, onların müstəqilliyini elan edən çox mühüm tarixi sənəddir.

Müstəqillik bəyannaməsi 1776-cı il iyulun 4-də Pensilvaniya ştatının Filadelfiya şəhərində, 2-ci Kontinental konqres tərəfindən yekdilliklə qəbul olunub. Bəyannamə Şimali Amerikadakı koloniyaların «Amerika Birləşmiş Ştatları» adlandırıldığı ilk rəsmi sənəddir.

Bəyannamənin qəbul olunduğu 4 iyul günü ABŞ-da hər il müstəqillik günü kimi bayram edilir.

Bəyannamənin hazırlanması üçün koloniyaların nümayəndələrindən ibarət 5 nəfərlik komitə yaradılıb. Komitənin tərkibinə Con Adams (Massaçusets), Bencamin Franklin (Pensilvaniya), Tomas Cefferson (Virciniya), Robert Livinqston (Nyu-York) və Rocer Şeraıan (Konnektikut) daxil olublar.

Bəyannamə layihəsinin hazırlanması ilə bağlı əsas işi T.Cefferson görüb. İyulun 1-də layihə Konqresin müzakirəsinə verilib və 4-də təsdiq edilib.

Bəyannamənin əslini 13 koloniyanın hamısının nümayəndələri imzalayıblar.

Müstəqillik bəyannaməsində aşağıdakı əsas prinsiplər öz əksini tapıb:
insanların bərabər doğulması sübuta ehtiyacı olmayan bir həqiqətdir; Yaradan öz bəndələrinə yaşamaq, azadlıq, səadətə canatma kimi müəyyən toxunulmaz hüquqlar verib; insanlar bu hüquqların təmin edilməsi üçün idarəolunanların razılığına əsasən ədalətli hökumət qurur; hər hansı hökumət forması bu məqsədlərin məhvinə yönələrsə, xalqın onu dəyişib və ya ləğv edib insanların təhlükəsizliyini və xoşbəxtliyini təmin edəcək yeni hökumət qurmağa haqqı var.

Dəri materialın üzərində yazılmış sənədin əsli Vaşinqtondakı Milli Arxivlər binasında helium doldurularaq surğuclanmış hava keçməyən şüşə qutunun içərisində saxlanılır.

1. *Müstəqillik uğrunda müharibə ərəfəsində və illərində 13 ingilis koloniyası nümayəndələrinin toplantısı. 1775-1781-ci illərdə fəaliyyət göstərən 2-ci Kontinental konqres faktiki olaraq müstəqillik uğrunda mübarizəyə qalxmış koloniyaların qanunvericilik və icra hakimiyyəti funksiyasını yerinə yetirib.*

## Konstitusiya

Birləşmiş Ştatların Konstitusiyası 1787-ci il sentyabrın 17-də Filadelfiyada, həmin vaxt ittifaqa daxil olan 13 ştatdan 12-nin nümayəndələrinin iştirak etdiyi qurultayda qəbul olunub. Konstitusiya ABŞ-ın əsas və ali qanunudur. Dövlət hakimiyyətinin strukturunun müəyyən olunduğu, vətəndaşların bütün hüquq və azadlıqlarının əksini tapdığı bu sənədə əsasən, ABŞ ştatların federal ittifaqıdır.

Konstitusiyanın müəllifləri hakimiyyətin bir-birindən asılı olmayan üç qolunu müəyyən ediblər. Onlardan birincisi iki palatadan ibarət Konqresin timsalında qanunvericilik hakimiyyətidir.

Hakimiyyətin ikinci qolu icraedici orqandır. Bu təsisata prezident, vitse-prezident, habelə idarəetmə və icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri aiddir.

Hakimiyyətin üçüncü qolu məhkəmə hakimiyyətidir. Məhkəmə hakimiyyəti Ali Məhkəmədən və müxtəlif federal məhkəmələrdən ibarətdir.

Konstitusiyanın müəllifləri uzun müzakirələrdən sonra aşağıdakı altı əsas prinsipin Konstitusiyada əks olunmasını qərara alıblar:

1. Bütün ştatlar bərabər hüquqlara malikdir. Federal hökumət heç bir ştata hər hansı bir üstünlük verə bilməz;
2. Hakimiyyətin üç qolu olmalıdır; biri qanunları yaratmalı, ikincisi onları icra etməli, üçüncüsü isə qanunları təfsir etməlidir;
3. Hakimiyyət insanların deyil, qanunların hakimiyyətidir. Heç kim qanundan yüksəkdə dayana bilməz;
4. Varlı və ya kasıb olmasından asılı olmayaraq, bütün insanlar qanun qarşısında bərabərdirlər;
5. İnsanlar hakimiyyəti Konstitusiyanı dəyişmək vasitəsilə (ona dəyişiklik etməklə) dəyişdirə bilərlər;
6. Konstitusiya və Birləşmiş Ştatların qanunlarının icrası üçün qəbul edilmiş müqavilələr ölkənin «ali qanunları» sayılır.

Yeddi maddədən ibarət ABŞ Konstitusiyası qəbul edildikdən sonra ona 27 düzəliş edilib. İlk 10 düzəliş 1791-ci ilin dekabrın-da qəbul olunub və həmin düzəlişlər «Hüquqlar haqqında bill» (qanun) adlanır. Həmin düzəlişlər vicdan azadlığı, söz və mətbuat azadlığı, silah saxlamaq və gəzdirmək hüququ, əsassız axtarışlar və həbslərdən müdafiə hüququ və s. məsələləri əhatə edir.

Konstitusiyaya sonuncu - 27-ci düzəliş 1992-ci ilin mayında qəbul olunub. Həmin düzəlişdə deyilir ki, Konqresdə xidmətə görə senatorların və Nümayəndələr palatası üzvlərinin məvaciblərinin artırılmasını nəzərdə tutan heç bir qanun Nümayəndələr palatasına növbəti seçkilərə qədər qüvvəyə minə bilməz.

## Konqres

İki palatadan - Senatdan və Nümayəndələr palatasından ibarət olan ABŞ Konqresi qanunvericilik fəaliyyətilə məşğul olur və hökumətin siyasətinə nəzarət edir.

Senata və ya Nümayəndələr palatasına seçilmiş şəxs ümumilikdə Konqresin üzvü sayılır. Senatın üzvü senator, Nümayəndələr palatasının üzvü isə nümayəndə və ya konqresmen adlanır.

Senator seçilmək üçün 30 yaşa çatmaq və seçilənədək ən azı 9 il ABŞ vətəndaşı, eləcə də seçildiyi ştatın sakini olmaq tələbi qoyulur. Əhalisinin sayından və ərazisindən asılı olmayaraq hər ştatdan Senata iki nəfər senator (cəmi 100 senator) seçilir. Senatorun səlahiyyət müddəti 6 ildir və Senat üzvlərinin üçdə biri hər iki ildən bir təzələnir. Bu, elə tənzimlənir ki, eyni ştatdan olan iki senatorun səlahiyyət müddəti eyni vaxtda qurtarmır.

Konstitusiyaya görə, ABŞ-ın vitse-prezidenti Senatın sədri sayılır. O, yalnız səslər bərabər

olduqda, səsvermədə iştirak edə bilər.

Konqresmen seçilmək üçün 25 yaşa çatmaq və seçilənədək ən azı 7 il ABŞ vətəndaşı, eləcə də seçildiyi ştatın sakini olmaq tələb edilir.

Nümayəndələr palatası hər iki ildən bir 50 ştatdan seçilmiş 435 konqresmendən ibarət olur. Bundan əlavə, federal inzibati vahidlər sayılan Kolumbiya mahalı, Virciniya adaları, Quam və Amerika Samoasının hər birindən Nümayəndələr palatasına bir müvəkkil, Puerto-Rikodan isə komissar-rezident göndərilir. Bu nümayəndələr komitələrdə səsvermə prosesində iştirak edir, lakin Nümayəndələr palatasında səsvermə hüququna malik olmur.

Konstitusiyaya əsasən, hər ştatdan Nümayəndələr palatasında ən azı bir nümayəndə olur, qalan nümayəndələr isə ştat əhalisinin sayına uyğun olaraq müəyyən edilir.

## Himn

ABŞ-ın dövlət himninin mətnini 34 yaşlı hüquqşünas və şair Frensis Skott Ki yazıb. O, ingilislərlə müharibə dövründə -1814-cü il sentyabrın 14-də səhər tezdən britaniyalıların növbəti hücumundan sonra istehkamın üzərində dalğalanan ABŞ bayrağını görərək, vətənpərvərlik hisslərini şerə çevirib. Sonra bu mətn «Anakreon cənnətdə» adlı məşhur ingilis mahnısının melodiyası üstündə oxunmağa başlayıb və tezliklə populyar vətənpərvərlik mahnısına çevrilib. 1931-ci ildə Konqres həmin sintez-bəstəni ABŞ-ın dövlət himni elan edib.

Himn dörd bənddən ibarətdir. Hər bir bənd aşağıdakı sözlərlə bitir: «O'er the land of the free and the home of the brave» («Azad insanların vətəni və cəsurların evi üzərində»).

## Bayraq

Amerika bayrağı haqqında ilk qanunu Kontinental konqres 1777-ci il iyunun 14-də qəbul edib və həmin gün ABŞ-da hər il Bayraq günü kimi qeyd olunur. ABŞ-ın ilk dövlət bayrağı bir-birinin ardınca gələn 13 qırmızı və ağ zolaqdan və göy fonda yerləşən 13 ağ ulduzdan ibarət olub. Bayraqdakı 13 zolaq və 13 ulduz vaxtilə ittifaq yaradıb dövlət elan edən 13 ştatın rəmzidir. Sonralar ittifaqa yeni ştatların qoşulması ilə əlaqədar bayraqda ulduzların sayı artıb. Hazırda Amerika bayrağında 50 ştatın rəmzi olan 50 ulduz var.

Hələ XVIII əsrin 90-cı illərində Vermont və Kentukki yeni ştatlar kimi dövlətin tərkibinə daxil olanda bayrağa daha iki ulduz və iki zolaq artırılıb. Sonralar ittifaqa yeni ştatların daxil olması ilə əlaqədar aydın olub ki, hər dəfə bayrağa təzə zolaq artırmaq çətinlik törədəcək, ona görə də qərara alınıb ki, ancaq ulduz əlavə olunsun. Beləliklə, 1818-ci ildə Konqres bayraqdakı zolaqların saymı ilkinliyə - 13-ə qaytarmaq barədə qərar qəbul edib. Son dəyişikliklərdən sonra qərara alınıb ki, bayraqda 7 qırmızı və 6 ağ zolaq olsun.

Amerika bayrağındakı ağ rəng təmizlik və bakirəlik, qırmızı rəng şücaət və cəsurluq, göy rəng isə sayıqlıq, əzmkarlıq və ədalət rəmzi hesab olunur. Ulduzlar insanın daim can atdığı səmanın və ilahi məqsədlərin, zolaqlar isə Günəşdən gələn şüaların rəmzi sayılır.

1892-ci ildə Amerikanın kəşf edilməsinin 400 illiyi ilə əlaqədar bayrağa sədaqət andı qəbul olunub.

## Siyasi partiyalar

ABŞ-da siyasi partiyaların əsası dövlətin yarandığı ilk dövrlərdə qoyulub. XVIII əsrin axırlarında ölkənin gələcək siyasi quruluşuna dair fikir ayrılıqları iki siyasi baxışın, iki siyasi cərəyanın formalaşmasına gətirib çıxarıb: güclü federal dövlət tərəfdarı olan federalistlər və zəif hökumət və güclü yerli özünüidarə tərəfdarı olan respublikaçı demokratlar («Cefferson respublikaçıları» və ya sadəcə, respublikaçılar).

Sonralar ABŞ prezidenti seçilmiş C.Adams federalist, T.Cefferson, C.Mədison, C.Monro və C. Kuinsi Adams respublikaçı demokrat (respublikaçı) prezidentlər sayılır.

Qeyd edək ki, «Cefferson respublikaçıları» indiki respublikaçılar demək deyil, Respublikaçılar Partiyası sonralar yaranıb.

«Cefferson respublikaçıları» XIX əsrin 20-ci illərində siyasi səhnəni, demək olar ki, tam tərk ediblər. Bundan sonra həmin siyasi cərəyanın tərəfdarları Demokratlar Partiyasını (The Democratic Party) yaradıblar. 1828-cu ildə keçirilən seçkilər zamanı demokratların ilk namizədi olan Əndryü Cekson prezident seçilib. Ümumilikdə bu partiyanın 14 namizədi prezident olub.

XIX əsrin 20-ci illərinin sonlarında ABŞ-da ayrı-ayrı ştatların iddialarına etiraz edən federal dövlət və milli birlik tərəfdarları (federalistlərin davamçıları) özlərini viqlər adlandırmağa başlayıblar və 1834-cü ildə demokrat prezident Əndryü Ceksonun siyasətinə etiraz məqsədilə ümummilli hərəkat -viqlər partiyası yaradıblar (XVII əsrin ikinci yarısında İngiltərədə viqlər partiyası mövcud olub).

Amerikanın dörd prezidenti (U.Harrison, C.Taylor, Z.Teylor və M.Fillmor) viqlər partiyasının təmsilçiləridir.

XIX əsrin 50-ci illərində quldarlıq probleminə baxışlarında yaranan ziddiyyətlər viqlər partiyasınm dağılmasma gətirib çıxarıb.

Respublikaçılar Partiyası (The Republican Party) XIX əsrin 50-ci illərində quldarlıq əleyhinə çıxan insanların təşəbbüsü ilə yaradılıb və həmin partiyanın yaradıcılarından olan A.Linkoln 1860-cı ilin prezident seçkilərində bu partiyanın ilk namizədi kimi qalib gəlib. Bu partiyaya çox vaxt «Böyük Köhnə Partiya» («Grand Old Party») da deyirlər.

Oğul C.Buş da daxil olmaqla, Respublikaçılar Partiyasının 18 namizədi dövlət başçısı seçilib.

Müasir amerikalıların əksəriyyəti belə hesab edir ki, Demokratlar Partiyası daha loyaldır. Demokratlar federal hökumətdən və ştatların hakimiyyətindən daha fəal sosial siyasət yeritməyi, yoxsullar, işsizlər və tələbələr üçün sosial və iqtisadi inkişaf proqramlarını həyata keçirməyi tələb edirlər.

Respublikaçılar isə belə hesab edirlər ki, sosial proqramlar vergi ödəyicilərinə baha başa gəlir və vergilərin artması ilə nəticələnir, bu isə hamının maraqlarına toxunur. Respublikaçılar fərdi sahibkarlığın gücləndirilməsinə tərəfdar çıxır və demokratlan dövlət aparatının saxlanmasına həddindən çox pul xərcləməkdə, fərdi təşəbbüsləri məhdudlaşdıran qanunlar qəbul etməkdə günahlandırırlar. Ona görə də amerikalılar bu partiyam daha mühafizəkar hesab edirlər.

Bu iki aparıcı partiyadan başqa Amerikada digər kiçik partiyalar, o cümlədən Kommunist Partiyası da fəaliyyət göstərir, lakin onların heç biri geniş dəstəyə malik olmadıqları üçün prezident seçkilərində qalib gələ bilmirlər.

## ABŞ PREZİDENTLƏRİ: 1-CİDƏN 43-CÜYƏ QƏDƏR

**1. Corc Vaşinqton (George Washington) - 1732-1799**
Prezidentlik dövrü:[1] 1789-1797-ci illər.

C.Vaşinqton tarixə ABŞ dövlətinin əsasını qoyanlardan («Founding Fathers» - dövlətin «əsasını qoyan atalar»dan) birincisi kimi düşüb.

1758-1774-cü illərdə Virciniyanın qanunverici məclisinin üzvü olub. Özünümüdafiə dəstələrindən nizami ordu yaradaraq, ali baş komandan kimi 1775-1783-cü illərdə Şimali Amerikanın müstəqilliyi uğrunda müharibəyə başçılıq edib. Mərkəzi hakimiyyət tərəfdarı kimi 1787-ci ildə ABŞ Konstitusiyasını hazırlayan qrupa rəhbərlik edib.

1789-cu il aprelin 30-da ABŞ-ın ilk prezidenti seçilib. Prezidentliyi dövründə Amerikanın siyasi quruluşunun əsaslarını hazırlayıb, bir-biri ilə mübarizə aparan iki siyasi qruplaşmanın liderlərini - respublikaçı T.Ceffersonu (dövlət katibi) və federalist A.Hamiltonu (maliyyə naziri) ilk hökumətin tərkibinə daxil etməklə, dövlət qulluğunda siyasi baxışların fövqündə dayandığını göstərib.

1793-cü ildə ikinci dəfə prezident seçilib, neytrallıq haqqında bəyannamə imzalayaraq, ABŞ-ın başqa dövlətlərin işinə qarışmamaq siyasətini elan edib. Prezident kürsüsündən gedərkən xalqa «Vida müraciəti» edərək həmvətənlərini ştatların ittifaqını möhkəmlətməyə, Konstitusiyanın əsaslarını və dövlət quruluşunu sarsıtmamağa, «partiya maraqlarının öldürücü təsirindən» uzaq olmağa çağırıb, «bütün ölkələrlə sülh və barışıq şəraitində yaşamağı» məsləhət görüb.

Üçüncü dəfə prezident seçilmək təklifi ilə razılaşmayıb.

[1] *Sonralar qəbul olunmuş qanuna əsasən ABŞ-da prezident seçkiləri 4 ildən bir və noyabr ayında keçirilir, prezidentlər isə növbəti il yanvarın 20-də and içərək, vəzifələrinin icrasına başlayırlar. Prezidentlik dövrü dedikdə, andiçmə mərasimindən növbəti prezidentin vəzifəni qəbul etməsinə qədər olan dövr nəzərdə tutulur. Bu qayda 1-ci prezidentə aid deyil.*

Ömrünün son illərini əyalətdə ailəsi ilə keçirib. 1798-ci ilin yayında - Fransa ilə münasibətlər qəfıldən pisləşərkən sabiq prezidentin nüfuzu yenidən xalqa gərək olub və o, general-leytenant rütbəsində yenidən ABŞ ordusunun ali baş komandanı təyin edilib.

1799-cu ilin dekabrında, yağışlı-qarlı havada at belində gəzişərkən soyuqlayıb və iki gündən sonra vəfat edib.

Xalq qarşısında xüsusi xidmətlərinə görə «Millət atası» kimi tanınıb.

Övladı olmayıb.

**2. Con Adams (John Adams) - 1735-1826**
**Prezidentlik dövrü: 1797-1801-ci illər. Federalist**

Şimali Amerikanın müstəqilliyi uğrunda müharibənin iştirakçısı, Müstəqillik bəyannaməsinin və ABŞ Konstitusiyasının müəlliflərindən biri olub. ABŞ prezidentlərinin Vaşinqtondakı iqamətgahında - Ağ evdə yaşayan ilk dövlət başçısıdır.

1778-ci ildə Fransaya diplomatik işə göndərilib. 1782-83-cü illərdə İngiltərə ilə ABŞ arasında Paris sülh müqaviləsinin imzalanması mərasimində iştirak edən üç Amerika nümayəndəsindən biri olub, 1785-ci ildə ölkənin Londonda ilk səfiri təyin edilib.

Siyasət nəzəriyyəçisi kimi tanınıb, dövlət hüququna dair yüksək səviyyəli traktatlar yazıb.

C. Vaşinqtonun dövründə vitse-prezident olsa da, bu vəzifəni «nə vaxtsa düşünülmüş ən əhəmiyyətsiz post» adlandırıb.

Prezident seçkilərində rəqibi, respublikaçı T.Ceffersona cəmi iki səs çoxluğu ilə qalib gəlib. İkinci müddətə seçkilərdə isə dostu və əbədi rəqibi Ceffersona uduzub, inaqurasiya mərasimində iştirak etməmək üçün yeni prezidentin vəzifəni qəbul etməsindən bir neçə saat əvvəl Vaşinqtonu tərk edib.

Ömrü boyu Ceffersonla antaqonist mövqedə olub. Taleyin hökmü ilə hər ikisi 1826-cı il iyulun 4-də - Müstəqillik bəyannaməsinin qəbul olunmasının 50-ci ildönümü günündə vəfat edib. Deyilənə görə, Adamsın son sözü belə olub: «Cefferson isə yaşayır». Əslində, Cefferson da ondan bir neçə saat sonra dünyasını dəyişib.

**3. Tomas Cefferson (Thomas Jefferson) - 1743-1826**
Prezidentlik dövrü:1801-1809-cu illər. Respublikaçı

Maarifçi kimi tanınıb, Şimali Amerikanın müstəqilliyi uğrunda müharibə illərində demokratik istiqamətin ideoloqu sayılıb. ABŞ-m Müstəqillik bəyannaməsi layihəsinin müəllifi olub. 1789-93-cü illərdə dövlət katibi, 1797-1801-ci illərdə vitse-prezident vəzifələrində çalışıb.

Siyasi rəqibi C.Adamsa vitse-prezident olmağa razılıq verməsini tarixçilər Amerikanın «millət ataları»nın partiya mənsubiyyətinə az əhəmiyyət vermələrinin göstəricisi sayırlar.

Onun prezidentliyi dövründə ordu və donanmada, idarəetmə aparatında ixtisarlar aparılıb, dövlət borcu azalıb. 1803-cü ildə 15 milyon dollara Luiziana ştatını Fransadan almaqla, ölkənin ərazisini, demək olar ki, iki dəfə artırmağa nail olub.

Prezident kürsüsünü təhvil verəndən sonra 17 il öz malikanəsində çoxsaylı qonaqları qəbul etməklə, alim və ictimai xadimlər, Amerika və xarici ölkə siyasətçiləri ilə məktublaşmaqla (ayda mindən çox məktub) məşğul olub.

1797-1815-ci illərdə Amerika Fəlsəfə Cəmiyyətinin prezidenti olub. Ömrü boyu topladığı 6 min 500-dən çox kitabı sonradan Konqres kitabxanasının əsasını təşkil edib. Fəaliyyətinin son nailiyyəti isə Virciniya universitetinin yaradılması (1825) sayılır: universitet kompleksinin arxitektura layihəsini, universitetin nizamnaməsini və tədris planlarını hazırlayıb, professor-müəllim heyətini seçib.

**4. Ceyms Mədison (James Madison) - 1751-1836**
**Prezidentlik dövrü: 1809-1817-ci illər. Respublikaçı**

Müstəqillik uğrunda müharibənin iştirakçısı, Konstitusiya layihəsinin müəlliflərindən biri olub. Ceffersonun prezidentliyi dövründə dövlət katibi vəzifəsində çalışıb.

Hələ Konstitusiyanın hazırlanması mərhələsində güclü milli hökumət yaradılmasının tərəfdarı olub. Siyasi kompromis ustası və Amerika Konstitusiyasının filosofu sayılır.

Konstitusiyaya ilk 10 düzəlişdən 6-sını o, təklif edib.

Prezident seçilən kimi Avropa ilə ticarət əlaqələrinin kəsilməsinə səy göstərib, nəticədə ölkə xarici siyasət sahəsində uğursuzluqlarla üzləşib. Bütün bunların müqabilində, 1812-ci ilin iyununda Böyük Britaniyaya müharibə elan etmək tələbi ilə Konqresə müraciət edib; müharibə qurtarana qədər ölkədə xaos və maliyyə çətinlikləri hökm sürüb. Müharibədə alçaldıcı məğlubiyyət Vaşiqton şəhərinin və Ağ evin ingilislər tərəfindən yandırılması ilə nəticələnib. Ona görə də amerikalılar Britaniya ilə müharibəni «Cənab Medisonun müharibəsi» adlandırırlar.

**5. Ceyms Monro (James Monroe) - 1758-1831**
Prezidentlik dövrü: 1817-1825-ci illər. Respublikaçı

Kontinental ordunun tərkibində vuruşub və mayor rütbəsinə qədər yüksəlib. 1780-83-cü illərdə T.Cefferson Virciniyanın qubernatoru olarkən onun yanında hüquq praktikası keçib.

1794-cü ildə ABŞ-ın Fransadakı səfiri təyin edilib, amma 2 il sonra Fransaya xüsusi rəğbətinə görə C.Vaşinqtonun etibarını itirib və geri çağırılıb.

1799-cu ildə Virciniya ştatının qubernatoru seçilib, populyar rəhbər və qabiliyyətli inzibatçı kimi tanınıb. Sonralar Fransada, İspaniyada və İngiltərədə diplomatik işdə çalışıb.

1808-ci ildə prezident seçilmək istəyi uğursuzluqla nəticələnib.

1811-ci ildə dövlət katibi vəzifəsinə təyin olunub, 1814-cü ildə eyni zamanda müdafiə naziri vəzifəsini də icra edib. İngiltərə ilə müharibənin qələbə ilə başa çatması müdafiə naziri kimi ona xüsusi populyarlıq gətirib və 1816-cı ildə keçirilən seçkilərdə, demək olar ki, yekdilliklə prezident seçilib.

Birinci prezidentliyi dövründə atdığı uğurlu addımlara, xüsusən də düşmənçilik edən qrupları ustalıqla barışdırdığına görə ikinci müddətə də seçilib.

Tarixə «Monro doktrinası» kimi düşən «Amerika amerikalılar üçündür» prinsipinin müəllifidir.

**6. Con Kuinsi Adams (John Quincy Adams) - 1767-1848**
Prezidentlik dövrü: 1825-1829-cu illər. Respublikaçı

İkinci prezident Con Adamsın oğludur. Fransada diplomatik missiyada çalışan atasının katibi vəzifəsini icra etməklə, ictimai fəaliyyətə hələ 11 yaşından başlayıb. Parisdə özəl məktəbdə təhsil alıb, sonralar universitet bitirib. 15 yaşında ABŞ-ın Rusiyadakı səfirinin şəxsi katibi olub.

Harvard kollecini bitirib, sonra Massaçusetsdə təhsilini davam etdirib, Bostonda vəkil işləyib, günün aktual mövzularında məqalələr yazıb. Məqalələrindən birində C.Vaşinqtonun həyata keçirdiyi neytrallıq siyasətini dəstəkləyib. Bu məqalə ilə tanış olan prezident C.Vaşinqton onu Niderlanda səfir göndərib.

1824-cü il dekabrın 1-də keçirilən prezident seçkilərinin yekununda səs çoxluğuna görə birinci yerdə general Əndryü Cekson, ikinci yerdə Kuinsi Adams, üçüncü yerdə isə Henri Kley olub. Namizədlərdən heç biri səs çoxluğu qazana bilmədiyi üçün qərar vermək hüququ Nümayəndələr palatasına həvalə olunub. 1825-ci il fevralın 9-da Nümayəndələr palatası oğul Adamsı prezident seçib. Onun Henri Kleyi dövlət katibi təyin etməsi qınaqla qarşılanıb, Ceksonun tərəfdarları yeni prezidenti Kley ilə gizli razılaşmada ittiham edib.

1831-ci ildən ömrünün sonuna qədər Nümayəndələr palatasının üzvü olub.
1848-ci il fevralın 21-də Konqresdə Amerika-Meksika müharibəsinə dair dinləmələr zamanı keçinib.

**7. Əndryü Cekson (Andrew Jackson) - 1767-1845**
**Prezidentlik dövrü: 1829-1837-ci iller. Demokrat**

Demokratlar Partiyasının əsasını qoyanlardan biri sayılır. Konqresdə Tennessi ştatının ilk nümayəndəsi və senator olub.
Böyük Britaniya ilə müharibə illərində general rütbəli Cekson uğurlu döyüş əməliyyatlarına görə fərqlənib, milli miqyasda şöhrət qazanıb.
1824-cü ildə prezidentliyə dörd əsas namizəddən biri olub və hamıdan çox səs toplayıb. Lakin Nümayəndələr palatası Con Kuinsi Adamsa üstünlük verib. 1828-ci ildə isə Cekson Adamsa asanlıqla qalib gəlib.
Hələ prezident seçilməzdən əvvəl dəfələrlə dövlət başçısının birbaşa səsvermə yolu ilə seçilməsi tələbini irəli sürüb.
Banklarla əlaqədar yeritdiyi sərt siyasət 1834-cü ildə ölkədə maliyyə qalmaqalı yaradıb, üç il sonra isə böhrana gətirib çıxarıb.
İkipartiyalı sistemin bərpası da onun dövrünə təsadüf edib: prezident tərəfdarları Demokratlar Partiyasında birləşdikləri üçün rəqibləri hökumətə müxalif olan yeni siyasi qurum viqlər partiyası yaradıblar.
Demokratlar Partiyasının birinci qurultayı 1832-ci ildə Ceksonun ikinci dəfə prezidentliyə namizədliyini irəli sürüb və o, qalib gəlib.

**8. Martin Van Büren (Van Buren Martin) - 1782-1862**
Prezidentlik dövrü: 1837-1841-ci illər. Demokrat.

1800-cü ildən «Cefferson respublikaçıları»nın fəalı kimi tanınıb, T.Ceffersonun seçki kampaniyasında yaxından iştirak edib. Nyu-York ştatının baş prokuroru, Senatın üzvü olub. Əvvəllər Ceksonla rəqib olsa da, sonralar siyasi mənsubiyyətini dəyişib və onunla yaxınlıq edib, gizli siyasi məsləhətçisi olub, seçki kampaniyasında iştirak edib.
Ceksonun prezidentliyi dövründə dövlət katibi postunu tutub.
1836-cı ildə Demokratlar Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülüb. Seçki kampaniyasında Cekson administrasiyasının siyasətini davam etdirəcəyini vəd edib və qalib gəlib.
Prezidentliyi dövründə quldarlığın yayılması əleyhinə çıxıb, lakin quldarlıq olan yerlərdə bu sistemi müdafiə edib.
1837-ci ildə ölkəni iqtisadi böhran bürüyüb; işsizliyin artması, bankların bağlanması və s. kimi neqativ hallar onun prezidentliyi dövrünə təsadüf edib. «Hökumət ölkənin iqtisadi həyatına müdaxilə etməməlidir» prinsipini əsas gətirərək, böhrandan çıxış yolları axtarmağa səy göstərməyib. Ona görə də 1840-cı və 1844-cü illərdə prezidentliyə namizədliyini irəli sürsə də, seçilə bilməyib.

**9. Uilyam Harrison (William Henry Harrison) - 1773-1841**
Prezidentlik dövrü: mart, 1841-ci il. Viq

Virciniya ştatında adlı-sanlı ailədə doğulub. Ev təhsili alıb, sonralar kollec bitirib. 1790-cı ildə tibb təhsili almaq üçün Filadelfiyaya gedib, lakin atasının vəfatından sonra təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yollanıb və hindularla döyüşlərdə iştirak edib.
1800-cü ildə İndiananın qubernatoru seçilib və 12 il bu vəzifədə çalışıb. Bu illərdə onun əsas

problemi hindularla bağlı olub: qubernator yeni əraziləri məskunlaşdırmalı, həm də bu işi sülh yolu ilə görməli olub. Lakin hindularla döyüşsüz keçinə bilməyib.

İngiltərə ilə müharibə illərində ordu komandanı olub, lakin ciddi uğur qazanmayıb.

1816-cı ildə Nümayəndələr palatasına seçilib.

1840-cı ilin prezident seçkilərində gözlənilməz uğur qazanıb.

1841-ci il martın 4-də, andiçmə mərasimində uzun-uzadı nitq söyləyərkən, ağ ciyərlərinə soyuq dəyib və düz bir aydan sonra vəfat edib.

**10. Con Tayler (John Tyler) - 1790-1862**
**Prezidentlik dövrü: aprel 1841-1845-ci illər. Viq**

Böyük Britaniyadan köçmüş mühacir ailəsində doğulub. Yerli məktəbdə və kollecdə oxuyub. Atasının köməyi ilə hüquq təhsili alıb, 1809-cu ildən vəkilliklə məşğul olmasına icazə verilib.

Böyük Britaniyaya qarşı 1812-ci il müharibəsində yerli özünümüdafiə dəstələrində xidmət edib, döyüşlərin iştirakçısı olub. 1816-cı ildə Nümayəndələr palatasına seçilib.

Quldarlığın tərəfdarı olub. Bu məsələyə münasibəti ömrünün sonunadək dəyişməyib.

1840-cı il seçkilərində U.Harrisonla bir komandada vitse-prezidentliyə namizəd kimi iştirak edib. Andiçmə mərasimindən bir ay sonra vəfat edən U.Harrisonun prezidentlik səlahiyyətlərinə yiyələnib. Ona görə də bəzi rəqibləri onu «prezident vəzifəsini icra edən» sayıb, səlahiyyətlərinin azaldılmasını təklif ediblər.

Prezidentliyinin son iki ilində Texasın zəbt olunması istiqamətində cəhdlər göstərsə də, bu ideya növbəti prezident seçkilərindən sonra reallaşıb.

**11. Ceyms Polk (James Knox Polk) - 1795-1849**
Prezidentlik dövrü: 1845-1849-cu illər. Demokrat

Tennessi məktəblərində təhsil alıb, Şimali Karolinada universitet bitirib. Məşhur bir vəkilin yanında hüquq elminin sirlərinə yiyələnərək, 1819-cu ildən vəkilliklə məşğul olub. 1824-cü ildə Konqresə seçilib və 14 il burada çalışıb.

1835-ci ildə Nümayəndələr palatasının spikeri seçilib, partiyalar arasında quldarlıq mövzusunda gedən sərt müzakirələrə rəhbərlik edib.

Prezidentliyi dövründə Meksikaya müharibə elan edib, ABŞ qoşunlarının bu ölkə ərazisinin yarısını zəbt etməsinə nail olub və bununla da Texasın Meksikadan alınması sahəsində digər siyasətçilərin iddialarını reallaşdırıb. 1848-ci ildə müharibənin qələbə ilə başa çatması Kaliforniya, Nyu-Meksika əyalətlərinin ABŞ-ın təsiri altına düşməsi ilə nəticələnib.

**12. Zakari Teylor (Zachary Taylor) - 1784-1850**
Prezidentlik dövrü: 1849-1850-ci illər. Viq

Virciniya ştatında doğulub. Ev təhsili alıb və ailə plantasiyasının idarə edilməsində valideynlərinə kömək etməklə, idarəetmə təcrübəsi qazanıb. Lakin fermerliklə məşğul olmaq onu qane etməyib və orduya yazılıb, Böyük Britaniya ilə müharibədə fəal iştirak edib, Meksika müharibəsinin (1846-1848) qəhrəmanı sayılır. Ümumiyyətlə, ömrünün 40 ili ordu həyatı ilə bağlı olub.

Hinduların məhv olunmasında fəal iştirak edib, prezident kimi quldarlığın yayılmasının radikal tərəfdarlarına qarşı çıxıb.

1850-ci ildə Müstəqillik günü münasibətilə keçirilən təntənəli tədbirlərdə günün altında çox dayanıb və yorğun halda Ağ evə qayıdaraq, çoxlu meyvə yeyib, soyuq su və süd içib. Nəticədə

bağırsaqlarına soyuq dəyib və iyulun 9-da, prezident vəzifəsinin icrasına başladıqdan 17 ay sonra vəfat edib.

Ölümü ilə əlaqədar uzun illər müxtəlif şübhələr və şayiələr mövcud olub. Nəhayət, 41 il (!) sonra, 1891-ci ildə cəsədi qəbirdən çıxarılaraq, tibbi-məhkəmə ekspertizasından keçirilib və sui-qəsd qurbanı olmadığı təsdiqlənib.

**13. Millard Fillmor (Millard Fillmore) - 1800-1874**
Prezidentlik dövrü: 1850-1853-ci illər. Viq.

1844-cü ildə Nyu-York qubernatoru seçkilərində iştirakı uğursuzluqla nəticələnib və vəkillik fəaliyyəti ilə məşğul olub. Zakari Teylorun dövründə vitse-prezident vəzifəsində çalışıb, prezident səlahiyyətlərinə isə 1850-ci ilin iyulunda, Z.Teylorun ölümündən sonra yiyələnib.

Quldarlıq probleminin zorla deyil, kompromis yolu ilə ilə həllinə çalışıb, hətta Konqresdəki vida çıxışında quldarlıq problemini həll etmək üçün «qara dərili insanları Afrikaya geri qaytarmağı» təklif edib. 1856-cı ildə prezidentliyə namizədliyi irəli sürülsə də, ikinci dəfə uğur qazana bilməyib.

**14. Franklin Pirs (Franklin Pierce) - 1804-1869**
Prezidentlik dövrü: 1853-1857-ci illər. Demokrat

Nyu-Həmpşir ştatında doğulub. Kollec bitirib, sonra hüquq təhsili alıb və 1827-ci ildən vəkilliklə məşğul olmaq hüququ qazanıb.

Sonralar Nümayəndələr palatasına seçilib, Senatın üzvü olub, siyasətdən ayrıldıqdan sonra yenidən vəkilliklə məşğul olub.

Şəxsi vəkillik fəaliyyəti o qədər uğurlu olub ki, 1845-ci ildə baş prokuror, sonra isə Senat üzvü olmağa razılıq verməyib. Lakin Meksika ilə müharibə zamanı könüllü olaraq döyüşlərə gedib. Müharibədən sonra demokratlar arasında birlik yaradılmasına səy göstərib və buna görə 1852-ci ildə prezidentliyə namizədliyi irəli sürülüb.

Prezidentliyi dövründə ambisiyalı xarici siyasət yeridib, Kubanı İspaniyadan, Alyaskanı Rusiyadan almağa çalışıb, Havay adalarını ABŞ-a birləşdirmək niyyətinə düşüb.

ABŞ Meksikanın 120 min kvadrat kilometrlik ərazisini onun hakimiyyəti dövründə (1853) öz tərkibinə qatıb.

Prezidentlikdən sonra yenidən vəkillik işinə qayıdıb.

**15. Ceyms Bükenen (James Buchanan) - 1791-1868**
Prezidentlik dövrü: 1857- 1861-ci illər. Demokrat

Pensilvaniya ştatında, irland əsilli onbir uşaqlı mühacir ailəsində doğulub. Kolleci bitirdikdən sonra könüllü sifətilə müharibədə iştirak edib, vəkilliklə məşğul olub.

Uzun illər Konqresin üzvü olub, Senatda Pensilvaniyanı təmsil edib. Ədliyyə naziri, dövlət katibi vəzifəsində çalışıb, Ali Məhkəmənin hakimi işləyib.

1848-ci və 1852-ci il seçkilərində namizədliyini irəli sürsə də, arzusuna yalnız 1856-cı ildə çatıb.

Ailə qurmasa da, ailə həyatına qayğı və diqqətlə yanaşıb, çoxsaylı yetim və kasıb qohumlarına kömək edib. Arvadı olmadığı üçün qohumu Harriyet Leyni birinci ledi elan edib. Dostlarmdan biri yarızarafat-yarıgerçək deyib ki, «Bükenen yetkin kişi olduğu vaxtdan Amerika Konstitusiyası ilə evlənib».

Çin və Yaponiya ilə iqtisadi əlaqələr yaratmağa nail olub, Alyaskanın alınması ilə bağlı Rusiya ilə danışıqlara başlayıb, Kubanı İspaniyadan almaq arzusu isə baş tutmayıb.

Meksikaya qarşı müharibənin təşkilatçılarından biri olub.

Amerika tarixinə zəif prezident kimi düşüb, çünki quldarlıq məsələsinə dair yaranmış narazılıqların və ittifaqın dağılmasının qarşısını ala bilməyib. Vətəndaş müharibəsinin başlanmasına görə də onu günahlandıranlar tapılıb.
Gələcəkdə bəraət qazanacağına ümidlə yaşasa da, arzusuna çatmayıb.

**16. Abraham Linkoln (Abraham Lincoln) - 1809-1865**
Prezidentlik dövrü: 1861-1865-ci illər. Respublikaçı
Yoxsul fermer ailəsində doğulub. Məktəbə fasilələrlə gedib, çoxlu kitab oxumaq hesabına təhsil səviyyəsini artırıb. Uşaq yaşlarından təsərrüfat işlərində valideynlərinə kömək edib, günəmuzd işləyib. Hüquq elmini mənimsəyib və 27 yaşında hüquqşünas kimi işə başlayıb. İllinoys ştatından qanunverici orqana seçilib, ştatın tanınmış hüquşünaslarından biri olub.
Respublikaçılar Partiyasının əsas təşkilatçılarından sayılır.
1860-cı ildə üç rəqibinə qalib gələrək, prezident seçilib. Onun prezidentliyi ABŞ tarixinin ən faciəli dövrünə - vətəndaş müharibəsi illərinə (1861-1865) təsadüf edib. Quldarlığın əleyhinə olub, buna görə də özünə çoxlu düşmən qazanıb. O, qulların kompensasiya ödənilməsi yolu ilə tədricən azad olunmasının tərəfdarı olub, lakin bir qədər sonra anlayıb ki, «quldarlıq ölməlidir ki, millət yaşaya bilsin». 1862-ci il sentyabrın 22-də elan edib ki, gələn il yanvarın 1-dən bütün qullar «indidən etibarən həmişəlik azad olacaqlar». Bu barədə dekabrın 30-da «Azadlıq haqqında bəyannamə» imzalayıb.
1865-ci il yanvarın 31-də onun təkidi ilə Konqres Konstitusiyaya ABŞ ərazisində quldarlığı qadağan edən 13-cü düzəlişi qəbul edib.
1865-ci il martın 4-də ikinci dəfə prezident kimi and içib, lakin cəmi 40 gün sonra - aprelin 14-də Vaşinqtondakı Ford teatrında aktyor C.U.But tərəfindən gülləylə vurulub və növbəti gün səhərçağı keçinib.

**17. Əndryü Conson (Andrew Johnson) - 1808-1875**
Prezidentlik dövrü: 1865 - 1869-cu illər. Respublikaçı

Şimali Karolina ştatında doğulub. 1843-cü ildən Nümayəndələr palatasının üzvü olub. Sonralar iki dəfə qubernator seçilib. Quldarlığın tərəfdarı olub. Torpaqların bütün köçkünlərə pulsuz verilməsi barədə qanun layihəsinin qəbul edilməsinə səy göstərdiyi üçün ümummilli miqyasda fermerlər arasında böyük populyarlıq qazanıb.
1857-ci ildə Senata seçilib.
1862-ci ildə Linkoln onu Tennessinin hərbi qubernatoru təyin edib.
Partiya mənsubiyyətinə görə demokrat olsa da, 1864-cü ildə vitse-prezidentliyə namizədliyi Respublikaçılar Partiyasından irəli sürülüb və Linkolnla birlikdə Milli birlik ittifaqının siyahısı üzrə seçilib. Linkolnun ölümündən sonra prezident postuna yiyələnib. Ölkə daxili münaqişələrlə bağlı 1868-ci ildə ona qarşı impiçment proseduru başlanıb. Lakin lazımi qədər səs yığılmadığı üçün impiçment baş tutmayıb.
İkinci dəfə prezidentliyə namizədliyini irəli sürməyib.

**18. Uliss Qrant (Ulysses Simpson Grant) - 1822-1885**
Prezidentlik dövrü: 1869-1877-ci illər. Respublikaçı

Ohayo ştatında çoxuşaqlı ailədə doğulub, hərbi məktəb bitirib, uzun illər hərbi xidmətdə olub. ABŞ-Meksika müharibəsində iştirak edib.
Vətəndaş müharibəsi illərində prezident Linkoln ona general-leytenant rütbəsi verərək, federal qoşunların ali baş komandanı təyin edib.
Respublikaçılar Partiyasından iki dəfə prezident seçilib. İkinci andiçmə mərasimindən altı ay sonra ölkədə «1873-cü il panikası» adlanan iqtisadi tənəzzül başlanıb və bunun ardınca

uzunmüddətli iqtisadi böhran hökm sürüb. Onun prezidentliyi hökumətdə korrupsiya və maliyyə fırıldaqlarının geniş yayıldığı dövr kimi xarakterizə olunur.

Xarici siyasət sahəsində xeyli uğurlar əldə edib, Böyük Britaniya ilə münasibətləri normallaşdırıb.

Üçüncü dəfə prezident seçilmək cəhdi uğursuzluqla nəticələnib və siyasi səhnədən uzaqlaşıb. Vaşinqtondan Nyu-Yorka köçərək, bank işi ilə məşğul olmağa başlayıb və bir neçə maliyyə əməliyyatından sonra müflisləşib.

Ömrünün son illərini ABŞ-da vətəndaş müharibəsi haqqında memuar yazmağa sərf edib. Bu yaradıcılıqdan əldə etdiyi vəsait ailəsinin maddi durumunu bir qədər yaxşılaşdırıb.

**19. Raterford Heys (Rutherford Burchard Hayes) - 1822-1893**

Prezidentlik dövrü: 1877-1881-ci illər. Respublikaçı

Peşəkar hərbçi olub, 1864-cü ildə general-mayor rütbəsi alıb.

İki dəfə Ohayo ştatının qubernatoru seçilib.

1876-cı il seçkilərində respublikaçıların daha tanınmış namizədləri partiya qurultayında səs çoxluğunu qazana bilmədiyi üçün kompromis variant kimi onun namizədliyi irəli sürülüb. Seçkilər başa çatarkən rəqibinin qalib gəldiyi aşkar olunub. Lakin respublikaçılar bir neçə ştatda seçkilərin nəticələrinin saxtalaşdırıldığını iddia edərək, arbitraj komissiyası yaratmağa nail olublar. Komissiya üzvlərindən 8-i respublikaçı, 7-si isə demokrat olub. Nəticədə Heys bir səs çoxluğu ilə komissiyanın müsbət rəyini qazanaraq, 1877-ci il martın 2-də prezident elan olunub.

O. hakimiyyətə gələn kimi dəmiryolçular əmək haqqının azlığına görə etiraz tətilinə başlayıblar. Etiraz dalğasını yatır-maq üçün ilk dəfə onun prezidentliyi dövründə ordudan istifadə edilib. Dövlət idarəetmə sistemində islahatlar aparıb, bir çox vəzifələrə demokratların nümayəndələrini təyin etməklə, ölkə daxili gərginliyi zəiflətməyə çalışıb.

Xarici siyasətdə ciddi problemlərlə üzləşməyib.

**20. Ceyms Qarfıld (James Abram Garfield) - 1831-1881**

Prezidentlik dövrü: mart 1881-ci il-sentyabr 1881-ci il. Respublikaçı

Əcdadları Amerikaya XVII əsrdə İngiltərədən gəliblər. Elektrik ixtisası üzrə təhsil alıb, sonralar Massaçusetsdə kollec bitirib. 1859-cu ildə Ohayo ştatının senatına seçilib. A.Linkolnun qızğın pərəstişkarı olub. Vətəndaş müharibəsi başlayanda siyasi səhnədən uzaqlaşaraq, ordu sıralarına qoşulub və general-mayor rütbəsinə qədər yüksəlib.

1863-cü ildə Nümayəndələr palatasına seçilib və orada respublikaçıların lideri olub.

1881-ci ilin martında prezident vəzifəsinin icrasına başladıqdan təxminən 4 ay sonra - iyulun 2-də Vaşinqton dəmiryol vağzalında həyatına sui-qəsd edilib; uzun müddət xəstə yatıb və sentyabrın 19-da keçinib.

**21. Çester Artur (Chester Alan Arthur) - 1829-1886**

Prezidentlik dövrü: sentyabr 1881- mart 1885-ci il. Respublikaçı

Respublikaçılar Partiyasının yaradılmasında xüsusi xidmətləri olub, sonralar partiyada böyük nüfuz sahibi kimi tanınıb.

1881-ci ilin sentyabrında C.Qarfıldin ölümündən sonra vitse-prezident kimi prezident səlahiyyətlərinin icrasına başlayıb.

1883-cü ildə o vaxta qədər mövcud olan bir ənənəni - dövlət aparatında vəzifələri, bir qayda olaraq, hakim partiyanın nümayəndələrinin tutması ənənəsini ləğv edən qanunu imzalayıb.

Prezidentliyi dövründə Konqreslə münasibətlərində daim problemlər yaranıb, bir çox təkliflərini qanunverici orqan dəstəkləməyib. Bir sıra qanunlara veto qoyması, ölkə daxilində həyata keçirdiyi bəzi qeyri-populyar tədbirləri 1884-cü il seçkilərində uğur qazanmasına mane

olub.

## 22. Qrover Klivlənd (Grover Stephen Cleveland) - 1837-1908

Prezidentlik dövrü: 1885-1889-cu illər. Demokrat.

Ölkənin həm 22-ci, həm də 24-cü prezidenti sayılır. Çünki arada bir seçki müddəti fasilə ilə iki dəfə prezident olub.

1882-ci ildə Nyu-York ştatının qubernatoru seçilib.

1884-cü ilin prezident seçkilərində demokratların namizədi kimi qalib gəlib. Prezidentliyi dövründə Respublikaçılar Partiyasından olan dövlət qulluqçularını işdən azad etməkdən imtina edib.

1888-ci il seçkilərində respublikaçıların namizədi B.Harrisona uduzub, lakin növbəti seçkilərdə rəqibinə asanlıqla qalib gəlib.

İkinci prezidentliyi dövründə ölkəni iqtisadi böhran bürüyüb, dövlətin qızıl ehtiyatları sürətlə azalmağa başlayıb.

Nisbətən müstəqil xarici siyasət yeridib, ölkənin neytrallığını qoruyub saxlamağa çalışıb.

Proteksionist siyasət həyata keçirib, beynəlxalq məsələlərdə panamerikanizmin tərəfdən olub.

## 23. Bencamin Harrison (Benjamin Harrison) - 1833-1901

Prezidentlik dövrü: 1889-1893-cü illər. Respublikaçı

Atası Con Skott Harrison konqresmen, babası Uilyam Henri Hanrison Amerikanın 9-cu prezidenti, ulu babası Bencamin Harrison isə Müstəqillik bəyannaməsini imzalayanlardan biri olub.

1854-cü ildə əsası təzəcə qoyulmuş Respublikaçılar Partiyasına üzv yazılıb, vətəndaş müharibəsi illərində ordu sıralarında döyüşüb, briqada generalı rütbəsinə qədər yüksəlib.

1889-cu ildə birinci Panamerikan konfransının çağırılmasının təşəbbüskarı olub.

Prezidentliyi dövründə ABŞ-ın beynəlxalq aləmdə təsirini gücləndirməyə səy göstərib.

Aydaho və Vayominq onun dövründə ştat kimi ittifaqa daxil edilib, Oklahoma isə məskunlaşmaq üçün açıq zona elan olunub.

Növbəti prezident seçkilərində uğursuzluğa düçar olduğundan vəkillik fəaliyyətinə qayıdıb.

## 24. Qrover Klivlənd (Grover Stephen Cleveland) - 1837-1908

Prezidentlik dövrü: 1893-1897-ci illər

## 25. Uilyam Makkinli (William McKinley) - 1843-1901

Prezidentlik dövrü: mart 1897-sentyabr 1901-ci il. Res-publikaçı

Prezident postunda sənayeçilərin maraqlarını müdafiə edib. Prezident seçilən kimi tariflərə yenidən baxmaq məqsədilə Konqresin xüsusi iclasını çağırıb və iclasda ölkə tarixində ən yüksək tarif dərəcələri müəyyən olunub.

1897-ci ildə Havay adalarının anneksiyası haqqında təklifi Konqresin müzakirəsinə çıxarıb. Konqres bu təklifi müdafiə etməsə də, adalar anneksiya olunub.

1898-ci ildə Konqres onun təşəbbüsü ilə İspaniyaya müharibə elan edib və həmin müharibə qələbə ilə başa çatıb. İmzalanan sülh müqaviləsinə əsasən, İspaniya qoşunları Kuba ərazisindən çıxarılıb.

İkinci prezidentliyi dövründə - 1901-ci ilin sentyabrında Panamerika sərgisində olarkən ilk dəfə tariflərin qaldırılmasının məqsədəuyğunluğuna şübhə edib və bütün ölkələrə qarşılıqlı razılıq əsasında tarifləri aşağı salmaq təklifi ilə müraciət edib. Növbəti gün anarxist Leon

Çolqaşın açdığı atəş nəticəsində yaralanıb və senyabrın 14-də vəfat edib.

**26. Teodor Ruzvelt (Theodore Roosevelt) - 1858-1919**
**Prezidentlik dövrü: 1901-1909-cu illər. Respublikaçı**

1898-ci ildə Nyu-Yorkun qubernatoru olub. Bu postda böyük populyarlıq qazandığı üçün 1900-cü ildə vitse-prezident vəzifəsinə respublikaçıların ən yaxşı namizədi olub və 1901-ci ildə həmin posta yiyələnib.

Prezident Makkinlinin faciəli ölümündən sonra - 42 yaşında Amerikanın 26-cı prezidenti kimi and içib. Tezliklə Ağ evi yenidən tam təmir etdirib və bundan sonra Ağ ev ölkənin və dünyanın müxtəlif təbəqələrini təmsil edən insanların üzünə açılıb.

Onun siyasi məharəti və əhali arasında populyarlığı ikinci dəfə prezident seçilməsini təmin edib. Elə seçkilər axşamı elan edib ki, 1908-ci il seçkilərində namizədliyini irəli sürməyəcək.

Dövlət strukturlarında islahatlar aparıb. Ticarət və əmək nazirliyi onun dövründə (1903) yaradılıb.

Ağ evə zəncilərin nümayəndəsini dəvət edən ilk prezident sayılır.

Amerika donanmasının gücləndirilməsinin tərəfdarı olub və prezidentliyinin sonuna yaxın ABŞ-ı dünyanın ikinci dəniz ölkəsi kimi tanıdıb. Onun dövründə Amerika Kubanı işğal edib, Panama kanalı ərazisini tutub.

Rusiya ilə Yaponiya arasında Portstmut sülh müqaviləsinin imzalanmasında xidmətlərinə görə 1906-cı ildə Nobel sülh mükafatı alıb.

Sevdiyi kəlam: «Ən uğurlu siyasətçi hamının düşündüklərini imkan daxilində daha tez-tez və daha ucadan söyləyən siyasətçidir».

**27. Uilyam Taft (William Howard Taft) - 1857-1930**
Prezidentlik dövrü: 1909-1913-cü illər. Respublikaçı

Atası 1876-1877-ci illərdə müdafiə naziri və ABŞ-ın baş prokuroru vəzifəsində çalışıb, özü isə 1904-1908-ci illərdə müdafiə naziri və prezident T.Ruzveltin müşaviri olub. 1906-cı ildə Kubada üsyanın yatırılmasında fəal iştirak edib.

1908-ci ildə T.Ruzveltin zəmanəti ilə prezidentliyə namizədliyi irəli sürülüb və seçkilərdə qalib gəlib.

Prezidentliyi dövründə «Ədalətsizliklə barışmaq dağıdıcı dəyişikliklər etməkdən daha yaxşıdır» prinsipini əsas tutaraq, sosial problemlərin həllində ehtiyatlılıq nümayiş etdirib.

Kanada ilə münasibətləri qaydaya salmağa səy göstərib, Rusiya ilə münasibətlərin yumşaldılmasına tərəfdar çıxıb. ABŞ qoşunları Nikaraquaya onun dövründə daxil olub.

İkinci dəfə prezident olmaq cəhdi uğursuzluqla nəticələnib.

İstefaya çıxandan sonra Yel universitetində Konstitusiya hüququndan dərs deyib, 1921-ci ildə ABŞ Ali Məhkəməsinin sədri seçilib.

**28. Vudro Uilson (Woodrow Wilson) - 1856 -1924**
Prezidentlik dövrü: 1913 - 1921 -ci illər. Demokrat

Tarix və siyasi iqtisad professoru olub.

Prezident seçilən kimi sosial və iqtisadi islahatlar proqramını irəli sürüb. Birinci dünya müharibəsi başlayanda ABŞ-ın bitərəfliyini qoruyacağını bildirsə də, 1917-ci ildə Almaniyaya müharibə elan edib.

ABŞ birinci dünya müharibəsinin qurtarmasına il yarım qalmış müharibəyə qoşulub, nisbətən az adam itirməklə maksimum siyasi və iqtisadi səmərə götürüb. 1914-cü ildən başlayaraq Avropaya borclu olan ABŞ müharibədən sonra Avropaya kredit verən dövlətə çevrilib və bütün parametrlərinə görə nəhəng dünya dövləti sayılmağa başlayıb.

Bu uğurlarına görə Avropada fateh sayılsa da, vətənində sevilməyib. Çünki onun mövqeyi bir çox məsələlərdə ABŞ-ın yuxan dairələrini qane etməyib. Dünyada sülhün qorunması məqsədilə Millətlər Liqası yaradılmasının təşəbbüskar olub.

Millətlər Liqasının yaradılmasına Amerikanın özündə etiraz edənlər çox olduğu üçün ikinci prezidentliyi dövründə - 1919-cu ildə bu ideyanı müdafiə etmək üçün ölkəyə təşviqat turnesinə çıxıb. Kolorado ştatında iflic olsa da, təşviqat səfərini davam etdirib, radio ilə xalqa müraciətlərində yeni dünya müharibəsinin qarşısını almaq üçün belə bir Liqanın yaradılmasının vacibliyini anlatmağa çalışıb. Deyilənə görə, ağır xəstəlik keçirdiyi üçün 1919-cu ildən sonra prezidentlik müddəti başa çatana qədər dövlət idarəetməsi ilə bağlı əsas siyasi qərarları arvadı Edit Uilson qəbul edib.

1919-cu il Versal sülh müqaviləsinin əsas müəlliflərindən biri olub. Senat müqaviləni təsdiq etməsə də, onun hazırlanmasında xidmətlərinə görə 1919-cu il üçün Nobel sülh mükafatına layiq görülüb.

**29. Uorren Hardinq (Warren Gamaliel Harding) -1865-1923**

Prezidentlik dövrü: 1921-1923-cü illər. Respublikaçı

Prezident kimi Konqresə ilk müraciətində ölkəni yüksək tariflər, gəmiçiliyə subsidayalar ayırmaq yolu ilə «normal həyat» dövrünə qaytarmaq istəyini bəyan edib, vergilərin azaldılması təklifini irəli sürüb. Müəyyən müddət ölkədə iqtisadi çiçəklənmə müşahidə olunub, müharibə dövrünün məhdudiyyətləri aradan götürülüb. Bununla belə, iqtisadiyyatın aqrar sahəsi ciddi problemlərin cəngində qalıb.

Prezidentliyi dövründə dövlət aparatında korrupsiya halları aşkar edilib: daxili işlər və ədliyyə nazirlərinin, eləcə də bir sıra digər yüksək rütbəli dövlət məmurlarının rüşvət alması barədə məlumatlar ictimaiyyətin narazılığına səbəb olub. Bütün bu qalmaqallardan yorulub Alyaskaya səfərə çıxan prezident geri qayıdarkən xəstələnərək, 1923-cü ilin avqustunda vəfat edib.

**30. Kəlvin Kulic (Calvin Coolidge)- 1872-1933**

Prezidentlik dövrü: 1923-1929-cu illər. Respublikaçı

Massaçusets ştatının qubernatoru olub və bu vəzifədə böyük populyarlıq qazanıb.l920-ci ildə Hardinqlə birlikdə seçkilərə qatılıb və vitse-prezident seçilib. Hardinqin ölümündən sonra - 1923-cü ildə prezident kimi and içib.

Onun prezidentliyi 20-ci illərin iqtisadi yüksəliş dövrünə təsadüf edib. Uzunmüddətli iqtisadi inkişafın rəmzi və təminatçısı kimi tanınıb, iqtisadi həyata dövlət müdaxiləsini minimuma endirib.

Mətbuatla normal münasibətlər qurması prezident kimi uğur qazanmasında mühüm rol oynayıb. Həyata keçirdiyi siyasəti ölkə əhalisinə çatdırmaqda radionun imkanlarından istifadə edən ilk prezident olub.

Yenidən prezident seçildiyi 1924-cü ildə Amerika hindularına vətəndaşlıq hüququ verib.

1927-ci ildə gözlənilmədən növbəti seçkilərdə namizədliyini irəli sürməyəcəyini bəyan edib və bununla da özünün hökumətində ticarət naziri işləmiş Huverin prezident seçilməsinə yol açıb.

Az danışması və hazırcavablığı barədə çoxlu lətifələr yaranıb.

1933-cü ildə - 60 yaşında infarktdan keçinib.

31. **Herbert Huver (Herbert Clark Hoover) - 1874-1964**
Prezidentlik dövrü: 1929-1933-cü illər. Respublikaçı

1921-28-ci illərdə ticarət naziri olub, 1929-cu ildə isə Respublikaçılar Partiyasının namizədi kimi prezident seçilib.

Əksər prezidentlərdən fərqli olaraq, dövlət başçısı seçilənə qədər heç bir seçkili vəzifə tutmayıb.

Seçkiqabağı kampaniyaya «Hər qazanda toyuq, hər qarajda avtomobil» - şüarı ilə qoşulub və qalib gəlib.

Onun prezidentliyi dövründə hökumət böyük biznesə yardım göstərərək, sadə əhalinin vəziyyətinin yaxşılaşdırılması istiqamətində heç bir iş görməyib. Nəticədə dünya iqtisadi böhranı ABŞ-ı da ağuşuna alıb - sənaye müəssisələri bağlanıb, milyonlarla adam, o cümlədən hər dörd fəhlədən biri işsiz qalıb.

1932-ci ildə ikinci dəfə namizədliyini irəli sürsə də, seçilə bilməyib. İkinci dünya müharibəsindən sonra Amerika hökumətinin tapşırığı ilə Avropa və Asiyanın 25 ölkəsini gəzib, bu ölkələrə ərzaq yardımı göstərilməsi problemi ilə məşğul olub.

Ağ evi tərk edəndən sonra 31 il ömür sürüb və 90 yaşında vəfat edib.

**32. Franklin Ruzvelt (Franklin Delano Roosevelt) - 1882-1945**
Prezidentlik dövrü: 1933-aprel 1945-ci illər. Demokrat

Dörd dəfə prezident seçilmiş yeganə dövlət başçısı olub (Konstitusiyaya prezidentlik müddətini iki seçki ilə məhdudlaşdıran 22-ci düzəliş 1951-ci ildə qəbul olunub). 1921-ci ilin avqustunda istirahət zamanı soyuq suda çimdiyi üçün poliomielit xəstəliyinə tutulub və ömrünün axırına kimi sərbəst hərəkət etmək qabiliyyətini itirib. Buna baxmayaraq, ölənə qədər aktiv siyasi fəaliyyətlə məşğul olub.

Uzaq qohumu olan Teodor Ruzveltə böyük rəğbət bəsləyib və hələ gəncliyində Ağ evə gedərək, bir çox məsələlərdə ondan məsləhət alıb.

Hakimiyyətə «Böyük iqtisadi tənəzzül» dövründə - 1933-cü ildə gəlib. Sosial problemlərin həllinə yönəlmiş bir çox proqramların müəllifidir. İqtisadiyyatın idarə olunması sahəsində bir sıra yeniliklər edib, həyata keçirdiyi islahatlar «Yeni siyasət» (New Deal) adı ilə tarixə düşüb. İkinci dünya müharibəsi illərində onun hökuməti SSRİ, Böyük Britaniya və Fransa ilə müttəfiqlik edib, antihitler koalisiyasının fəal üzvü olub. Mətbuatla açıq münasibətlərin tərəfdarı olub, ən kəskin suallardan belə qaçmayıb, hazırcavablığı ilə seçilib.

BMT-nin yaradılmasında xüsusi xidmətləri var.

1944-cü ildə dördüncü dəfə prezident seçilib. Lakin növbəti ilin aprelində beyninə qan sızmasından vəfat etdiyi üçün iyul ayında keçirilən Potsdam sülh konfransında ABŞ-ı yeni prezident H.Trumən təmsil edib.

**33. Harri Trumən (Harry Truman) - 1884-1972**
Prezidentlik dövrü: 1945-1953-cü illər. Demokrat

F.Ruzveltin ölümündən sonra, 1945-ci ilin aprelində prezident kimi and içib.

Avropanın inkişafına Trumən qədər təsir edən Amerika prezidenti olmayıb. Onun dövründə kommunist ideologiyasının yayılmasının qarşısını almaq məqsədilə həyata keçirilən «Marşall planı» Avropada həm də iqtisadi tənəzzülü dayandırıb.

NATO-nun yaradılması haqqında qərarın qəbul edilməsi də onun prezidentliyi dövrünə təsadüf edib.

1945-ci ilin avqustunda Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası atılmasına icazə verib.

İkinci prezidentliyi dövründə vətəndaş hüquqlarının qanunla tənzimlənməsi, məcburi ümummilli tibbi sığorta və s. kimi tədbirləri həyata keçirib. Xarici siyasətdə kommunist ekspansiyasının qarşısını almaq məqsədilə inkişaf etməkdə olan ölkələrə yardımın artırılmasına nail olub, «soyuq müharibə»nin ideoloqlarından sayılır.

1950-ci ildə Koreyaya qoşun yeridib.

Sonralar memuarlarında bir fikri xüsusi vurğulayıb ki, prezident olmaq - «böyük qərarlann qəbulu zamanı tənha, son dərəcə tənha olmaq deməkdir».

**34. Duayt Eyzenhauer (Dwight David Eisenhower) -1890-1969**

Prezidentlik dövrü: 1953-1961-ci illər. Respublikaçı

Əcdadları Amerikaya 18-ci əsrin əvvəllərində Almaniyadan köçüblər.

Peşəkar hərbçi olub. İkinci dünya müharibəsi dövrünün görkəmli sərkərdələrindən sayılır.

1941-ci ildə general-mayor rütbəsi alıb. 1942-ci ildə Avropadakı ABŞ Silahlı Qüvvələrinin baş komandanı təyin edilib, 1943-cü ildə isə müttəfiqlərin Avropadakı silahlı qüvvələrinin ali baş komandanı olub. Almaniya təslim olandan sonra Amerikanın bu ölkədəki qoşunlarının ali baş komandanı təyin edilib, 1945-ci ilin iyununda ABŞ-a qayıdıb.

Amerikada o qədər populyar olub ki, ölkəyə qayıdarkən adamlar onu qarşılamaq üçün küçələrə tökülüşüblər. Məhz həmin vaxt dostları ona siyasətlə məşğul olmağı məsləhət görüblər.

1950-1952-ci illərdə NATO-dakı Amerika qoşunlarının komandanı olub.

Əhali arasında populyarlığını nəzərə alaraq, 1952-ci ildə həm demokratlar, həm də respublikaçılar Eyzenhaueri prezidentliyə namizəd kimi görmək istəyiblər. Çox fikirləşdikdən sonra respublikaçıların təklifini qəbul edib.

Prezident olarkən sürətlə artan hərbi xərcləri azaldıb, orduda ixtisar aparmağı təklif edib.

Xarici siyasət sahəsində çeviklik göstərərək, ‚ABŞ-ın hər hansı bir müharibəyə qoşulmasına imkan yaratmayıb, Koreyada isə müharibənin dayandırılmasına nail olub.

**35. Con Kennedi (John Fitzgerald Kennedy) - 1917-1963**

Prezidentlik dövrü: 1961-1963-cü illər. Demokrat

Doqquz övladı olan varlı irland ailəsində doğulub.

İkinci dünya müharibəsi illərində döyüş gəmisinin kapitanı olub, müharibə vaxtı kürəyindən yaralanıb və ömrünün axırına kimi bu yaradan əziyyət çəksə də, ictimaiyyət prezidentin xəstəliyindən onun ölümündən sonra xəbər tutub.

Prezidentliyi dövründə sosial-iqtisadi proqramlar həyata keçirib, hərbi blokların və ABŞ Silahlı Qüvvələrinin gücləndirilməsinin tərəfdarı olub.

1962-ci ilin oktyabrında SSRİ-nin Kubada nüvə raketləri yerləşdirmək cəhdi ilə əlaqədar Sovet-Amerika münasibətləri son dərəcə gərginləşəndə, məsələni danışıqlar yolu ilə həll etməsi növbəti dünya müharibəsinin başlanmasının qarşısını alıb.

Onun məhəbbət macəraları haqqında əfsanələr dolaşıb. Prezidentliyinin ilk ilində ABŞ-ın ən populyar aktrisalarından olan Merilin Monro ilə intim münasibətlərdə olub, lakin sonralar qardaşı, onun hökumətində ədliyyə naziri vəzifəsini tutan Robert Kennedinin və yaxın köməkçilərinin təkidi ilə bu münasibətlərə son qoyub.

1963-cü il noyabrın 22-də Texas ştatının Dallas şəhərində öldürülüb. Rəsmi qatili sayılan Li

Harvi Osvald həbs edilsə də, hadisə ilə bağlı şübhələr və versiyalar hələ də yaşayır: çünki qatil özünü günahkar bilməyib və iki gün sonra polis əməkdaşları tərəfindən güllələnib.

Amerikada keçirilən bir çox sorğuların nəticələrinə görə ən populyar prezidentlərdən biri sayılır.

**36. Lindon Conson (Lyndon Baines Johnson) -**
Prezidentlik dövrü: 1963-1969-cu illər. Demokrat

Kennedinin prezidentliyi dövründə vitse-prezident olub, onun ölümündən sonra prezident postunu tutub. Növbəti seçkilərə qədərki dövrdə vətəndaş hüquqları, vergilərin azaldılması və təhsilə yardım haqqında qanunların Konqresdə qəbuluna nail olub.

1964-cü il seçkilərində ikinci müddətə seçilib. Yoxsulluqla mübarizə işinə milyard dollardan çox pul ayırmağa nail olub. 1965-ci ildə mənzil tikintisi və şəhərlərin inkişafı nazirliyini yaradıb və bu quruma onun kabinetinin ilk Afrika mənşəli üzvü rəhbərlik edib.

Amerika qoşunları onun dövründə Vyetnama yeridilib, 1965-ci ildə Dominikan Respublikasına hərbi müdaxilə təşkil edib. Vyetnam müharibəsi prezidentin reytinqini aşağı salıb, ölkədə ciddi iqtisadi problemlər yaranıb, inflyasiya sürətlənib, əhalinin artımı Amerika tarixində ən aşağı həddə çatıb.

**37. Riçard Nikson (Richard Milhous Nixon) -1913-1994**
Prezidentlik dövrü: 1969-1974-cü illər. Respublikaçı

Hüquq təhsili alıb. İkinci dünya müharibəsi illərində hərbi-dəniz qüvvələrində xidmət edib. Eyzenhauerin dövründə vitse-prezident olub, prezidentin tapşırığı ilə dünyanın 56 ölkəsinə səfər edərək, beynəlxalq məsələlərlə məşğul olub.

Prezident kimi xarici siyasət sahəsində uğurlu addımlar atıb: ABŞ-ı Vyetnam müharibəsinə çıxarıb, Çinlə münasibətləri normallaşdınb və bu ölkəyə səfər edib. 1972-ci ildə Moskvaya səfər etməklə, Sovet-Amerika münasibətlərində yeni mərhələ açıb.

Daxili siyasətdə sosial təminat sahəsində islahatlar aparıb, ölkəni bürümüş inflyasiya və enerji böhranını aradan qaldırıb.

1972-ci ildə ikinci müddətə prezident seçilsə də, il yarım sonra tərəfdarlarının və kabinet üzvlərinin çoxsaylı qanun pozuntularına yol verdiyi aşkar edildiyindən ölkədə böyük siyasi qalmaqal yaranıb. 1974-cü ilin iyununda səsyazma qurğusu yerləşdirmək məqsədilə Demokratlar Partiyasının Vaşinqtondakı «Uotergeyt» otelindəki qərargahının qapısını sındırmaq istəyən 5 nəfər həbs olunub. Onlardan ikisinin Niksonun seçki komitəsinin əməkdaşı olduğu təsdiq edilib, həmin şəxslərin prezident seçkilərində çirkli pullardan istifadə etdikləri sübut olunub. Bu işlərdə prezidentin də əli olduğu müəyyənləşdirilib və Nümayəndələr palatasının hüquq komitəsi Niksonu vəzifədən kənarlaşdırmağı tövsiyə edib. Tarixə «Uotergeyt işi» kimi düşən bu qalmaqalın impiçmentə gətirib çıxaracağını başa düşərək, avqust ayında istefa verib.

Sevimli aforizmi: «Mətbuata 1 dollar yatırmaq silah istehsalına 10 dollar yatırmaqdan daha sərfəlidir. Çünki silah, ümumiyyətlə, çətin ki, danışsın, amma mətbuat səhərdən-axşamadək ağzını yummur».

**38. Cerald Ford (Gerald Rudolph Ford) - 1913**
Prezidentlik dövrü: 1974-1977-ci illər. Respublikaçı

Hüquq təhsili alıb, 1948-ci ildən Nümayəndələr palatasının üzvü olub. «Soyuq müharibə» illərində «qatı quzğun» ləqəbi qazanıb. Daxili siyasətdə mühafızəkar sayılıb, hətta onu irticaçı

və gizli rasist də adlandırıblar. Həmkarlar ittifaqları və fermerlər əleyhinə çıxıb, mənzil tikintisinə yardım haqqında qanunun əleyhinə səs verib.

Niksonla birgə seçilmiş vitse-prezident Spiro Əqnyü Merilənd ştatının qubernatoru olduğu vaxt vergilərdən yayındığı və vitse-prezident kimi rüşvətxorluqda ittiham olunduğu üçün istefa verib, prezident isə Konqresə Fordun namizədliyini təklif edib. 1973-cü ilin dekabrında vitse-prezident kimi and içib.

Niksonun istefasından sonra, 1974-cü il avqustun 9-da prezident postunu qəbul edib. Həmin vaxtlar Amerika «Böyük iqtisadi tənəzzül»dən sonra ölkə tarixində ən güclü inflyasiya və kütləvi işsizlik dövrünü yaşayıb. Prezidentin bu problemi vergilərin artırılması yolu ilə həll etmək istəyinə demokratik çoxluqdan ibarət Konqres mane olub.

Xarici siyasət sahəsində silahların azaldılmasının tərəfdarı olub.

**39. Cimmi Karter (James Earl Carter) - 1924**

Prezidentlik dövrü: 1977-1981-ci illər. Demokrat

Hərbi dənizçilik akademiyasını bitirib, atom sualtı gəmilərində qulluq edib. Corciya ştatının qubernatoru olmaq üçün seçkilərə qatılsa da, uğur qazana bilməyib. 1976-cı ildə prezidentliyə namizəd kimi seçki marafonuna qoşularkən onu Corciya ştatından kənarda heç kim tanımayıb. Həmin il keçirilən sorğular göstərib ki, demokrat seçicilərin cəmi 4 faizi onu dəstəkləyir. Buna baxmayaraq, seçkiqabağı kampaniya zamanı verdiyi cəlbedici vədlər (məsələn, naməlum uçan obyektlərin sirrinin açılacağını vəd etsə də, seçiləndən sonra bu söhbəti unudub) reytinqinin tezliklə yüksəlməsinə və rəqiblərindən qabağa çıxmasına imkan yaradıb; demokratların namizədi kimi seçkiyə qatılıb və qalib gəlib.

Prezident kimi ilk qərarı Vyetnam müharibəsindən yayınanların hamısı, o cümlədən boks kralı Məhəmməd Əli barədə amnistiya olub.

Əyalət şəhərlərinə səfərlər edib, ictimaiyyətlə görüşlər keçirib, radionun «Prezident Karterdən soruş» proqramında müntəzəm olaraq həmvətənlərinin suallarına cavab verib, milli azlıqların nümayəndələrini vəzifələrə təyin edib.

Yaxın Şərq münaqişəsinin həllinə yönəlmiş məşhur Kemp-Devid sazişi də onun prezidentliyi dövründə (1978) imzalanıb.

Bütün prezidentliyi müddətində Konqreslə münasibətləri mürəkkəb, hətta bəzən düşmənçilik səviyyəsində olub. Sovet qoşunlarının Əfqanıstana yeridilməsinə etiraz əlaməti kimi, SSRİ-yə Amerika taxılı satılmasını qadağan edib, 1980-ci ilin Moskva olimpiadasını boykot edib.

Beynəlxalq münaqişələrin sülh yolu ilə həllində böyük xidmətlərinə, demokratiya və insan hüquqlarının qorunmasında fəaliyyətinə görə 2002-ci ildə Nobel sülh mükafatına layiq görülüb.

**40. Ronald Reyqan (Ronald Wilson Reagan) - 1911-2004**

Prezidentlik dövrü: 1981-1989-cu illər. Respublikaçı

Gəncliyində radioda idman şərhçisi olub, 1937-ci ildə aktyorluğa başlayıb, uzun illər Hollivudda çalışıb, 50-dən çox filmə çəkilib. 6 dəfə kinoaktyorlar gildiyasının prezidenti seçilib. 1962-ci ilə qədər demokrat olub, 1966-cı ildə bir çox varlı respublikaçı kaliforniyalının təklifi ilə qubernatorluğa namizədliyini irəli sürüb. İki dəfə qubernator seçilib. 1968-ci ildə prezidentliyə namizədliyini irəli sürsə də, bu arzusuna 12 il sonra çatıb.

Birinci prezidentlik müddətinin ilk vaxtlarında iqtisadi tənəzzül davam edib, 1982-ci ildə işsizlik səviyyəsi 11 faiz təşkil edib. 80-ci illərin ortalarında isə iqtisadiyyatda çiçəklənmə başlayıb. 1984-cü il seçkilərində rəqiblərindən fərqli olaraq, vergiləri artırmayacağını vəd edərək, ikinci dəfə prezident seçilib.

Daha çox iqtisadi sahələrdə yenilikləri ilə yadda qalıb. Vergiləri azaltmağa, yüksək texnologiyalara və bahalı müdafiə sistemlərinə əsaslanan hərbi xərcləri artırmağa nail olub.

SSRİ-nin dağılmasında xüsusi xidmətləri var. 1983-cü ildə SSRİ-ni «şər imperiyası» adlandırıb.

Onun dövründə ABŞ qoşunları Qrenadada hökuməti devirib, ABŞ Əfqanıstanda və

Anqolada hökumət əleyhinə çıxışlara hərbi və maliyyə dəstəyi verib, 1982-ci ildə Livana dəniz piyadaları yeridilib, 1986-cı ildə Liviya beynəlxalq terrorizmdə ittiham olunaraq bombalanıb, İran-İraq müharibəsində İraqa yardım göstərilib.

2004-cü ildə, 93 yaşında uzun sürən altsigeymer xəstəliyindən vəfat edib.

**41. Ata Corc Buş (George Herbert Walker Bush) - 1924**

Prezidentlik dövrü: 1989-1993-cü illər. Respublikaçı

Bankir ailəsində doğulub, hərbi akademiyada təhsil alıb. İkinci dünya müharibəsi illərində hərbi dəniz aviasiyasında təyyarəçi olub. 1948-ci ildə Yel universitetinin iqtisadiyyat fakültəsini bitirib və Texasda neft biznesi ilə məşğul olub, neft şirkəti yaradıb, 1966-cı ildə biznesi ataraq, siyasətlə məşğul olmağa başlayıb.

ABŞ-ın BMT-də nümayəndəsi olub, Çində səfir işləyib, 1976-1977-ci illərdə Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru, 1980-1988-ci illərdə isə Reyqan administrasiyasında vitse - prezident olub.

Prezidenliyi dövründə xarici siyasət problemlərinin həllinə xüsusi diqqət yetirib, ABŞ-ın dünyada sivilizasiya və demokratiyanın əsas müdafiəçisi kimi təqdim olunmasının tərəfdarı sayıhb. 1989-cu ildə hərbi müdaxilə yolu ilə Panamada hakimiyyəti dəyişdirib, Mərkəzi Avropada və SSRİ-də gedən demokratik prosesləri dəstəkləyib.

1990-cı ildə İraq Küveyti zəbt etdiyi üçün anti İraq koalisiyası təşkil edib, «Səhrada tufan» əməliyyatı vasitəsilə Səddam Hüseynin qoşunlarmı darmadağın edib.

Xarici siyasətdə uğurlarına baxmayaraq, 1990-cı ildən başlayan iqtisadi tənəzzül şəxsi reytinqini aşağı salıb və 1992-ci il seçkilərində demokrat Klintona uduzub.

**42. Bill Klinton (William Jefferson Clinton) - 1946**

Prezidentlik dövrü: 1993-2001-ci illər. Demokrat

Dünyaya gələndən bir neçə ay sonra atası avtomobil qəzasında həlak olub. Anası 1950-ci ildə avtomobil ticarətçisi Rocer Klintona ərə gedib və gələcək prezident 15 yaşından atalığının soyadını daşıyıb.

Corctaun universitetinin xarici siyasət fakültəsini bitirib, Böyük Britaniyadakı Oksford universitetində oxuyub. 1970-ci ildə, Britaniyadan qayıdandan sonra Yel universitetinin hüquq fakültəsinə daxil olub. Gəncliyində saksofonçalan olub.

32 yaşında Arkanzas ştatının qubernatoru postuna seçkilərdə qalib gələrək, ən gənc qubernator olub. Sonralar bir neçə dəfə qubernator seçilib, təhsil sahəsində islahatlara üstünlük verib.

Prezidentliyinin ilk çağlarında səhiyyə və ticarət azadlığı məsələlərinə xüsusi diqqət yetirib. Arvadı Hillari Klintonu səhiyyə sistemində islahatlar komissiyasının rəhbəri təyin edib.

Xarici siyasətdə liberal dəyərlərə üstünlük verib, Şimali Koreya ilə nüvə silahlarına dair problemləri danışıqlar yolu ilə həll edib. BMT-nin razılığı ilə Haitiye qoşun yeridib və orada demokratik hakimiyyəti bərpa edib.

Balkan yarımadasında münaqişənin həllinə nail olub.

İkinci dəfə prezident seçilməsində daxili siyasətdəki uğurları, xüsusən sabit iqtisadi inkişaf əsas rol oynayıb.

1998-ci ildə Ağ evdə təcrübə keçən tələbə Monika Levinski ilə intim əlaqəsinə görə impiçment prosedurunа məruz qalıb, lakin Senat onu günahsız hesab edib.

1997-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin ABŞ-a ilk rəsmi dövlət səfəri zamanı ölkəmizlə ABŞ-ın strateji müttəfiqliyini tanıyan «Birgə bəyannamə»ni imzalayıb. Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşmasında xüsusi mənəvi-siyasi xidmətləri olub.

**43. Oğul Corc Buş (George Walker Bush) - 1946**
Prezidentlik dövrü: 2001-... Respublikaçı

1946-cı ildə doğulub, Yel universitetini bitirib, hərbi hava qüvvələrində xidmət edib.

1994-cü ildə Texasın qubernatoru seçilib. Bütün qubernatorlardan çox - 152 ölüm hökmünə imza atıb. 2000-ci ilə qədər bu hökmlərdən yalnız biri icra olunsa da, bu fakt ictimai qınağa səbəb olub.

2000-ci il seçkilərinin nəticələrinə əsasən, uzun müddət qalibi müəyyən etmək çətin olub, qardaşı Ceb Buşun qubernator olduğu Florida ştatında seçkilərin nəticəsinin saxtalaşdırıldığı barədə məlumatlar yayılıb. Lakin dekabr ayında ABŞ Ali Məhkəməsi dörd səs əleyhinə, beş səs lehinə olmaqla, oğul Buşu prezident elan edib.

Ginnesin Rekordlar kitabmm məlumatına görə, Buş hakimiyyətində varlı adamların sayı rekord təşkil edir. Bununla belə, yeni prezidentin kabineti irqi və milli azlıqların nümayəndələrinin sayına görə də rekord vurub. O, Asiya əsilli iki nəfəri nazir təyin edib, Afrika mənşəli Kolin Pauelə (2001) və xanım Kondoliza Raysa (2005) yüksək vəzifə - dövlət katibi vəzifəsini tapşırıb.

ABŞ tarixinin ən dəhşətli faciəsinin - 3 min nəfərə yaxın insanın həlak olması ilə nəticələnən 2001-ci ilin 11 sentyabr hadisələrinin baş verdiyi günü terrorizmlə müharibənin başlandığı gün elan edib. 2001-ci ilin noyabrında Əfqanıstanın «Taliban» rejimini devirib, 2003-cü ilin martında İraqa qoşun yeridib və Səddam Hüseyn rejiminə son qoyub.

«Azadlığa dəstək aktı»na edilmiş 907-ci düzəlişin - ABŞ hökumətinin Azərbaycana maliyyə yardımını qadağan edən düzəlişin qüvvəsinin dayandırılması (2002) onun adı ilə bağlıdır.

## "Birinci Ledi" Fenomeni

ABŞ Konstitusiyasında prezidentlərin xanımları barədə birinci ledilər haqqında maddə yoxdur. Prezidentin xanımı rəsmi vəzifə daşımır və maaş almır. Onun əsas vəzifəsi rəsmi tədbirlərdə ərini müşaiyət etmək, qayğıkeş arvad və mehriban ana nümunəsi göstərməkdir.

Bununla belə, ölkənin siyasi həyatına birinci ledilərin təsirini danmaq olmaz. Qeyd edək ki, ABŞ-da «birinci ledi» titulu yalnız 20-ci əsrdə geniş işlənməyə başlayıb.

ABŞ-ın ilk prezidentinin arvadı Marta Vaşinqton gələcək prezidentin general kimi döyüşdüyü illərdə daim onun ardınca döyüş bölgələrinə gedib, yaralılara yardım göstərib, onların paltarlarını tikib, xörək bişirib. Əri prezident seçildikdən sonra, demək olar ki, siyasi proseslərə müdaxilə etməyib. Lakin cümə günləri Ağ evdə qadınlar üçün çay süfrəsi təşkil edib və bu ənənə indiyədək yaşayır.

2-ci prezident Con Adamsın arvadı Abigeyl Adams isə, əksinə, siyasi fəallığı ilə seçilib və buna görə tənqid hədəfinə çevrilib.

Ceffersonun prezident seçilməsindən 18 il əvvəl arvadı vəfat edib və o, bir daha evlənməyəcəyi barədə verdiyi vədə ömrünün sonuna kimi sadiq qalıb. Ona görə də prezident seçilərkən Ağ Evin sahibəsi roluna dövlət katibi Ceyms Mədisonun xanımı Dolli Mədisonu məsləhət görüb. Dolli bu işin öhdəsindən o qədər uğurla gəlib ki, ərinin prezident seçilməsində də mühüm rol oynayıb.

Dolli Medison 1814-cü ilin avqustunda Britaniya qoşunlarının hücumu zamanı Ağ evdən mühüm dövlət sənədlərinin və digər qiymətli əşyaların evakuasiya olunmasına rəhbərlik edib.

Əndryü Ceksonun xanımı Reçel 1828-ci il seçkilərində ərinə yaxından kömək edib. O, Ceksonla yaşamağa başlayanda hələ əvvəlki əri ilə nikahı pozulmadığı üçün Reçeli xəyanətdə ittiham ediblər. Bütün bu təhqirlərə dözməyən Reçel ərinin iniaqurasiya mərasiminə qədər infarkt keçirib və vəfat edib. Ona görə də birinci ledi funksiyasını prezidentin qohumu Emili Donelson yerinə yetirib.

Culiya Tayler vəzifədə olan prezidentə ərə gedən ilk qadın olub. Con Tayler prezident seçiləndən il yarım sonra arvadı vəfat edib və o, özündən 30 yaş kiçik Culiya ilə evlənib. Culiya ilk dəfə özünə şəxsi mətbuat katibi təyin edən birinci ledi sayılır.

11-ci prezidentin xanımı Sara Polk Ağ evdə tünd spirtli içkiləri və qumar oyunlarını qadağan etməsi ilə yadda qalıb.

General Zakari Teylorun arvadı Marqaret döyüş bölgələrində həmişə ərinin yanında olsa da, onun prezident seçilməsini istəməyib. Ərinin namizəd olduğunu eşidəndə isə dəhşətə gəlib və hər axşam dua edib ki, o, seçilməsin. Qəribədir ki, prezident seçiləndən 17 ay sonra Z.Teylor qəflətən vəfat edib.

13-cü prezident Millard Fillmorun arvadı Abigeyl birinci ledi kimi Ağ evdə bircə kitabın, hətta Bibliyanın olmamasından dəhşətə gəlib və kitab almaq üçün vəsait ayırmaq xahişi ilə Konqresə məktub yazıb, ayrılan vəsaitə kitabları özü alıb.

Abraham Linkolnun arvadı Meri Linkoln emosional xarakteri və qısqaclığı ilə ərinə kifayət qədər ciddi problemlər yaradıb. Vətəndaş müharibəsinin çətinliklərinə baxmayaraq, Konqres dən Ağ evin təmirinə pul ayrılmasını inadkarlıqla tələb edib. A.Linkoln güllələnəndə onun dəfnində iştirak etməkdən boyun qaçırıb. Oğlu onu psixatriya xəstəxanasına yerləşdirməyə məcbur olub.

19-cu prezident Heysin arvadı Lüsi Heys Ağ evdə spirtli içki və qumar oyunlarını, rəqs etməyi və hətta bilyard oynamağı qadağan edib. Yeganə istisna 1877-ci ildə Rusiya nümayəndələrinin qəbulu zamanı edilib - müşavirlər onu inandıra biliblər ki, ruslarla içkisiz heç bir danışıq nəticə verməyəcək.

Frensis Klivlənd ən gənc birinci ledi sayılır: o, 22 yaşında 47 yaşlı prezidentə ərə gedib və Ağ evdə ilk və yeganə toy mərasimi keçirilən birinci ledi olub. Onun şəkillərindən müxtəlif malların reklamında istifadə edilib. O vaxt buna görə icazə tələb olunmayıb. Prezidentin müvafiq qanun qəbul etdirmək istəyini isə Konqres dəstəkləməyib.

Bencamin Harrisonun arvadı Kerolaynın tələbi ilə Ağ evdə ilk dəfə telefon kommutatoru qoyulub (o vaxta qədər bütün administrasiya üçün cəmi bir telefon olub) və elektrik işığı çəkilib. Bununla belə, novator qadın elektrikdən o qədər qorxub ki, ömründə bir dəfə də olsun, işığı özü yandırıb-söndürməyib. Əri də elektrikdən qorxub. Bir dəfə Ağ evdə qulluqçu olmadığı üçün onlar gecə işığı söndürməyə cəsarət etməyərək, səhərə qədər işıqda yatmalı olublar.

Uilyam Makkinlinin arvadı da heç vaxt qəbullarda iştirak etməyib. Həmişə yataq otağında corab toxumaqla məşğul olub. 3500 cüt ev ayaqqabısı toxuyub və xeyriyyə məqsədləri ilə satdırıb.

Teodor Ruzveltin arvadı Edit 6 uşaq böyüdüb və ictimai tədbirlərdə, demək olar ki, görünməyib. Lakin əri bütün mühüm məsələləri onunla müzakirə edib. Bəzən ev müzakirələri ciddi mübahisələrlə nəticələnib.

27-ci prezident Uilyam Taft iclaslarda və protokol tədbirlərində yuxulamağa adət edibmiş. Ona görə də arvadı Helen Taft onu hər yerdə müşaiyət edir, iclaslarda mürgüləməyə başlayan dövlət başçısını dərhal yuxudan oyadırmış. Taftlar Ağ evdə inək saxlayan son ailə olub.

Ağ evdə onları Uilsonlar əvəz edib və Uilsonun arvadı Ağ evdə qoyun saxlamağa başlayıb. O, qoyunların yununu Birinci dünya müharibəsi illərində hərracda satdıraraq, gələn gəliri Qırmızı Xaç cəmiyyətinin fonduna keçirtdirib. Bu qadın həm də, demək olar ki, Uilsonun katibliyinin rəisi funksiyasını yerinə yetirib. Prezidentin kimi və nə vaxt qəbul etməsini o müəyyənləşdirib.

Herbert Huverin arvadı Lu Huver ərindən daha parlaq şəxsiyyət olub: geologiya sahəsində təhsil alan ilk qadm sayılıb, bir neçə dil bilib. ABŞ-da uşaq idmanını dəstəkləməklə yadda qalıb.

Amerikanın ən görkəmli birinci ledisi Franklin Ruzveltin arvadı Eleonor Ruzvelt sayılır. İkinci dünya müharibəsi illərində hərbi hissələrə baş çəkib, həmin dövrdə ABŞ-ın mülki müdafiə idarəsi rəisinin birinci müavini vəzifəsini tutub. Müntəzəm mətbuat konfransları (ancaq qadın reportyorlar dəvət edilib) keçirən ilk prezident arvadı olub. Ərinin vəfatından sonra ABŞ-ın BMT-də nümayəndəsi kimi çalışıb.

Jaklin Kennedi ən cazibədar birinci ledi sayılır. Ağ evdə ən məşhur artistlərin konsertini təşkil edib. Ərinin ölümündən dərhal sonra onun qardaşı Robert Kennedi ilə, sonralar müxtəlif məşhur artistlərlə, nəhayət, yunan milyonçu Aristotel Onasislə alovlu məhəbbət macəraları yaşaması ilə yadda qalıb.

Ledi Conson qarşısına ABŞ-ı gözəlləşdirmək məqsədi qoyub və küçələrdə çiçək əkdirib.

Betti Ford ağıldankəm uşaqların qayğısına qalıb, yetim uşaqlar üçün Ağ evdə qəbul təşkil edib. Tez-tez uşaq xəstəxanalarına baş çəkib, qocalara, xəstələrə və kasıblara yardım proqramını dəstəkləyib. 1976-cı ildə ərinin Kartерə uduzmasını çox faciəvi şəkildə qarşılayıb; sakitləşdirici dərmanlar qəbul edib, içkiyə meyllənib və ağır xəstəliyə tutulub. 2 ildən sonra alkoqol və

narkotika asılılığından müalicə olunub. Bundan sonra alkoqol asılılığı ilə mübarizə məqsədilə xüsusi mərkəz yaradıb.

Rozalin Karter incəsənətə xüsusi diqqət yetirib, ruhi xəstələr üçün xəstəxanalarda vəziyyətin yaxşılaşdırılmasına çalışıb.

Nensi Reyqan və Barbara Buş narkotiklərlə və alkoqolla mübarizə sahəsində xüsusi fəallıq göstəriblər.

Hillari Klinton səhiyyə sistemində islahatlara yardım göstərib. Demokrat Klintona ərə gedincə Respublikaçılar Partiyasının fəallarından olub. Yeganə birinci ledidir ki, Senata üzv seçilib.

Lora Buşun siyasi ambisiyası yoxdur. Kitab oxumağı təbliğ edir, kitabxanalara dəstək verir.

**Prezidentlərin həyatından maraqlı faktlar**

.. .Corc Vaşinton at minməyi xoşlayırmış. Amma mindiyi atın ideal dərəcədə təmiz olmasını tələb edirmiş. Atların dişlərinin təmizliyinə xüsusi fikir verirmiş.

...Tomas Cefferson hələ sağlığında öz əli ilə özünə başdaşı düzəldib və üstünə həkk etdiyi mətndə mərhumun vaxtilə ABŞ prezidenti olduğunu göstərməyib.

...Ağ evdə ilk dəfə Cefferson «Açıq qapı günü» elan edib ki, istənilən şəxs prezidentlə görüşə bilsin. Bu ənənə əhalinin o qədər xoşuna gəlib ki, 7-ci prezident Əndryü Cekson Ağ evə doluşan kütlənin cəngindən qurtulmaq üçün qabağına çıxan mebeli və qab-qacağı sındıraraq, pəncərədən qaçmah olub.

...1800-cü illərin əvvəllərində T.Cefferson kimliyindən asılı olmayaraq, qarşılaşdığı hər kəsin əlini sıxıb. Çünki o, bir-birinə təzim etmək kimi qədim Avropa ənənəsini qeyri-demokratik ritual sayıb.

...Tomas Cefferson Virciniya ştatındakı evində bilyard masası saxlayıb, halbuki onun prezidentliyi dövründə Virciniyada bilyard oyunu qadağan edilib.

...ABŞ-ın 2-ci və 3-cü prezidentləri Con Adams və Tomas Cefferson eyni gündə - 1826-cı il iyulun 4-də vəfat ediblər.

...Con Kuinsi Adams tez-tez səhərlər Potomak çayında lüt-üryan çimirmiş. O, libasını dəyişməyi xoşlamır, bir kostyumu on *r.nx* pevinirmis.

1809-cu ildə Rusiyaya səfir təyin olunanda pulun azlığını nəzərə alaraq, iki oğlunu Amerikada qoymuş və yalnız kiçiyini özü ilə götürübmüş. Arvadı isə bundan gəmiyə minəndən sonra xəbər tutubmuş. Beləliklə, valideynlər düz 8 il böyük oğlanlarını görməyiblər.

...İlk altı prezidentdən dördü - Vaşinqton, Cefferson, Medison və Adams ali dövlət vəzifəsinə 57 yaşında seçiliblər.

...Amerikanın altı prezidenti - C.Vaşinqton, Cekson, U.Harrison, Teylor, Qrant və Eyzenhauer peşəkar hərbçi olublar.

...Əndryü Cekson duel azarkeşi olub. Duellərin birində sinəsinə güllə dəyib və cərrahlar onu çıxara bilmədikləri üçün ömrünün axırına kimi bədənində gəzdirib.

-...Martin Van Büren Birləşmiş Ştatlar dövlətinin ərazisində doğulmuş ilk prezident olub. O, Müstəqillik bəyannaməsinin imzalanmasından 6 il sonra - 1782-ci ildə doğulub.

...Zakari Teylor həmişə və hər yerdə tütün çeynəyərmiş. Ona görə də rəsmi tədbirlərdə ovcunda tütün qabı saxlayarmış.

...Millard Fillmor Oksford Universitetinin fəxri doktoru mantiyasını geyinməkdən imtina edib. Səbəbini isə elmə heç bir töhfə verməməsi ilə bağlayıb.

...Ceyms Polkun 17 yaşı olanda öd kisəsini çıxarıblar. Həkimlər əməliyyat zamanı gələcək prezidentə ağrıkəsici preparat kimi konyak içiriblər.

...Ceyms Bükenen evlənməyən yeganə prezident olub.

...Abraham Linkoln həmişə başına hündür qara silindr qoyarmış. Silindrin içərisində isə... məktublar, maliyyə sənədləri, qanun layihələri və qeydlərini saxlayarmış.

...Əndryü Conson heç vaxt məktəbdə oxumayıb. Ona 17 yaşında oxumağı gələcək arvadı Eliza Makkardel öyrədib. Prezident yalnız özü tikdiyi paltarları geyinib.

...Uliss Qrant bütün ömrü boyu gündə 20 siqar çəkib və boğaz xərçəngindən vəfat edib.
...Telefondan istifadə edən ilk Amerika prezidenti Ceyms Qarfild sayılır.
...Ceyms Qarfıld bir əli ilə qədim yunan, o biri əli ilə latın dilində yaza bilib və poliqlot olub.
...Ağ evdə evlənmiş yeganə Amerika prezidenti Qrover Klivlənd olub.
...Bencamin Harrisonun elektrik işığından zəhləsi getdiyi üçün Ağ evdə olanda həmişə şam yandırtdırırmış.
...Teodor Ruzveltin anası və arvadı eyni gündə - 1894-cü il fevralın 14-də vəfat edib.
.. .Teodor Ruzvelt avtomobildə gəzən, eləcə də xarici ölkəyə (Panama) səfər edən ilk prezident olub.
...Uorren Hardinq həftədə azı iki dəfə poker oynayıb və hətta bir dəfə Ağ evə məxsus Çin istehsalı olan zərif qab-qacaq dəstini də uduzub.
...Herbert Huver 16 kitab nəşr etdirib. Bu kitablardan biri belə adlanıb: «Şənlənmək və ürəyin sakitliyi üçün balıq ovu» («Fishing for Fun And to Wash Your Soul»).
...Franklin Ruzvelt təyyarəyə minən ilk prezident sayılır.
...Harri Trumən ələ öyrəşdirilmiş keçi saxlayıb. Prezident işdə olanda keçi Ağ evin həyətindəki yaşılhqda otlayırmış.
...Lindon Conson əməkdaşlarına və qonaqlarına hədiyyə verməyi xoşlayırmış. Onun sevimli həliyyəsi ise elektrik diş şotkası olub. Consonun bioqrafı 10 il ərzində prezidentdən 12 belə şotka hədiyyə alıb.
.. .Riçard Nikson buxar qızdırıcısından imtina edərək, həmişə iş otağını Buxarı ilə qızdırıb.
...Cerald Ford dünyaya gələndə Lesli Linç Kinq kimi qeydə alınıb. Səbəbi də odur ki, uşaq doğulandan dərhal sonra atası Lesli Linç Kinq arvadından boşanıb. Gələcək prezidentin anası 1916-cı ildə Cerald Rudolf Forda ərə gedib və uşaq «oğul Cerald Rudolf Ford» kimi rəsmiləşdirilib.
...Cimmi Karter tarixi roman nəşr etdirmiş ilk prezidentdir. Qeyd edək ki, o, romanı Ağ evdən gedəndən sonra yazıb.
...1840-cı ildən başlayaraq, axırı sıfırla bitən ildə seçilən prezident ya iş yerində ölüb, ya da öldürülüb. Bu hadisələrin hamısı tək ildə və ayın cüt günündə baş verib. Lakin bu mənhus tilsim R. Reyqanın vaxtında qırılıb: ona sui-qəsd edilsə də, sağ qalıb.
...Bill Klinton vəzifədə olarkən göstəriş verib ki, Soks adlı pişiyi üçün İnternet saytı yaradılsın.
...Amerika prezidentlərindən boyca ən balacası Ceyms Mədison (162 santimetr), ən ucası Abraham Linkoln (193 santimetr) olub.
...Amerikanın üç prezidenti - T.Ruzvelt, V.Uilson və C.Karter Nobel sülh mükafatı laureatı olublar.

## Prezident övladları

...Amerika prezidentlərinin 152 uşağı olub - 90 oğlan və 62 qız. Ronald Reyqan yeganə prezidentdir ki, özünün üç övladı olduğu halda, övladlığa bir uşaq da götürüb.
...Con Tayler ABŞ tarixində ən çoxuşaqlı prezident sayılır: onun birinci arvadından 8, ikincidən isə 7 uşağı doğulub. 15-ci uşaq dünyaya gələndə prezidentin yaşı yetmişi keçibmiş.
.. .Oğul Corc Buş ABŞ tarixində dövlət başçısı seçilmiş ikinci prezident oğludur. Con Adams ABŞ-ın ikinci, oğlu Con Kuinsi Adams isə altıncı prezidenti olub.
...Tomas Cefferson rəsmi olaraq altı uşaq atası sayılıb. Amma sonralar sübut olunub ki, onun qaradərili qul Salli Heminqsdən də qeyri-qanuni övladı doğulub.
...Corc Vaşinqton, Ceyms Mədison, Əndryü Cekson, Ceyms Polk, Ceyms Bükenen və Uorren Hardinqin övladı olmayıb (Ceyms Bükenen, ümumiyyətlə, evlənməyib).
...Amerika prezidentlərinin 32 övladı hələ uşaq vaxtı xəstəlik üzündən və ya bədbəxt hadisə zamanı vəfat edib.
.. .Uilyam Makkinlinin birinci qızı 3 yaşında yatalaqdan vəfat edib, ikincisi isə doğulandan 5 ay sonra dünyasını dəyişib. Bu bədbəxt hadisələrdən sonra prezidentin arvadında epilepsiya xəstəliyi sürətlənib və o, ana ola bilməyib.

...Franklin Pirsin üç oğlundan ikisi yeniyetmə çağında vəfat etdiyi üçün fikirləşib ki, görünür, Allah onun siyasətlə ınəşğul olmasını istəmir. Arvadı ilə razılaşaraq, siyasətdən uzaqlaşıb və hüquq məsələləri ilə məşğul olub. Lakin 1853-ci ildə prezident seçilib. Bundan sonra onun qorxusu reallığa çevrilib 11 yaşlı yeganə oğlu valideynlərinin gözü qarşısında qatarın altına düşüb.

... Abraham Linkolnun oğlu Robert Todd Linkoln üç Amerika prezidentinin - öz atasının, Harfildin və Makkinlinin öldürülməsini öz gözləri ilə görüb. O, son sui-qəsdin şahidi olandan sonra dövlət qulluğundan həmişəlik uzaqlaşıb.

...Bəzi prezident övladları valideynlərinin məşhurluğundan irəli gələn «şöhrət xəstəliyinin» çətinliyinə tab gətirə bilməyərək bədbəxt olublar: belə ki, 10 prezident övladı alkoqolik olub, 3 nəfəri özünə qəsd edib.

...Con Kuinsi Adamsın bir oğlu özünü öldürəndən və ikinci oğlu içkiyə qurşanıb qara ciyər serrozundan vəfat edəndən sonra prezidentin arvadı deyib: «Daha bir oğlum siyasətin qurbanı oldu».

... Valideynlərinin əleyhinə çıxan prezident övladları da olub. Məsələn, Reyqanın qızı Patrisiya Reyqan atasının həyata keçirdiyi siyasətin sərt tənqidinə həsr olunmuş məqalə və kitablar nəşr etdirib, ailənin xoşagəlməz sirlərini faş edib.

...Prezidentlərin 19 qızı ataları yüksək dövlət postunda olarkən ərə gedib, onlardan 9-unun toyu Ağ evdə olub.

...Prezidentlərdən yalnız oğul Corc Buş ekiz övlad atasıdır və uşaqlar nənələrinin adlarını (Barbara və Cenni) daşıyırlar.

## Prezidentlər və sui-qəsdlər

Birləşmiş Ştatların dörd prezidenti sui-qəsdin qurbanı olub. Onlardan birincisi Abraham Linkolndur. O, 1865-ci il aprelin 14-də Vaşinqtonun Ford teatrının lojasında aktyor Con But tərəfindən tapança atəşilə ölümcül yaralanıb, növbəti gün vəfat edib.

***

1881-ci il iyulun 2-də ruhi xəstə Çarlz Qutye Vaşinqtomın dəmir yolu vağzalında prezident Ceyms Hartfıldi güllələyib. Səbəbini isə özünün işsiz olması və işsizliyinin günahını prezidentdə görməsi ilə izah edib.

1901-ci il sentyabrın 6-da anarxist Leon Çalqoş Nyu-York ştatının Baffalo şəhərində prezident Uilyam Makkinlini qətlə yetirib. Yalnız bu sui-qəsddən sonra Birləşmiş Ştatların prezidentlərinə şəxsi mühafizə təyin olunub. Prezidentlərin şəxsi mühafizə məsələləri 1865-ci ildə saxta pul kəsməklə mübarizə məqsədilə yaradılan və Maliyyə Nazirliyinə tabe olan Məxfi xidmət qurumuna həvalə edilib.

Birləşmiş Ştatların Məxfi xidmətinin vəzifəsi nəinki fəaliyyətdə olan prezidentləri və vitse-prezidentləri, onların ailələrini, həm də bu vəzifəyə əsas namizədləri, habelə sabiq prezidentləri, yeni nikaha girincə sabiq prezidentlərin dul arvadlarını, sabiq prezidentlərin 16 yaşına çatmamış övladlarım, ABŞ-a səfər edən xarici ölkələrin yüksək rəsmi vəzifəli şəxslərini, eləcə də prezidentin göstərişi ilə xarici səfərlərə gedən ABŞ-ın xüsusi nümayəndələrini mühafizə etməkdir.

Bu xidmətin əsas vəzifələrindən biri də saxta əskinaslar hazırlanmasına qarşı mübarizədir.Hətta güclü mühafizə də 1963-cü il noyabrın 22-də Texas ştatının Dallas şəhərində Con Kennedinin həyatını terrordan xilas edə bilməyib.

***

Daha altı Amerika prezidentinə sui-qəsd təşkilatçılar üçün uğursuzluqla başa çatıb. Endrü Cekson, Franklin və Teodor Ruzveltlər, Harri Trumən, Cerald Ford və Ronald Reyqanı sui-qəsdçilər öldürə bilməyiblər.

Qeyd edək ki, Teodor Ruzveltə onun prezidentlik müddəti başa çatandan sonra sui-qəsd olunub. Sabiq prezidentə partiyasının təşkil etdiyi mitinqə gedərkən atəş açılıb, yaralanmasına və güllə gilizinin sinəsində qalmasına baxmayaraq, o, mitinqdə yarım saatlıq nitq söyləyib.

## Prezidentlərin inaqurasiya mərasimi

Amerika xalqına və Konstitusiyaya ilk dəfə and içən dövlət başçısı, təbii ki, Corc Vaşinqton olub. Onun bu yüksək vəzifəni qəbul etməsi iki əsrlik ənənənin əsasını qoyub.

1789-cu ildə Vaşinqton prezident seçilərkən indiki paytaxt mövcud olmayıb. Konqress Nyu-Yorkda yerləşib. O vaxt nəqliyyat vasitələri olmadığı üçün konqresmenlərin səsvermədə kvorumunu təmin etməklə əlaqədar yeni hökumət vəzifələrinin icrasına vaxtından bir ay gec başlamalı olub.

Corc Vaşinqton yaşadığı Virciniya ştatından yolun bir hissəsini faytonla, bir hissəsini isə atla gəlib, sonra Nyu-Yorka gəmi ilə çatıb. Bütün bunlarla əlaqədar ilk prezidentin inaqurasiya mərasimi (Snoska: 1933-cü ilə qədər prezidentlərin inaqurasiya mərasimi, başqa sözlə, vəzifələrinin icrasına başladığı gün seçildikləri noyabr ayında deyil, sonrakı il martın 4-də olub. 1933-cü ildə qəbul olunmuş və 1937-ci ildən qüvvəyə minmiş Konstitusiyaya 20-ci düzəlişə əsasən, prezidentin və vitse-prezidentin vəzifəyə rəsmi başlaması günü 20 yanvar sayılır. Bu dəyişikliyin məqsədi seçkilərlə inaqurasiya arasında olan vaxtı qısaltmaq olub) nəzərdə tutulduğu kimi, martın 4-də deyil, aprelin 30-da baş tutub.

Kilsə zənglərinin və artilleriya atəşlərinin sədaları altında Vaşinqton günorta vaxtı Konqres zalına daxil olub, sağ əlini Bibliyaya basaraq, hakim Robert Livinqstonun ardınca andın mətnini təkrar edib. Andın mətni o vaxtdan Konstitusiyanın bir hissəsinə çevrilib və indiyədək ona heç bir dəyişiklik edilməyib. Yalnız andın mətni başa çatandan sonra Vaşinqton özündən bir ifadə əlavə edib: «Allah mənə kömək etsin». O vaxtdan bu əlavə də məcburi rituala çevrilib.

Qeyd edək ki, qəbul olunmuş ənənəyə əsasən, inaqurasiya mərasimində yeni seçilmiş prezident and içir, sonra isə həyata keçirəcəyi siyasətin əsas cəhətlərini əhatə edən inaqurasiya nitqi söyləyir.

Corc Vaşinqton inaqurasiya mərasimində nitq söyləyərkən lakoniklik nümunəsi göstərib: onun ikinci inaqurasiya nitqi cəmi 135 sözdən ibarət olub və iki dəqiqə çəkib. Sonralar heç kim bu rekordu təzələyə bilməyib.

***

ABŞ-ın ikinci prezidenti Con Adamsın inaqurasiya mərasimi ilk paytaxtda - Filadelfıyada olub. Prezidentin bioqrafı Devid Makaloffün yazdığına görə, 1797-ci ilin martında zala əvvəlcə prezidentliyi təhvil verən Corc Vaşinqton, onun ardınca vitse-prezident seçilmiş Tomas Cefferson, üçüncü isə yeni prezident Con Adams daxil olub. Bioqrafın yazdığına görə, olduqca unudulmaz mənzərə yaşanıb - konqresmenlər qarşısında Amerikada inqilabı öz əlləri ilə həyata keçirmiş üç nəfər dayanıb: hər tərəfdə bir ucaboy virciniyalı, ortada isə kök və alçaqboylu Adams.

***

İnaqurasiya mərasimi Vaşinton şəhərində keçirilən ilk dövlət başçısı üçüncü prezident Tomas Cefferson olub. O, andiçmə mərasiminə - Kapitoli təpəsində yerləşən Konqres binasına piyada gəlib və mərasimdən sonra da oranı piyada tərk edib.

***

1809-cu ildə dördüncü prezident Ceyms Mədison inaqurasiya mərasimini açıq havada keçirmək barədə göstəriş verib ki, xalq təntənəli mərasimi gözləri ilə görsün. Lakin bu ənənə doqquzuncu prezident Uilyam Henri Harrisona baha başa gəlib. Onun inaqurasiya nitqi iki saata yaxın davam edib. Mərasim zamanı çovğun başlasa da, yeni prezident nitqini kəsməyib. Nəticədə onun ağ ciyərlərinə soyuq dəyib və vəzifə postunu qəbul edəndən düz bir ay sonra vəfat edib. İlk dəfə prezident vəzifəsi onun vaxtında vitse-prezidentə keçib.

***

Amerika prezidentlərinin inaqurasiya mərasimini işıqlandırmaq üçün həmişə ən müasir texnologiyalardan istifadə olunub.

Prezident Ceyms Mədisonun nitqi 1809-cu ildə ilk dəfə qəzetlərdə dərc edilib.

1845-ci ildə Ceyms Polk and içərkən onun yanında xüsusi qurğu yerləşdirilib və Semyuel Morze öz yeni aparatı ilə orada əyləşərək, prezidentin dediyi hər bir sözü teleqraf xətti ilə ötürüb.

1857-ci ildə Ceyms Bükenenin inaqurasiya mərasimindən ilk dəfə fotoşəkillər çəkilib. Bundan qırx il sonra amerikahlar Uilyam Makkinlinin inaqurasiya mərasiminə kino ekranlarında baxa biliblər.

Abraham Linkoln andiçmə mərasimindən sonra altı min nəfərin əlini sıxıb.

Uorren Hardinq inaqurasiyaya avtomobildə gələn ilk prezident olub.

1923-cü ildə Kəlvin Kulicin inaqurasiya nitqi radio ilə yayımlanıb.

Prezident Harri Trumən inaqurasiya mərasimi televiziya ilə translyasiya olunan ilk prezident sayılır.

Bill Klintonun ikinci inaqurasiya nitqi internetdə real vaxt rejimində təqdim olunub.

***

A.Linkolnun ölkəni vətəndaş müharibəsinin yaralarını sağaltmağa çağıran məşhur inaqurasiya nitqi cəmi 5 dəqiqə çəkib.

B.Klintonun birinci inaqurasiya nitqi 14, ikincisi isə 22 dəqiqə davam edib.

Inaqurasiya mərasimindəki nitqinin bir cümləsində ən çox sözü Con Adams işlədib -737 söz.

***

Mütəxəssislərin qənaətinə görə, inaqurasiya nitqləri heç də həmişə natiqlik istedadının məhsulu sayılmır. Bununla belə, bəzi prezidentlərin işlətdiyi fikirlər aforizmə çevrilib: «Biz hamımız respublikaçıyıq, biz hamımız federalistik» (T.Cefferson), «Heç kimə yamanlıq, hamıya mərhəmət» (A.Linkoln), «Bizim qorxunun özündən başqa qorxduğumuz bir şey yoxdur» (F.Ruzvelt), «Soruşma ki, ölkə sənə nə verə bilər, özündən soruş ki, sən ölkəyə nə verə bilərsən» (C.Kennedi).

***

Əsası hələ XIX əsrdə qoyulmuş ənənəyə görə, ABŞ prezidentlərinin inaqurasiya mərasimi bazar gününə təyin edilmir. Lakin əgər 20 yanvar bazar gününə düşübsə, mərasim Ağ evin Şərq zalında qısa müddətdə keçirilir. Təntənəli inaqurasiya mərasimi isə növbəti gün təşkil edilir. 1985-ci ildə R.Reyqanın ikinci inaqurasiyası belə keçirilib.

1829-cu ildə Əndryü Ceksonun inaqurasiyasında əsası qoyulmuş ənənəyə görə, prezidentin vəzifəyə başlaması mərasimi Kapitoli təpəsində - Konqresin əsas binasının Şərq qapısının yanında, Ali Məhkəmənin binası ilə üzbəüz meydançada keçirilir.

1837-ci ildə havanın pisləşməsi ilə əlaqədar Uilyam Taftın inaqurasiya mərasimi Senat binasında keçirilib.

1944-cü ildə dördüncü dəfə seçilən Franklin Delano Ruzveltin səhhəti və təhlükəsizliyi nəzərə alınaraq, andiçmə mərasimi Ağ evin Cənub cinahında təşkil olunub.

1985-ci ildə R.Reyqanın inaqurasiya mərasimi də havanın pis keçməsi ilə əlaqədar Konqres binasında təşkil edilib.

R.Reyqanm birinci inaqurasiya mərasimində Vaşinqtonda ən aşağı temperatur (mənfi 14 dərəcə), ikinci inaqurasiya mərasimində isə ən yüksək temperatur (müsbət 13 dərəcə) qeydə alınıb.

## Birgünlük prezident

Devid Atçisonun adı ABŞ tarixinə «birgünlük prezident» kimi düşüb.

ABŞ-ın 11-ci prezidenti Ceyms Polkun vəzifə səlahiyyətləri 1849-cu il martın 3-də, gecəyarı başa çatıb. Növbəti müddətə prezident seçilmiş Zakari Teylor isə o qədər mövhumatçı adam olub ki, martın 4-də - bazar günü prezident postunu qəbul etməklə razılaşmayıb və andiçmə mərasimini bazar ertəsinə saxlamağı xahiş edib. O vaxtkı Amerika qanunvericiliyinə əsasən, həmin bir sutka müddətinə əlifba üzrə soyadı birinci olan senator Devid Atçison prezident təyin edilib və o, and içib.

Sutkanın çox hissəsini yatmaqla başa vuran Atçinson prezident postunu tərk edərkən deyib: «Mən bu öhdəlikdən şərəf duydum, xüsusən ona görə ki, hakimiyyətdə olduğum müddətdə həm ölkədə, həm də xaricdə heç bir böhran baş vermədi, administrasiyada heç bir korrupsiya faktı qeydə alınmadı».

## Həyat və ölüm arasında mənhus oxşarlıq

Con Kennedi Abraham Linkolndan düz 100 il sonra prezident seçilib. Hər iki prezident qətlə yetirilib.

Linkolnun qatili olan aktyor Con But 1839-cu ildə doğulub. Kennedinin qatili sayılan Li Harvi Osvald ondan 100 il sonra -1939-cu ildə doğulub.

Prezidentlərin hər ikisini əhali arasında, arvadlarının gözü qabağında və cümə günü öldürüblər. Hər ikisinə güllə peysərindən dəyib.

Linkolnu Ford teatrında öldürüblər, Kennedini Ford zavodunun istehsalı olan «Linkoln» markalı avtomobildə.

Linkolnun şəxsi katibinin soyadı Kennedi, Kennedinin katibinin soyadı Linkoln olub.

Hər iki prezidenti yüksək vəzifədə Conson familiyalı vitse-prezident əvəz edib. Birinci - Əndryü Conson 1808-ci ildə, ikinci - Lindon Conson ondan 100 il sonra - 1908-ci ildə doğulub.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. ABŞ demokratiyası haqqında əsas mətnlər. Tərtibçi Melvin İ.Urofski. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi. B., 2005. 487 səh.
2. ABŞ iqtisadiyyatı: ümumi cizgilər. B., 2002.157 səh.
3. Amerika Birləşmiş Ştatlarının konstitusiyası. B.,1991. 24 səh.
4. Amerika qanunları necə yaradılır. B., 1992. 74 səh.
5. Amerika iqtisadiyyatının əsas cəhətləri. B., 1992. 212 səh.
6. Amerika hökumətinin əsas cəhətləri. B., 1995. 125 səh.
7. Геевский И.А., Сетунский Н.К. Американская мозаика. М., 1991. 295 стр.
8. Софии В.В. Оснаватели США: исторические портреты. М., 1983. 176 стр.
9. A History of The United States. Ginn and Company. Lexington, Massachusetts, 1986. 880 p.
10. Encyclopedia of Associations. Washington D.C.: Gale Research Inc., 1995. 615 p.
11. Madam Secretary: A Memoir Madeline Albright. New York, 2003. 652 p.
12. Merriam Webster's Encyclopedia of Literature, 1995 by Merriam-Webster. 1235 p.
13. North Carolina. On mymind. Guilford, Connecticut, 2003. 120 p.
14. North Carolina Quilts. Chappel Hill, NC, 2003. 214 p.
15. The Declaration of Independence. The Constitution of the United States of America. United States Department of State. Printed at RPC, 2005. 44 p.

internet saytlan

1. http://www.americana.ru
2. http://www.whitehouse.gov/history/presidents/
3. http://www.ecu.edu/
4. http://www.ecu.edu/cs-lib/
5. http://www.wic.org/misc/history.htm
6. http://www.thelostcolony.org/
7. http://www.co.orange.nc.us/
8. http://www.nps.gov/wrbr/